Asif Hacıyev

LİNQVİSTİK VƏ METODİK ARAŞDIRMALAR

Pedaqoji elmlər namizədi, dosent Asif Hacıyev 1959-cu ildə İsmayıllı rayonunun Quşencə kəndində anadan olmuşdur. Orta təhsilini 1976-cı ildə Bakının Balaxanı qəsəbəsindəki 204 nömrəli məktəbdə başa vurmuşdur. 1980-cı ildə ADPİnin (indiki ADPU) filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Dilimizin tədqiqi və tədrisi ilə məşğul olur. Onlarla məqalənin, həmçinin «Qrammatikanın tədrisində tarixilik prinsipinin nəzərə alınması» (1998) və «Dədə Qorqud kitabı: oxunuşlar, açımlar» (2007) kitablarının müəllifidir.

ASİF HACIYEV

LİNQVİSTİK VƏ METODİK ARAŞDIRMALAR

BAKI – 2009

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi Şurasının 13 mart 2009-cu il tarixli (protokol №1) qərarı ilə çap olunur.

Elmi redaktoru: Tofiq Hacıyev,
AMEA-nın müxbir üzvü,
Türk Dil Qurumunun həqiqi üzvü,
filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi.

Rəyçilər: Əzizxan Tanrıverdi,
filologiya elmləri doktoru, professor.

Ənvər Abbasov,
ARTPİ-nin direktor müavini,
Kurrikulum Mərkəzinin direktoru,
pedaqoji elmlər namizədi, dosent,
Əməkdar müəllim.

Hacıyev A.X. Linqvistik və metodik araşdırmalar, Bakı: “Nurlan”, 2009, -192 səh.

Kitabda Azərbaycan dilinin tarixi və onun tədrisi metodikası ilə bağlı aparılan araşdırmaların nəticəsi kimi meydana çıxan məqalələr toplanmışdır.

Мцндярижат

Ön söz 3
I hissə. Linqvistik araşdırmalar
1. “Irk bitik”lə bağlı bir açıqlama.....5
2. Leкsik arxaiкləşmə baxımından “Dədə Qorqud kitabı”na bir nəzər.....11
3. “Dədə Qorqud kitabı” nda işlənmiş bəzi atalar sözləri haqqında 28
4. Bir daha “marə//mərə” sözü haqqında.....40
5. “Dolu” arxaizmi və onun etimologiyası.....48
6. Da/də ədatının dil sistemində yeri.....54
7. Müqayisə bildirən tərzi-hərəkət budaq cümləsinin bir tipi haqqında.....79
II hissə. Metodik araşdırmalar
1. Azərbaycan dili təliminin bəzi problemləri.....83
2. Azərbaycan dilindən sistematik kursun sintaktik əsasda tədrisinə dair.....90
3. Dilin nitq fəaliyyəti zəminində tədrisi.....97
4. VII-VIII siniflərdə sintaksis təliminin linqvistik problemləri.....104
5. Da, də ədatının tədrisinin bəzi məsələləri.....112
6. Dil təlimində tarixilik, onun qoyuluşu və ifadə yolları.....121
7. Azərbaycan dili dərslərində tarixi arayışlardan istifadənin imkanları.....128
8. Etimoloji təhlil şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinin mühüm vasitəsi kimi.....136
9. “Kitabi-Dədə Qorqud”un tədrisi ilə bağlı bəzi qeydlər...143
10. Klassik ədəbiyyatın tədrisində dil tarixi elementlərindən istifadə.....154
11. Azərbaycan dilindən müasir dərsin təşkilində müəllimin nəzəri-metodik hazırlığının rolu.....163
Qeydlər və ədəbiyyat siyahısı.....171

Ön söz

Dil əsrlərə sığmayan zaman axarında ilkin ruhun ifadəsini səsin, sözün sehri ilə nəsillərdən nəsillərə ötürməklə toplumu milli varlıq şəklində yaşatmağa qadir olan Tanrı möcüzəsidir. Türkün hayqıran köksündən qopub Orxonlarda, Yeniseylərdə, Altaylarda, İtillərdə, Qafqazlarda sədalanan, müdrik Dədələrin boylamasında, soylamasında gəlimli-gedimli dünyanın hikmətlərindən danışan ulu bir dilin barlı-bəhrəli budağı kimi Azərbaycan dili bu möcüzədən qaynaqlanaraq xalqımızın əbədiyaşar həyat rəmzinə çevrilmişdir. Zəngin söz ehtiyatına, mükəmməl qrammatik quruluşa malik ana dilimizin dərindən öyrənilməsi bu həqiqətə işıq saçmaqla keçmişimizi gələcəyimizə bağlayan mənəvi tellərin açıqlanmasında mühüm rol oynayır.

Xalqın söz dünyasına bələdlik həyata baxışının açarıdır. Onu tanımaq, mübarizəsini, yaşam tərzini anlamaq üçün bu dünyaya baş vurub məna çalarlarını duymaq lazımdır. Dil hadisələrinin elmi əsasda şərhi bu həyatı rəngarəng şəkildə əks etdirən şifahi və yazılı ədəbi abidələrin obyektiv qavranılmasına, mübahisəli məqamların düzgün həllinə imkan yaradır.

Dilə sevgi və qayğı yalnız onun öyrənilməsi ilə bitmir. Müxtəlif sivilizasiyaların qarşılaşdığı hazırkı mərhələdə dilimizin yetişməkdə olan yeni nəslə ulu babalardan qalmış əvəzsiz miras kimi öyrədilməsi də önəmli məsələlərdəndir. Ümumtəhsil məktəblərində dilin hansı məzmunda, hansı forma və üsullarla mənimsədilməsi ilk növbədə bu problemin açıqlanmasına xidmət edir. Apardığımız araşdırmaların nəticəsi kimi meydana çıxan linqvistik və metodik səciyyəli məqalələrdə məhz bu problemlərə toxunmaq istəmişik.

I hissə. Linqvistik araşdırmalar

1. “Irk bitik”lə bağlı bir açıqlama

Tarixi baxımdan VIII əsrin sonu – IX əsrin əvvəllərinə aid edilən “Irk bitik” abidəsi kağız üzərinə qədim türk runi əlifbası ilə ilk yazıya alınmış kitablardan sayılır. Elm aləmində “Falnamə” və “Bəxt kitabı” adları ilə də tanınan bu əsər macar alimi A.Steyn tərəfindən Dunxanda tapılmış və məşhur türkoloq V.Tomsenin transkripsiyası və ingiliscə tərcüməsində 1912-ci ildə Londonda nəşr edilmişdir. 65 bölümdən və ya paraqrafdan ibarət 104 səhifəlik abidənin mətni sonralar müəyyən düzəlişlərlə H.N.Orkun tərəfindən türk (1, 71-93), S.Y.Malov tərəfindən isə rus tərcüməsi ilə birlikdə (2, 77-92) yenidən çap olunmuşdur.

Keçən müddət ərzində A.V.Qaben, C.Klauson, A.Arlotto, Y.Hamelton, O.Pritsak, M.Erdal kimi tədqiqatçıların araşdırmalarında abidənin dili daha dərindən öyrənilmiş, xüsusilə mübahisəli oxunuşa və məna açımına malik ayrı-ayrı söz və ifadələr, qrammatik formalar dəqiqləşdirilərək əslinə uyğun şərh edilmişdir (ətraflı bax: 3).

Əsər Azərbaycan türkoloqlarının da nəzər-diqqətindən yayınmamış, əski türk yazılı abidələrinin ən dəyərli örnəklərindən biri kimi araşdırılaraq, hətta iki variantda dilimizə tərcümə edilmişdir (4, 269-295; 5, 190-202). Bütün bunlara baxmayaraq, abidənin oxunuşu və şərhi ilə bağlı bəzi ziddiyyətli məqamlar hələ də qalmaqdadır. Belə məqamlardan biri də kitabın 87-88-ci səhifələrində getmiş LXII paraqrafla əlaqədardır ki, burada onun üzərində ayrıca dayanmaq istərdik.

Həmin “ırk” (fal) belə başlanır: “Kanğı ölmiş könəki tonmiş kanğı nəlük ölgəy ol, bəglik ol, könəki nəlük tonğay ol, künəşkə olurur ol” (5, 194).

Türkologiyada əsas fikir ayrılığı bu mətn parçasında iki dəfə işlənmiş *kanğı, könəki* sözləri ilə yanaşı, *ölmiş* sözü üzərində

qurulmuşdur. M.Erdalın adı çəkilən məqaləsində mövcud mülahizələr geniş təhlilə cəlb edildiyi üçün (3, 110-112) burada onları bir daha xatırlatmadan birbaşa mətləbə keçirik.

Həmin parça S.Y.Malovun nəşrində V.Tomsen tərcüməsi ilə müqayisə edilərək ruscaya belə çevrilmişdir: "Водоем (В.Томсен: принц?) иссяк, а водосток (В.Томсен: ведро?) замерз, каким образом может иссякнуть водоем, когда он княжеский? Как может замерзнуть канал, когда он находится на солнце?" (2, 90-91).

Göründüyü kimi, *kanğı* sözünü *şahzadə*, *könəki* sözünü isə *vedrə* kimi açıqlayan Tomsendən fərqli olaraq S.Y.Malov həmin sözləri müvafiq qaydada "su hovuzu" və "su axarı" – "kanal" mənalarında yozmuşdur.

Malov tərcüməsini əsas götürən prof. Ə.Şükürlü həmin parçanı aşağıdakı variantda çevirmişdir: "Su hovuzu tükənmiş, arx donmuş. Su anbarı necə tükənə bilərdi, o ki xana məxsusdur. Arx necə dona bilərdi, o ki günəş altındadır" (4, 294).

Prof. Ə.Rəcəbov isə *kanğı* sözünü V.Tomsen variantına istinad edərək *xan oğlu*, *könəki* sözünü isə tamamilə yeni bir variantda – 3-cü şəxs təkinin mənsubiyyət şəkilçisi qəbul etmiş *köynək* mənasında anlayaraq, ümumilikdə mətni belə çevirmişdir: "Xan oğlu ölmüş, köynəyi donmuş. Xan oğlu nə üçün ölməlidir? Bəylikdir. Köynəyi nə üçün donmalıdır? Günəşdə oturur" (5, 200).

Müxtəlif suallar doğuran bu fərqli çevirmələrin mənşəyində, xüsusən *kanğı* və *könəki* sözlərinin açımında dil faktlarına sərbəst yanaşma mövqeyinin durduğu açıq-aydın duyulmaqdadır. *Kanğı* – "su hövzəsi", *könəki* – "su novu" yozumunun duyumla, *kanğı* – "xan oğlu", *könəki* – "köynəyi" yozumunun isə səs oxşarlığına əsasən irəli sürüldüyünü ehtimal etmək olar. Bu cür yanaşma isə məhdudiyyətsiz variantlar verməyə imkan yaradır.

Təhlilsə göstərir ki, problemin həllini qeyd edilən açar sözlərin məna çözülməsində deyil, onların əslinə uyğun yeni oxunuş variantlarında aramaq lazımdır.

Qədim türk runi əlifbası ilə sağdan sola *k, n, ğ, ı* şəklində yazılmış ilk söz, istisnasız olaraq, əksər türkoloqlar tərəfindən *kanğı* variantında oxunmuşdur. Lakin, nədənsə, oxunuş variantı deyil, yazılış variantı türkologiyada, zəif də olsa, şübhə doğurur (3, 110).

Göstərilən kiçik parçada onun iki dəfə işləndiyi və hər dəfə də eyni variantda yazıldığı nəzərə alınaraq, təbii ki, bu fərziyyə qəbul edilməmişdir.

Göründüyü kimi, *a* səsi sözün qrafik yazılış formasında öz əksini tapmamışdır. Ümumiyyətlə, əski türk abidələrində *a* səsi təkcə sözün əvvəlində deyil, bəzən sözün ortasında gəldikdə belə onu ifadə edən qrafik işarə işlənmir (5, 31). Odur ki, ilk sözü *kanağı* şəklində də oxumaq mümkündür. İrəlidə görəcəyimiz kimi, bu oxunuş variantı digər sözlərin də oxunuş variantları ilə əlaqələndirdikdə özünü tamamilə doğruldur. Belə ki, müasir türk dillərinin əksəriyyəti, o cümlədən Azərbaycan dilində *qanov* fonetik variantında yaşayan bu arxaik forma etimoloji baxımdan *kan* söz kökündən və *-ağı* sözdüzəldici şəkilcisindən ibarətdir. Qədim çin dilindən Altay dillərinə, o cümlədən tunqus-mancur dillərinə də keçməsi güman edilən *kan(q'an)* sözü əslən *çay* deməkdir (6, 140). *-Ağı* tərkibi isə qədim və orta əsr türk yazılı abidələrinin dilində tez-tez rast gəlinən arxaik şəkilçidir. Prof. V.Aslanovun da qeyd etdiyi kimi, müasir türk dillərində, o cümlədən Azərbaycan dilində *-ov//-öv* şəkilçisi ilə bitən sözlərin əksəriyyəti tarixən məhz *-ağu//-əğü* şəkilçisi ilə düzəlmişdir (bax: 7, 92-96). Bir neçə dil faktını nəzərdən keçirək:

"Buğa, buğa!" dedikləri qara inəg buzağısı degilmidir (8, 88);

Ağır buqağı topuğacın dögər, degil (8, 95);

Qırağu anun içün yağar ki, əli-ayağı üşüdə (9, 154);

Qış gözi qırağı olur (9, 155) və s.

“Dədə Qorqud kitabı”, “Oğuznamə” kimi qədim abidələrin dilindən götürülmüş bu nümunələrdə *buzağı, buqağu, qırağı* kimi sözlər müasir dilimizdə *buzov, buxov, qırov* fonetik variantında işlənməkdədir.

Deməli, *kanağı* fonetik variantının da abidənin dilində işlənməsi faktına təbii baxılmalıdır. Mənası “su arxı” demək olan bu qədim söz müəyyən səs dəyişikliyinə uğrasa da, öz işləkliyini hələ də itirməmişdir.

Tədqiqat göstərir ki, *kanağı* sözündən sonrakı sözün *ölmiş* variantında transkripsiya edilməsi yanlış yozumlara zəmin yaratmışdır. Məlumdur ki, Orxon-Yenisey abidələrində *ö* və *ü* səsləri eyni qrafik işarə ilə verilmişdir (5, 32). Bu isə həmin sözü *ülmiş* kimi də oxumağa əsas verir. İstər Orxon-Yenisey, istərsə də digər əski türk yazılı abidələrinin dilində fəal iştirak edən *ül(mək)* feli (4, 79, 123) bir çox sözlərin mənşəyində (məs., *ülüş-pülüş, ülgü, ülgüc* və s.) indi də daşlaşmış şəkildə yaşamaqdadır. Mənası “böl(mək)”, “parçala(maq)”, “hissəyə ayır(maq)” olan bu fel kökünə *pay, bölgü* (məcazi mənada “bəxt”, “qismət”) mənasında elə həmin abidənin sonuncu paraqrafının (“kəntü ülügi erkgil ol” – 5, 195) cümləsində işlənmiş *ülüg* sözündə də (*-üg* ad düzəldən şəkilçidir) rast gəlmək olur.

Həmin arxaik söz kökünü “Dədə Qorqud kitabı”nın boylarının dilində işlənmiş *ülüşmək* felinin tərkibində (*Kafər dəxi düşübən bir yerdə aqça ülüşməkdəydi* – 9, 53) və Əbu Həyyan lüğətində işlənmiş *ülədi (böldü), ülü, ülüş (pay, hissə)* sözlərinin də tərkibində (10, 20) asanlıqla ayırmaq mümkündür. Ümumiyyətlə, *ülmək* felinin mənşəyi ilə bağlı araşdırmalar belə bir nəticəyə gəlməyə əsas verir ki, müasir türk dillərində daha geniş işlənən *ölmək* feli məhz həmin arxaizmin fonetik dəyişikliyə uğramış variantıdır. Belə ki, qədim türk təfəkkürünə görə, insanın ölməsi ruhun bədəndən ayrılması ilə müşahidə olunur, yəni ölmək, əslində bölünmək, parçalanmaq

deməkdir. Müasir dilimizdəki *matım-qutum qurudu* idiomu bu qədim dünyagörüşün izlərini hələ də daşımaqdadır. Adətən, qorxu, heyrət, təəccüb hisslərini ifadə edən bu deyimdə insanın bədən (mat) və ruhdan (qut) ibarət olması ilə bağlı əski düşüncələr öz əksini tapmışdır. *Öl(mək)* felinin müstəqim mənada "bölünmək", "parçalanmaq" anlamında işləndiyini Orxon-Yenisey abidələrinin dilində də müşahidə etmək olar. Məsələn, "Tonyukuk" abidəsinin qərb tərəfindəki 3-cü sətirdə belə bir cümlə getmişdir: "Türk bodum ölti, alkıntı, yok boltı" (5, 117).

Y. Məmmədov həmin cümləni *türk xalqı öldü, məhv oldu, yox oldu* (5, 121), Ə.Şükürlü isə *türk xalqı öldü, zəiflədi, yox oldu* kimi (4, 249) çevirmişdir.

Əslində bu cümləni türk xalqının faciəsini əks etdirən müəllifin mövqeyindən çıxış edərək açıqlamaq lazım idi. Burada yaxın mənalı fellərin yanaşı işlənərək eyni mənanı təkidlə ifadə etməsindən deyil, hadisələrin məntiqi ardıcıllıqla düzümündən söhbət açıla bilər. Yəni abidənin müdrik yazarı türk xalqının yoxolma səbəbini onun parçalanmasında və bunun nəticəsi kimi əvvəlki qüdrətini itirərək zəifləməsində görür. Beləliklə, istər oxunuş variantından, istərsə də məna açımından asılı olmayaraq "Irk bitik"dəki *ölmiş//ülmiş* sözlərini "bölünmüş", "parçalanmış" kimi qavramaq olur.

Könəki sözünə gəlincə, yenə də *ö* və *ü* səslərinin eyni qrafemlə işlənməsinə əsaslanaraq, onu da *künəki* kimi transkripsiya etmək mümkündür. Etimoloji baxımdan *kün* və *-əki* hissələrindən ibarət olan bu sözün müasir dilimizdəki *güney* sözünün qədim fonetik variantı olduğunu söyləmək olar. Prof. V.Aslanov eyni üsulla düzəlmiş *quzey və güney* sözlərini tarixən *-ağu//-əgü >-ov//-ev>-ey* dəyişikliyinə məruz qalmış şəkilçi vasitəsilə düzəldiyini əsaslandırır (7, 96-97).

Beləliklə, gətirilən faktlara əsasən mətni aşağıdakı şəkildə traskripsiya etməyi daha inandırıcı sayırıq: *Kanağı ülmiş, künəki*

tonmiş. Kanağı nəlük ülgəy ol, bəglik ol, künəki nəlük tonğay ol, künəşkə olurur ol.

Bu oxunuş variantı isə məntiqi cəhətdən bir bütöv təşkil edən mətn parçasını çox sadə bir dəyişikliklə müasir dilimizə çevirməyə əsas verir: *Qanov bölünmüş, güney donmuş. Qanov nə üçün bölünmüş, bəylikdir (yəni bəyə məxsusdur), güney nə üçün donmuş, o ki günəşin altındadır.*

2. Leksik arxaikləşmə baxımından «Dədə Qorqud kitabı»na bir nəzər

«Dədə Qorqud kitabı»nın dilini səjiyyələndirən əsas əlamətlərdən biri onun zəngin söz ehtiyatına malik lüğət tərkibində leksik arxaizmlərin nəzərə çarpajaq dərəjədə işlək olmasıdır. Əsərin əslinə uyğun oxunub açıqlanmasında qarşıya çıxan başlıja çətinliklər sırasında göstərilən bu amildən həm də müsbət mənada faydalanmaq mümkündür. Məlumdur ki, arxaikləşmə dildaxili tarixi inkişaf prosesinin məhsuludur. O, daimi xarakter daşıyır və dilin bütün qatlarını əhatə edir. Lakin dilin fonem sistemi və qrammatik quruluşu ilə müqayisədə leksik tərkibi arxaikləşməyə daha həssas münasibətdədir. Bu mənada «Kitab»a məxsus leksik arxaikləşmə prosesini dərindən izləməklə onun formalaşma, ilk dəfə yazıya alınma və sonunju dəfə üzü köçürülmə tarixlərindən irəli gələn spesifik jəhətləri müəyyənləşdirmək və bəzi mübahisəli məsələlərə aydınlıq gətirmək olar. Tədqiqat göstərir ki, bu proses birdən-birə, bir zaman keçidində deyil, mərhələ-mərhələ, müxtəlif vaxt ayrıjlarında baş vermişdir. Buna görə də onu üç mərhələyə ayırmağı məqsədəuyğun sayırıq. V-XI əsrlər üçün işlək olub, az sonra arxaikləşən sözləri birinji mərhələyə, artıq Drezden və Vatikan nüsxələrinin yazıya alındığı dövrdə, yəni XV-XVI əsrlərdə arxaikləşən sözləri ikinji mərhələyə, daha sonradan arxaikləşən sözləri isə üçünjü mərhələyə aid etmək olar.

Sözsüz, sonunju mərhələdə arxaikləşən sözləri tapıb üzə çıxarmaq, onları leksik-semantik baxımdan açıqlamaq bir o qədər də çətinlik törətmir. Yalnız «Kitab»ın dili üçün deyil, ümumən klassik ədəbiyyatımız üçün səjiyyəvi olan həmin arxaizmlər haqqında kifayət dərəjədə material toplanmış, şərhlər verilmişdir. Anjaq çox təəssüf ki, abidənin Azərbayjan naşirləri bəzən bu arxaizmlərə sərbəst yanaşaraq, onları istədikləri variantda verməyi üstün

tutmuşlar. Məsələn, «al» sözünün «Kitab»ın dilində işlənmiş arxaik məna çalarlarından biri də «tərəf», «yön» anlamındadır:

Başın ala baqar olsam, başsız ağaj!

Dibin ala baqar olsam, dibsiz ağaj! (11, 48)

Qarşum ala, yigit, məni nə mənlərsən? (11, 76)

Qədim lüğətlərdə «al» fonetik variantında qeydə alınmış «tərəf» mənalı bu arxaik sözün (-a yönlük hal şəkilçisidir) abidənin dilində «sağım ala», «solum ala», «qarşum ala», «yönüm ala» birləşmələrinin tərkibində işləndiyi mübahisəsiz faktdır. Anjaq türk naşirlərindən fərqli olaraq Azərbayjan naşirləri tarixilik prinsipini gözləmədən «ala» arxaik formasını «ələ» variantı ilə əvəz etmiş (10, 73, ; 11, 68-69; 3, 340), bir növ onu süni şəkildə «müasirləşdirmişlər». Nüsxə fərqlərinə şərh yazan prof. S.Əlizadə akad. H.Araslı tərəfindən ilk dəfə irəli sürülmüş «ələ» variantına üstünlük verərək buna: «mətndə məhz «tərəf» mənasında işlənmiş «əl» sözü inandırıjı görünür» (11, 239) qənaətilə haqq qazandırır.

Araşdırmalar göstərir ki, «qol» , «jinah» sözlərindən fərqli olaraq, «əl» sözünün çoxişləklik qazanıb Azərbayjan dilində «tərəf» mənasında işlənməsi nə tarixi, nə də müasir baxımdan özünü doğrultmur. Ümumiyyətlə, təkjə bizim dilimizdə deyil, digər türk dillərində də «əl» sözü heç zaman «tərəf» mənasını ifadə etməmişdir. Odur ki, ən nüfuzlu lüğətlərdə bu mənanın qeydə alınmasına təəjjüb etmək deyil (13, 236), reallıqdan irəli gələn həqiqət kimi baxmaq lazımdır. Digər bir jəhətdən, eyni yazılışın bir məqamda «qarşum ala» (10, 84; 11, 76; 3, 352), başqa bir məqamda «qarşum ələ» (10, 73; 11, 69; 3, 340) kimi oxunması nə dərəjədə düzgündür və bu qorqudşünaslığa nə verər? Yalnız tarixilik deyil, həm də dil faktına vahid yanaşma prinsipinin pozulması fərqli oxunuş variantlarına şərait yaradan amillərdəndir. Asılı tərəfləri I və II şəxs təkinin mənsubiyyət şəkilçilərini qəbul etmiş bu birləşmələr «Kitab»ın dili üçün xarakterik sayılan sintaktik vahidlərdəndir. Bu

mövqedən yanaşdıqda «Qazan bəg oqlı Uruz bəgin tutsaq oldığı boy»da Burla xatunun dilindən deyilmiş «Yanım ala baqduğında qonşuma eyü baqdım» (yəni «Yan tərəfimə baxdığım zaman qonşuma yaxşı (xoş) baxdım»; -M.Ergin də belə oxumuşdur -5, I j., 164) jümləsinin tərkibində getmiş «yanım ala» birləşməsinin Zeynalov-Əlizadə nəşrində «Yanıma, ala» (11, 73) variantında həmjins sözlər kimi oxunması ilə heç jürə razılaşmaq olmur. H.Araslı və Ş.Jəmşidov variantları ilə müqayisədə («Yanıma ala baxdığımda/baqdıqımda, qonşuma ev baxdım/ baqdım - 10, 79; 3, 347) daha uğurlu alınsa da, həmin variantda «sağım ala», «solum ala», «qarşım ala» modeli nəzərə alınmamış, nətijədə birləşmənin daxil olduğu soylamanın misradaxili bölgüsünə xələl gəlmişdir:

Quru- quru çaylara su saldım,
Qara tonlı dərvişlərə nəzir verdim,
Yanıma, ala baqduğumda qonşuma eyü baqdım (11, 73).

Dürd hejalı söz və ifadələrlə başlanan bu söyləm parçasında «yanım ala» birləşməsi daha uyarlı, daha məntiqi görünür (Yeri gəlmişkən, abidənin sərbəst şeir formasında düzülüb-qoşulmuş soylamalarında misradaxili bölgünün nəzərə alınması faktı önəmlidir və bu, bir çox mübahisəli məqamlara aydınlıq gətirə bilir).

Göründüyü kimi, hətta dilimizin son 5-6 əsrlik inkişaf mərhələsində işləklikdən düşmüş «məlum» arxaizmlərin açıqlanması ilə bağlı bütün problemlər aradan qaldırılmamışdır. Belə olan təqdirdə əvvəlki arxaikləşmə mərhələlərini əhatə edən qədim sözlərin açıqlanmasındakı vəziyyəti təsəvvür etmək o qədər də çətin deyil.

Təhlil göstərir ki, ikinji arxaikləşmə mərhələsi Drezden və Vatikan nüsxə katiblərinin, eləjə də boyları sonunju dəfə nəql edən ozanın adı ilə bağlıdır. Söz, ifadə və deyimlərin çağdaş oxujunun anlam səviyyəsinə uyğunlaşdırılması şifahi xalq ədəbiyyatı üçün təbii haldır. Eyni zamanda, daha mühafizəkar mövqedə durub yazılı

ədəbi nümunələrin qədim nüsxə üzünü köçürən katiblər də bəzən belə müasirləşdirmə meylindən çəkinməmiş, yeri düşdükjə «əvəzləmə» əməliyyatı aparmışlar. Bizjə, «Dədə Qorqud kitabı» hər iki yöndən belə çevirmələrə məruz qalmışdır. Bir neçə nümunəni nəzərdən keçirək.

Abidənin dilində ərəb mənşəli «dövlət» sözündən 16 dəfə istifadə edilmişdir. Məsələn:

Könlün yuja tutan ərdə dövlət olmaz (11, 31)

Oğul atanın yetiridir, iki gözinin biridir.

Dövlətlü oğul qopsa, ojağının közidir.

Oğul dəxi neyləsin baba ölüb mal qalmasa,

Baba malından nə faidə, başda dövlət olmasa...

Dövlətsiz şərrindən allah saqlasun , xanım, sizi! (11, 31-32).

Ata adın yüridəndə dövlətlü oğul yeg (11, 32)

Qaragünə aydır: «Qara bulıt dedigin sənin dövlətindir» (11, 44)

Qutlu olsun dövlətinüz (11, 63)

Qazan aydır: «Dəlü ozan, dövlətin dəpdi . . . » (11, 64) və s.

Güman edirik ki, orta əsr ədəbi dilimiz üçün işlək olan «düşünjə, ağıl, fikir» mənalı bu arxaik söz boyların dilinə daha qədim bir arxaizmi əvəzetmə yolu ilə daxil olmuşdur. Belə ki, «Sağlıqla sağınçın, dövlətin həq artursin» (11, 41) oğuz alqışının qrammatik quruluşunda «dövlət» sözü «sağınj» sözünün əlavəsi kimi verilmişdir. Bu da əski türk yazılı abidələrinin dilində işlənmiş eyni mənalı «sakınj» arxaizminin (4, 486; 16, 300) əsərin daha qədim nüsxə variantına məxsus leksik vahid olduğunu söyləməyə əsas verir. Türk mənşəli sözün (sağ(maq) – fikir-ləş(mək) deməkdir, indi də «Sən saydığını say, gör fələk nə sayır» deyimində «say» fonetik variantında yaşamaqdadır, -ın feldən fel düzəldən , -j isə ad düzəldən şəkilçidir, müqayisə et: sev-in-j) ərəb mənşəli sözlə əvəzlənməsi həm nağılçı ozan, həm də katib tərəfindən yerinə yetirilə bilərdi. Hər iki halda bu abidənin dilini müasirləşdirmə –

zamanın ədəbi dilinə uyğunlaşdırma meylindən irəli gəlir. «Sağınj» sözünün «Əmsali- türkanə»də qeydə alınmış «Sağınj xeyir gərək» atalar sözündə yaşaması (1, 40) onun məhz orta əsrlərdə, yəni əsərin sonunju dəfə yazıya alınma dövründə arxaikləşdiyinə dəlalət edir.

Araşdırmalar göstərir ki, katib tərəfindən əvəzlənmiş sözlərdən biri də «alaqırı» arxaik söz formasıdır. «Salur Qazanın evi yağmalandığı boy»da Qaraja çobanın kafirə javab söyləminin ilk misrasında işlənmiş bu arxaizm («Alaqırı söyləmə, mərə itüm kafər!») eyni məqamda abidənin Vatikan nüsxəsində «hərzə-mərzə» sözü ilə əvəzlənmişdir (6, I j., 98) . Bu əvəzlənmə variantı yalnız Vatikan nüsxə katibi tərəfindən deyil, həm də Drezden nüsxə katibi tərəfindən başqa bir məqamda - «Bəkil oğlu Əmranın boyu»nda yerinə yetirilmişdir: «Hərzə-mərzə söyləmə, itim kafər!» (11, 108) . Deməli, həmin dövr üçün «alaqırı» söz formasının arxaikləşmə prosesi tamamilə başa çatmışdı. Maraqlıdır ki, «Kitab»ın tanınmış naşirlərindən sayılan akad. H.Araslı göstərilən söyləmi Drezden nüsxəsində olduğu kimi deyil, Valitan nüsxə katibinin seçdiyi yola uyğun «hərzə- mərzə» sözü ilə başlamışdır (10, 33). Seçim üst-üstə düşsə də, səbəblər fərqli idi. Əgər Vatikan nüsxə katibi bunu sözün arxaikləşməsini nəzərə alaraq etmişdirsə, hörmətli alimimiz həmin sözün yazılış variantını müəyyənləşdirməkdə çətinlik çəkdiyi üçün etmişdi. Onu qınamağa dəyməz. Doğrudan da, «alaqırı» söz forması qorqudşünaslıqda ən mübahisəli dil vahidlərindəndir. Məsələn, M.Ergin onu «ilakırdı» variantında oxuyaraq (6, I j.,98) «laqqırtı, laf, boş söz» anlamında şərh etmiş (6, II j., 3, 150) və «i» saitinin «lakqırtı» sözünün əvvəlinə artırılması yolu ilə düzəldiyini söyləmişdir (6, II j.,381).

Zeynalov- Əlizadə nəşrində isə «arqırı» kimi oxunan həmin söz (11, 43) belə əsaslandırılmışdır: «Bizjə, D-də sözün yazılışı «arqırı» kimi oxuna bilər ki, bu da mətnin məzmununa uyğundur. «Arqırı

söyləmək» - haçalı, ikibaşlı danışmaq deməkdir. Müqayisə et: arğu – iki dağ arası,uçurum (M.Kaşğari) - 11, 232) .

Həqiqəti üzə çıxarmaq yolunda axtarış variantlarından biri kimi dəyərləndirdiyimiz bu oxunuş və yozum, əfsuslar olsun ki, mətləbdən çox uzaqdır.

Qojaman qorqudşünas Ş.Jəmşidov isə bir çox məqamlarda olduğu kimi xalq danışıq dilinə istinadən onu «ala-qara» variantında oxumuş (3, 299) və mövqeyini belə əsaslandırmışdır: «Azərbayjan xalq danışığında «ala-qara it kimi» şəklində indi də çox danışan adamların barəsində deyilir» (3, 136). Həmin arxaiz-min bu variantda da oxunuşu həm yazılış, həm də mənalandırma baxımından yanlışdır. Əvvəla, müəllifin özünün də göstərdiyi kimi, həmin söz heç də «a» səsini ifadə edən hərflə deyil, «yey» hərfi ilə bitir. Digər baxımdan, bu söz heç də «it» isminə deyil, «söylə» felinə tabedir, yəni hərəkəti izah etməyə xidmət edir.

Bəs həmin məjhul sözün «alaqırı» şəklində oxunmasını hansı arqumentlərlə əsaslandırmaq olar? Birinjisi, verilən variant əski ərəb əlifbası ilə yazılışa daha uyğundur. İkinjisi, tutarlı linqvistik materiallara istinad edilir.

Araşdırma göstərir ki, «alaqırı» söz forması «alaqır» (maq) arxaik felinin -ı şəkilçisi qəbul etmiş feli bağlama formasıdır. Abidənin dilində bu arxaik feli bağlama şəkilçili daha bir neçə söz işlənmişdir: Məsələn:

Qazan köpəgi qovlayı Qaraja çobanın üzərinə gəldi(11, 45).

Qazan aydır: - Mərə çoban! Qarnın ajıqmamışkən, gözün qararmamışkən bu ağajı qopayı gör! (11, 46)

Tar ətünə, gen qoltuğına sığınu gəlmişəm! (11, 87).

Odur ki, bu təsadüfi hadisə sayıla bilməz. «Alaqır»(maq) feli isə nadir işlənən sözlərdəndir. Müasir türk dilləri üçün də tamamilə arxaikləşən bu felə «Qədim türk sözlüyü»ndə «çığır- alaqır» qoşa fel formasının tərkibində rast gəlinir (4, 445). Hazırkı dilimizdə «çığır-

bağır salmaq» felində olduğu kimi, görünür, «çığır-alaqır» fel forması da yaxın mənalı sözlərin qovuşması yolu ilə düzəlmişdir. Deməli, «alaqır»(maq) – *çığır(maq), bağır(maq)* anlamındadır. Həmin sözün etimoloci təhlili də bunu söyləməyə imkan yaradır.

Məlumdur ki, -qır morfemi müstəqilliyini itirmiş arxaik şəkilçilərdəndir. O, müxtəlif səslərin ifadəsi ilə bağlı nitq felləri düzəldir. Məsələn, çığır (çı-ğır), çağır (ça-ğır), bağır (ba-ğır), qış-qır (qış-qır), asqır (as-qır) və s. fellər məhz bu sözdüzəldiji şəkil-çinin iştirakı ilə əmələ gəlmişdir. «Kitab»ın dilində rast gəlinən *qağır(maq)* (Aruz aydır: «Bilürmisən, səni niyə qağırdıq?» Beyrək aydır: «Niyə qağırdınız?»- 11, 124), *hayqır(maq)* (Aslan hayqırdı, meydanda nə qədər at varsa, qan qaşındı -11, 88) felləri də məhz bu arxaik şəkilçinin «qa», «hay» çağırış nidalarına (və ya səs təqlidi sözlərə) artırılması yolu ilə düzəlmişdir. Bizjə, «alaqır» feli də həmin üsulla - «ala» səs təqlidi kökünə -qır şəkilçisinin əlavəsi ilə formalaşmışdır. Digər baxımdan, «ala» kökünün abidənin dilində ayrılıqda «uja, yüksək» mənalarını bildirən müstəqil söz kimi də çıxış etdiyini nəzərə alsaq, onun *çağırmaq, bağırmaq* sözləri kimi «ujadan, bərkdən səslənmək» anlamını ifadə etdiyini təsdiq etmək olar. Arxaizmin işlənmə məqamı bir daha bu açıma haqq qazandırır.

Qazan xanın evini talan edib ailəsini əsir götürən Şöklü Məlik Dərbənddəki on min qoyunu ələ keçirmək üçün Qaraja çobanın üzərinə altı yüz kafir döyüşçüsü yola salır. Sürünü döyüşsüz aparmaq məqsədi ilə Qaraja çobana ox, yaxud sapan atımı məsafəsində yaxınlaşan kafir al dilini işə salaraq, uja səslə onun könüllü təslim olmasını və əvəzində bəylik rütbəsi ala biləjəyini təklif edir. Təbii ki, kafirin gur- gur gurlayan qalibanə danışığı qeyrətli çobana xoş gəlmir və o ajıqlanaraq: «Alaqırı söyləmə, mərə itüm kafir!» jümləsi ilə başlayan məşhur soylamasını deyir. «Alaqırı söyləmə» - «bağıraraq söyləmə» deməkdir. İndi də bir adam yüksək danışanda «nə bağırırsan?», «bağıra-bağıra danışma» deyilir. Bu

məna həm də katiblərin əvəz kimi seçdikləri «hərzə-mərzə söyləmə» birləşməsinin mənasına yaxındır.

Bu məqamda bir məsələyə də toxunmaq istərdik. Həmin soylamanın sonunju «Yigitlərin zərbini görgil, ondan ötgil» (11, 43) misrasında işlənmiş «öt(mək) feli də (-gil əmr şəklinin arxaik II şəxs təkinin sonluğudur) qorqudşünaslıqda düzgün açıqlanma-mışdır. H.Araslı onu «geri dön», Zeynalov-Əlizadə isə «get» anlamında (11, 142) müasirləşdirmişlər ki, bu da sözün işlənmə konteksti ilə uyğun gəlmir. «Öt(mək)» feli «keçmək» mənası ilə yanaşı, həm də «oxumaq», «çox danışmaq» mənalarında işlənmiş və indi işlənən qədim sözlərimizdəndir. Həmin felə daha geniş yayılmış birinji mənası ilə yanaşı, «oxumaq» mənasında «Bamsı Beyrək boyu»nda rast gəlinir:

İləyündə dügün var,

Dügünə varub ötgil» (11, 62)

Deməli, həmin anlam abidə üçün yad deyil və göstərilən jümlədə onu «dil-dil ötmək», «çox danışmaq» mənasında daha dəqiq açıqlamaq imkanı mövjuddur. Soylamanın «alaqırmaq» feli ilə başlayıb «ötmək» feli ilə bitməsi heç də təsadüfi olmayıb, hadisələrin məntiqi inkişafına söykənir. Qaraja çoban yüksək səslə mənasız danışan düşmənə əvvəljə əsl igidin zərbini- güjünü görüb, sonra gurlamasını – (dil-dil) ötməsini məsləhət bilir.

Prinsip etibarilə birinji və ikinji arxaikləşmə mərhələlərini bir bölgüdə birləşdirib vermək də olardı. Lakin faktlar göstərir ki, daha qədim dövrü əhatə edən birinji arxaikləşmə mərhələsi mütləq fərqləndirilməlildir. Ona görə ki, əgər ikinji mərhələdə arxaikləşən sözlərin böyük əksəriyyəti katiblər tərəfindən əvəzlənməyə məruz qalmışdırsa, birinji mərhələdə, yəni abidənin «Kitab» formasına salındığı dövrdən az sonra arxaikləşən sözlər nəinki katiblər, heç müasir qorqudşünaslar tərəfindən doğru- düzgün açıqlanmamışdır. Bu ilk növbədə həmin arxaizmlərin tarixi inkişaf prosesində digər

oxşar səs tərkibli sözlərlə uyğunluq təşkil etməsindən irəli gəlir. Elə buna görə də katib qələmindən sovuşan həmin arxaizmlər öz ilkin semantikasını abidənin mətnində tamamilə qoruyaraq günümüzə qədər gəlib çıxmışdır. Sual olunur: bəs bu sözlərin məhz XI-XII əsrlərdə arxaikləşdiyini nejə sübuta yetirmək olar? İki mühüm dəlilə istinad edirik: birinjisi, həmin arxaizmlərə, demək olar ki, klassik ədəbiyyatımızın dilində bir dəfə də olsun rast gəlinmir, yaxud da nadir hallarda rast gəlinir. İkinjisi, ulu dilçi M.Kaşğari lüğətində bu sözlərin artıq arxaikləşdiyi ehtimal olunur. Nümunələrə keçək:

Qara dərə ağzında qadır verən, qara buğa dərisindən beşiginin yapuğı olan... (D – 149, 12-13)

Qazan xanın qardaşı Qaragünəyə aid edilən bədii təyinlər sırasında getmiş bu birləşmələrdə iki sözün - «qadır» və «beşik» sözlərinin açıqlanması ilə bağlı fikir ayrılığı hələ də çözülməmişdir. Bizim «qadır» kimi transkripsiya etdiyimiz ilkin söz ərəb əlifbası ilə yazılışına uyğun olaraq əksər naşirlər tərəfindən «qadir» şəklində oxunmuşdur. Tanrıya məxsus əlaməti ifadə edən ərəb mənşəli «qadir» sözü prof. S.Əlizadənin qeyd etdiyi kimi təkjə Drezden nüsxəsində 32 dəfə işlənmişdir (8, 22).Məs:

Qadir tanrı verməyinjə ər bayımaz.

Qadir tanrı səni namərdə möhtaj etməsün. (11, 50)

Kərəmi çoq qadir tənri. (11, 83)

Qadir allah yüzün ağ etsün, Basat! (11, 103) və s.

Bu söz həm ayrılıqda, həm də «verən» sözü ilə birlikdə həmin mənanı ifadə etdiyi şübhəsizdir. Məs.,

Qadir səni namərdə möhtaj etməsün (11, 122).

Qadir verən tatlu janın uyxu almış (11, 114) və s.

Lakin yuxarıdakı məqamda sözün yazılışı onun ərəb mənşəli «qadir» kimi oxunmasına imkan versə də, bu olduqja şübhəli görünür. Bəlkə də elə buna görə nüsxə katibi abidənin dilində qəliblənmiş ifadə şəklində təkrarlanan «Qaradərə ağzında qadır

verən» feli sifət tərkibində arxaik «qadır» sözünün ona tanış olmadığını, «qadir» ərəb sözünün isə həmin məqamda yerinə düşmədiyini görüb, «qadır verən» birləşməsini buraxmalı olmuşdur (11, 49) .

Ş.Jəmşidov isə hadisələrin məntiqinə uyğun olaraq «qaraul duran» (3, 301) şəklində oxumağı irəli sürmüşdür. Lakin prof. S.Əlizadənin də etiraz etdiyi (8, 122) bu oxunuş variantı qəbul edilməzdir. Çünki nə yazılış, nə də Qaragünənin vəzifəsi buna imkan verir. Anjaq sözün «qadır» variantında oxunması bu ziddiyyəti aradan qaldıra bilər. Məlumdur ki, «Dədə Qorqud kitabı» ulu əjdadlarımızın – xalqımızın etnogenezisində duran tayfa birləşmələrindən biri olan oğuzların şərəfinə düzülüb-qoşulmuş söz sənəti abidəsidir. Onun formalaşma tarixi I minilliyin ortalarına qədər kök atır. Belə olduğu halda, əski türk yazılı abidələrinin dilində işlənmiş və sonradan arxaikləşmiş bəzi sözlərin də «Kitab»ın dilində işlənməsi qanunauyğun hadisə sayılmalıdır.

Təhlil güstərir ki, Yenisey abidələrinin mətnində «güjlü, müdhiş, qorxunj» mənalı «kadır» sözünə iki dəfə rast gəlinir (14, 248, 264,366). «Divani-lüğət-it türk»də isə «kadır» sözü ilə bağlı belə bir şərh verilmişdir: «Xaqanların sərt və çətin olanına deyilir. Bundan başqa, xaqanlu ulusunun xanlarına (...) «kadır xan» derlər. Bu kəlmə ərəbjəyə uyğun düşmüşdür, sərt olmaq, güjdən, qüdrətdən irəli gəlir, sərt olan kişi istədiyini yapa biləjək qüdrətdədir» (9, I j., 364).

Göründüyü kimi, ulu dilçi M.Kaşğari türk mənşəli «kadır» sözü ilə ərəb mənşəli «qadir» sözünün yazılışja uyğun olduğunu sezmiş və fərqləndirməyi lazım bilmişdir. Qaragünə də, «Kitab»da dəfələrlə qeyd edildyi kimi, Qazanın qardaşı olmaqdan əlavə, 24 sanjaq bəyindən biridir. O, Qaradərə mahalına bəylik edib, onun sərhədlərini qoruyur. «Bəkil oğlu Əmran boyu»ndan göründüyü kimi, oğuz eli sərhədlərinin qorunmasına xüsusi diqqət yetirir. Bu sahədə fərqlənən igidlərə xanlar xanı Bayandır xan tərəfindən

bəxşiş ayrılır. Qaragünə də Qaradərə ağzında-sərhədində zor duran, sərt duran ərənlərdəndir. «Qadır verən» «düşmənə qorxu verən» anlamını ifadə edən qədim frazeoloci birləşmədir. «Qadır» arxaizmi bu qədim mənanı XI-XII əsrdən sonra itirdiyi üçün həm katibə, həm də naşirlərə aydın olmamışdır.

Doğrusu, əgər bu yeganə dil faktı olsa idi, onu irəli sürməyə jəsarət etməzdik. Anjaq belə arxaizmlərin, o jümlədən «qadır» sözü ilə eyni jümlədə işlənmiş «beşik» sözünün də daha qədim tarixi mərhələ ilə bağlılığı seçdiyimiz yolun düzgün olduğuna əminlik yaradır. «Beşik» sözü də mübahisəli açıma malik sözlərdəndir. Ş.Jəmşidovu çıxmaq şərtilə, əksər qorqudşünaslar onu müasir anlamda şərh etmişlər. Anjaq nəhəng bir igidə «qara buğa dərisindən beşiginin yapığı olan» bir deyimin yapışdırılması yersiz görünür. Ş.Jəmşidov bu uyğunsuzluğu duysa da, daha yanlış yol seçərək, «beşik» sözünü fars mənşəli «püsək» kimi oxumuşdur (3, 309, 352). S.Əlizadə bu varianta qarşı haqlı çıxaraq yazır: «Bizə aydın deyil ki, bu söz «püşək» şəklində nejə və niyə oxunmalıdır? Əvvəla, «püsək» yox, «puşak» (farsja «puşidən» felindən) sözü mütləq «vav» hərfilə yazılır (örtük mənsasındadır). İkinjisi, mətndəki «yapıq» sözü də sadəjə «örtük» mənasındadır: (bu söz tarixən anjaq yeniçərilərdə geyilən üst geyimi adı (yapınjı) mənasında işlənmişdir). Beləliklə, həmin jümlədə «beşik» sözünü «puşak» kimi qəbul etməli olsaq, «beşiyin örtüyü» əvəzinə «örtüyün örtüyü» kimi məntiqsiz, mənasız birləşmə alınar. Nəhayət, «beşik» sözü dastanlarda qəhrəmanların təyin –vəzifələrinin bədii məntiqinə uyğundur, çünki bütün təsvirlərdə oğuz qəhrəmanlarının keçmiş həyatına işarələr vardır» (8, 22). Görkəmli tədqiqatçının tutarlı javabına söz yoxdur, lakin «beşik» sözünün Qaragünənin körpəlik dövrünə işarə kimi açıqlanması da təəjjüb doğurur və bunun nə üçün edildiyi qaranlıq olaraq qalır. Odur ki, faktlara başqa gözlə baxaq.

Abidədə haqqında danışılan oğuzlar maldarlıqla məşğuldurlar. Bu həyat tərzi onların dünyagörüşünə, adət-ənənələinə dərindən sirayət edib. Onların geyimi də bu həyat tərzinə uyğun olaraq məhz müxtəlif heyvanların – qoyun, keçi, quzu, samur, maral və s. dərisindən hazırlanır. Qazan bəyin dayısı Aruz qoja «Altmış ərkəj dərisindən kürk etsə, topuqların örtməyən, altı ökəj dərisindən külah etsə, qulaqların örtməyən» ərən kimi təsvir olunur. Hətta Beyrək də çulu (bütöv soyulmuş dəri) geyib toya gəldikdə eyib sayılmır. Yuxarıdakı deyimdə də Qaragünə həm də qara buğa dərisindən «beşiginin yapığı (geyimi) olan» bir igid kimi təqdim olunur. Diqqət edilərsə, «qara» sözü həm Qaragünənin, yəni atanın, həm də oğulun - Qarabudağın adında işlənir. Qaragünə adında bu söz daşlaşmış şəkildə özünü göstərirsə, Qarabudaq adında o buraxıla da bilir . Məs:

Jılasun yigitlərlə Qaragünə oğlu Dəli Budaq soldan dəpdi (11, 50).

Sol tərəfdə Buğajıq Məlikə Qaragünə oğlu Dəli Budaq qarşu gəldi (11, 50).

Qaragünə oğlı Budaq, Qazan bəg oğlı Uruz, Bəglər başı Yegnək, Qəflət qoja oğlı Şir Şəmsəddin, qızın qardaşı Dəli Qarjar bilə ox atarlardı (11, 63).

Günlərə bir gün Yegnək oturub bəglər ilə söhbət edərkən Qaragünə oğlı Budağ ilə uz düşmədi (11, 94).

Budaq aydır... (11, 94).

Deməli, «qara» sifəti Budaq adına elə-belə yox, nəsildən keçən bir əlamət kimi də artırıla bilər. «Beşik» sözü bu məsələyə bir işıq saçır. Orxon yazılarından «Gül tiqin» və «Bilgə kağan» abidələrində təkrarlanaraq işlənən aşağıdakı jümlənin tərkibində «nəsil», «qohum», «əqraba» mənalı arxaik «bişük» sözü işlədilmişdir:

Bir kişi yanğılsar oğuşu budunı bişükinge tegi kedmaz ermiş (5, 4, 56).

Bu arxaik sözün «bisük» şəklində transkripsiya variantına üstünlük verilməsinə baxmayaraq (14, 71; 16, 218), əski türk əlifbasında s ~ ş səslərinin bəzən eyni hərflə verilmə faktı, eləcə də türk dillərində kifayət dərəcədə geniş yayılmış s ~ ş əvəzlənməsi «beşük» variantında oxunma imkanını məqbul sayır. Bundan əlavə, bəzi mənbələrdə «beşik» sözünün (e ~ i səs əvəzlənməsi də məqbul fonetik hadisədir) məhz «nəsil» mənasında işlənməsi də (15, 123) yuxarıdakı deyimdə həmin mənanın yaşadığını sübut edir.

Deməli, Qaragünə həm də üst geyimi (yapığı, yapınjısı) qara buğa dərisindən olan bir nəsil başçısıdır. Həmin deyimdə buğanın məhz qara rəngdə verilməsi bu məqsədə xidmət edir. Bizjə, etimoloci baxımdan «beşik» və ya «bisük» variantları «nəsil» anlamını verə bilir. Çünki *bes/bis/ biş* kökləri fel-ad sinkretizminə uyğun olaraq tarixən həm «tərbiyə», həm də «tərbiyə olunmaq», «yetişmək» mənalarını daşımışdır (15, 121, 162; 7, 25). «Bisük/be-şik» sözü *tərbiyə edilən, yetişdirilən* anlamındadır (-ük/-ik ad düzəldən şəkilçidir).

Tərkibində ilkin arxaizmlərin yaşadığı ifadələrdən biri də «koşun ala qatını, qumaşın arısını» birləşməsidir. Oğuzlarda belə bir qayda hökm sürməkdədir ki, onlar haradan qənimət gətirirlərsə, beşdə birini xanlar xanı Bayandır xana ayırırlar. Bamsı Beyrək və Yegnəklə bağlı boylarda bu xüsusilə aydın əks olunmuşdur. Lakin «koş» arxaizminin mənaja qorqudşünaslara qaranlıq qalması onu müxtəlif variantlarda oxumağa və şərh etməyə istiqamətləndirmişdir. Zeynalov- Əlizadə nəşrində həmin birləşmə aşağıdakı şəkildə verilmişdir: «Quşun ala qatını, qumaşın arusini, qızın gögçəyini, toquzlama çırğab çuxa xanlar xanı Bayandıra pənjyek çıkardılar» (11, 67, 97).

Göründüyü kimi, əski əlifba ilə yazılışa uyğun olaraq ilk söz «quş» şəklində transkripsiya edilmişdir və elə buna görə də müasir dilə çevriləndə birləşmə «ov ovlayan quşların ən yaxşısı, qumaşın

gözəli» kimi getmişdir (11, 164, 195). Lakin məlumdur ki, quş qatla ölçülməz. Görünür, elə buna görə də M.Ergin və O.Şaiq «qat» sözünü «qan» sözü ilə əvəz etməli olmuşlar ki, bu da ifadəni «quşun, şahinin xanını» anlamında qavranıldığını ortaya qoyur. Tanınmış qorqudşünas Bartold isə P.M.Melioranskinin təklif etdiyi variantda oxuyaraq özü üçün də sual doğuran «iz pestrıx rədov stana (?)» (12, 48) variantında təjrübə etmişdir. Qorqudşünas alim Ş.Jəmşidovun münasibəti isə tamamilə fərqlidir. Müəllifə görə: «birləşmədəki ilk söz «qoşun», ikinji birləşmədəki isə «qaşın» sözünün təhrifidir. Yəni «qoşunun ala qatı» dedikdə yüksək rütbəli əsirlər (bunlar qulağı altun küpəli deyə qəhrəmanlar içərisində özlərinə məxsus yer tuturlar), ikinjisi «qaşın irisi» ifadəsi daş-qaşların bölüşdürülməsi kimi ən qiymətli qəniməti ifadə edir» (3, 219). Hər deyimdə təhrif axtarmaq problemin həlledilmə yolu deyil. Faktlar tarixi dil materitalları ilə müqayisə edilməli və yalnız bir nətijə alınmadıqda yazılış xətasına istinad edilməlidir. Abidənin mətnində «qaf» hərfinin həm dilarxası «q», həm də onun kar qarşılığı «k» (ka) səsini ifadə etdiyi sirr deyil. Anjaq çox təəssüf ki, xüsusən Azərbayjan naşirləri bunu dərindən duysalar da, müasir oxujuya aydın olsun deyə fərqləndirməyi lüzüm bilməmişlər. Məsələn, «jehiz, başlıq» mənasında bütün türk dillərində «kalım» və ya «kalın» kimi işlənən söz «qalınlıq» sözünün tərkibində «q» ilə verilmişdir. Bu baxımdan «quş» oxunan sözü «koş» kimi də oxumaq mümkündür.

Bu variant bizə nə verir? İrəlidə söylədik ki, oğuzların məişətində heyvan dərisinin xüsusi yeri var. Düşməndən əldə edilən qənimətlər arasında qumaş parça ilə yanaşı, dəri geyimlərə də xüsusi diqqət yetirilir. İlkin arxaizmlər sırasına daxil etdiyimiz «koş» sözü məhz dəri mənasındadır. Yəni «koşun ala qatı» deyildikdə «dərinin böyük qatı, hissəsi» nəzərdə tutulur. Məhz dəri qatla ölçülə bilir. Məntiqi baxımdan bu doğrudur.

Dil faktlarına gəlinjə, burada da tutarlı dəlillərə söykənmək mümkündür. M.Kaşğari lüğətində «aşılanmış dəri» mənasında «koğuş» sözünə bir neçə dəfə rast gəlinir (9, I j., 369; II j., 205, 210; III j., 140, 308,319). Ulu dilçi qeyd edir ki, dəri aşılan-mamışdan əvvəl «gön», aşılandıqdan sonra isə «koğuş» sözü işlədilir (9, III j.,140). Tarixi inkişaf prosesində *o, u* dodaqlanan saitlərinin ortasında «*ğ*» samitinin düşümü və ilkin uzanma hesabına «koğuş» sözü «kouş», «ko:ş» fonetik şəklini almışdır. «Kitab»ın janlı danışıq dilində yazılması buna imkan yaradır. Digər tərəfdən, XIX əsr dilzisi L.Budaqov «koş» sözünün məhz «kouş» şəklində yazılışını daha düzgün saymışdır (2, 82-83). Başqırd dilində «çadır», «alaçıq» mənası ifadə edən «koş» sözü, fikrimizjə, «aşılanmış dəri» mənası əsasında formalaşmışdır. «Koş» sözünün semantikasında baş vermiş bu dəyişiklik dil üçün xarakterik hadisədir. Məlumdur ki, türklər alaçığı dəri ilə örtürlər. Odur ki, «koş» sözünün əvvəljə dəri, sonra isə onun örtdüyü alaçığı adlandırması qanunauyğundur. Buradan belə bir nətijə çıxır ki, «koşun ala qatı» ifadəsi həm oxunuş, həm də yozum baxımından daha optimal variant hesab edilməlidir. Bu variant digər bir ifadənin də düzgün açımına işıq saçır. Oğuz igidləri ilk hünərlərini göstərəndə onlara verilən qiymətli hədiyyələr içərisində geyim əşyaları unudulmur. Birinji boyda Dədə Qorqudun Dirsə xandan oğlu Buğaj üçün istədiyi hədiyyələr içərisində «çigin koşlu jübbə ton» da sadalanır. Zeynalov-Əlizadə nəşrində həmin ifadənin «çiyni quşlu jübbə don», yəni «çiynində quş şəkli olan paltar» kimi (11, 134) çevrilməsi reallığı əks etdirmir. Bartold «çigin» sözünü «ipək» kimi (12, 16) düzgün qavrasa da, «koş» sözünü, ümumiyyətlə, buraxmalı olmuşdur. M.Kaşğari lüğətində «çigin» ipək və ya qızıl naxışla bəzədilmiş, tikilmiş paltarı adlandırır (9, I j., 414). Əbu Həyyan lüğətində isə «çiyin» fonetik variantda verilmiş həmin söz «ipəklə işlənən naxış» adlandırılır (7, 32). Deməli, «çigin koşlu jübbə ton» dedikdə ipək naxışlı, aşılanmış

dərili geyim növləri nəzərdə tutulur. Oğuz igidlərinin ən hünərlisinə verilən bu qiymətli hədiyyələr, görünür, həm də düşməndən əldə edilən qənimətlər sırasında Bayındır xana da göndərilirmiş. «Koşun ala qatı» «aşılanmış dərinin böyük hissəsi» deməkdirsə, «qumaşın arısı» «ipəyin ən təmizi» ifadəsini verir. Mənanın düzgün açımı katibi günahlandırmağa yer qoymur.

Lakin bu da həqiqətdir ki, ilkin arxaizmlərin bəzən katibə tam aydın olmaması onları oxşar yazılışa malik sözlərlə əvəz etməyə istiqamətləndirmişdir. Müasir naşirlərin də eyni səhvlərə yol verməsi bir daha onu təsdiq edir ki, «Kitab»ın arxaik leksikasının sistemli şəkildə dərindən araşdırılması qorqudşunaslığın ən önəmli problemlərindən biridir və bu yöndə aparılajaq tədqiqatlara ehtiyaj duyulur.

3. “Dədə Qorqud kitabı” nda işlənmiş bəzi atalar sözləri haqqında

Öz epoxasını şərəflə başa vurmuş bir nəslin (geniş mənada etnosun) sonrakı nəslə vəsiyyəti kimi düzülüb-qoşulmuş «Dədə Qorqud kitabı» minilliklərin həyat təjrübəsini ümumiləşdirən qüdrətli söz sənəti nümunələrindəndir. Ulu babalardan miras qalmış yaşam tərzini, əxlaqi dəyərləri müqəddəs nemət kimi qoru-yub saxlamağı, milli fajiələrlə nətijələnə biləjək bağışlanılmaz səhvləri təkrar etməməyi əsas qayə kimi işıqlandıran bu möhtə-şəm qəhrəmanlıq abidəsi əsrlərin sınağından çıxmış hikmətli deyimlərlə zəngindir. Həmin deyimlər «Kitab»ın müqəddiməsin-də oğuz elinin böyük bilijisi Dədə Qorquda məxsus söyləmlər və bütün boylar üzrə səpələnərək müəyyən bir fikri güjləndirmək, hadisələrə məntiqi çalar vermək məqsədilə işlədilmiş atalar sözü və məsəllər şəklində əks olunmuşdur. Bunlardan bir qismi öz işləkliliyini itirməyərək eynilə günümüzə qədər yaşamaqdadırsa, bir qismi leksik tərkib baxımından müəyyən dəyişikliyə məruz qalmış, bir qismi isə tamamilə arxaikləşərək dildən çıxmışdır. Tərkibində arxaik sözlər işlənməsinə baxmayaraq, aydın və anlaşıqlı mənaya malik «At ayağı külük, ozan dili çevik olur», «At qulağı saq olur», «Dərin olsa baturdur, qalabalıq qorxudır», «At işlər, ər ögünər», «Yayan ərin umurı olmaz», «Bu dünyanı ərənlər əqllə bulmuşlardır», «Ögünməklə övrət ər olmaz», «Padşa-hına ası olanın işi rast gəlməz», «Arı könüldə pas olsa, şərab açar», «Aslan ənigi yenə aslandır» və s. tipli atalar sözləri ilə müqayisədə elə deyimlərə də rast gəlmək olur ki, onların oxunuşu və açımı həmişə mübahisə obyektinə çevrilmiş və qorqudşünaslıqda ortaq qaneediji fikrə gəlinməmişdir. Haqqında danışdığımız deyimlər məhz bu qrupun səjiyyəvi xüsusiyyətlərini özündə daşıyır.

1.Əyəgülü ulalır, qabırğalı böyür (D, 15-7, 256-5).

Azərbayjan qorqudşünaslarından akademik H.Araslı ilk sözü «iyəkülü» şəklində oxuyaraq atalar sözünün birinji kompo-nentini «ilk uşaq boy atır» kimi mənalandırmışdır (11, 21, 135). F.Zeynalov – S. Əlizadə nəşrində isə bu söz «iyəgülü» kimi oxunmuş və deyim «yiyəsi olan yekəlir, qabarğalı böyüyür» variantında açıqlanmışdır (12, 36, 110, 134, 229). Həmin oxunuş «Kitabi Dədə Qorqud Ensiklopediyası»nda da saxlanmışdır (13, 40, 99). Qədim oğuz məsəli kimi dəyərləndirilən bu aforistik ifadənin ikinji hissəsi janlı danışıq dilimizdə «arxalı (arxası, dayağı olan) böyüyər» mənasında indi də işlədilməkdədir. Tamamilə dildən çıxmış ilk komponentin məna açımı, görün-düyü kimi, fərqli variantlarda çözülmüşdür ki, bunlardan heç biri inandırıjı səslənmir.

«İyəgü» kimi oxunan sözün «yiyə» mənasında işlənməsi tarixi faktlarla təsdiq olunmur. Görünür, tanınmış alimlərimiz «iyə» sözü ilə «iyəgü» sözünü qarışdırmışlar.

Akademik V.V. Bartoldun tərjüməsindən («i koqo estğ rebra, tot podnimaetsə, u koqo estğ xrəhı, tot vırastaet», - 3, 17-18) belə çıxır ki, ilk söz düzgün oxunub mənalandırılmamışdır. Bunu həmin təjrüməyə şərh yazan H.Araslı, M.Təhmasib kimi müqtədir alimlərimiz xüsusi qeyd etmişlər: «Aydın deyil ki, «u koqo» və «xrəhi» sözləri haradan alınıb» (3, 166).

Abidənin yorulmaz tədqiqatçılarından sayılan M.Ergin ilk sözü «eyegülü» kimi oxumuş (6, 81, 226) və «qabırğa» mənasında şərh etmişdir (7, 108).

Mövjud oxunuş variantını tutuşdurub ayrıja şərh yazan Ş.Jəmşidov isə həmin deyimin ilk sözünü bir neçə variantda «əyəqülü» (1, 44), «eyəgulü» (1, 285), «əygülü» (1, 404) şəklində transkripsiya etmişdir.

Kitabın dilində jəmi 2 dəfə işlənən bu sözün müxtəlif variantlarda oxunması özü təəjjüb doğurur. Qojaman alim qədim lüğətlərə əsasən bu dəfə «eyekülü» kimi transkripsiya et-diyi

arxaizmin «böyür», «qabırğa», «ulalmaq» felinin isə «inkişaf etmək, böyümək» mənalarını daşıdığını göstərsə də, sonda belə bir nətijəyə gəlir: «Jümlə üzvlərinin daxili uzlaşma xüsusiyyəti və sözlərin hərfi sırasındakı müqayisə oxşarlığına görə həmin atalar misalını indiki ifadə ilə «peyvəndlər boy atır, qabırğalı böyüyür» şəklində anlamaq olar» (1, 112-113). «Peyvənd» mənasının bu ifadəyə nejə jalaq edilməsi özü bir müəmmadır.

Biz həmin sözü, nümunədən göründüyü kimi, Azərbayjan dilinin səs sisteminə uyğun olaraq «əyəgülü» şəklində oxumağa üstünlük verdik. Deyimin məntiqi axarına diqqət yetirdikdə onun qəribə bir konktruksiyada verildiyi üzə çıxır. M.Kaşğari, V.V.Bartold lüğətlərində «əyəgü» sözünün «qabırğa», «ulalur» sözünün isə «böyüyür» şəklində aydınlaşdırılması (10, 137; 14, 721) belə bir nətijəyə gəlməyə əsas verir ki, bu atalar sözünün ikinji hissəsi elə birinji hissənin açımıdır. Görünür, ilk variantda, yəni əsərin formalaşdığı və ilk dəfə yazıya alındığı oğuz türkjəsində «əyəgülü ulalır» şəklində qısa və yığjam variantda ifadə olunmuş deyim sonrakı, yəni əsərin üzü köçürüldüyü mərhələdə daha anlaşıqlı çağdaş variantın qarşılığı ilə birgə verilmişdir. «Kitab»ın dilində oğuz-qıpçaq dil qarşılığı kimi dəyərləndirilən bu tipli dil hadisələri yetərinjədir.

«Əyəgülü» arxaizminin etimoloci təhlili göstərir ki, bu söz boyların dilində rast gəlinən «buzağu» («Buğa-buğa!» dedikləri qara inək buzağısı degilmidir? (13, 82) və «buqağu» («Ağır buqağu topujağın dögər, degil! (13, 71), «Ağır buqağu topujaqın dögər, deyəyinmi? (13, 72) sözləri ilə eyni üsulla, yəni «əyin», «əyər» (yəhər), «əyri» sözlərinin mənşəyində duran «əy-» fel kökü ilə -əgü//-ağu arxaik şəkilçisinin birləşməsindən yaranmışdır. «Ulal»(maq) feli isə «ulu» sifətinə –al fel düzəldən şəkilçisinin artırılması ilə düzəlmişdir (müqayisə et: sarı-saral). Deməli, «əyə-

gülü ulalır, qabırğalı böyür» deyimi eyni fikrin oğuz və qıpçaq turkjəsində yanaşı işlənmə variantıdır.

2. Oğuzun arsızı türkmanın dəlüsinə bənzər (13, 97).

İlk baxışda olduqja aydın deyimdir. Görünür, elə buna görə də yalnız V.V.Bartodlun təjrüməsi haqlı olaraq etiraz doğurmuş-dur (3, 197). Deyimdə oğuzun arsızı, utanmazı turkmanın dəlisinə, yəni ağıldan kəminə bənzədilir. Bizjə, məsələyə məhz səthi yanaşıldığı üçün belə mənalandırıla bilər. Atalar sözünün mahiyyətinə vardıqda, nejə deyərlər, aysberqin görünməyən tərəfi üzə çıxır. Odur ki, onun deyilmə məqamını xatırlayaq. «Toquz tümən Gürjüstan ağzında» gözətçilik edən Bəkil ov zamanı ayağını sındırır və bu səbəbdən də divana çıxa bilmir. Xatınının boşboğazlığı ujundan el arasına yayılan bu xəbər düşmənə çatır və o, çoxsaylı ordu ilə hüjuma keçir. Əlajsız qalan Bəkil yeganə oğlu Əmranı yanına çağırıb vəziyyəti başa salır və onu bir müddət önjə injisə də, dar gündə dayağı bildiyi Qazan bəyin yanına kömək almağa göndərmək istəyir. On altı yaşına yenijə çatmış Əmran atasının bu fikrinə etiraz edərək düşmən qarşısına özünün çıxajağını bildirərək ondan izin istəyir. Bəkil qeyrətli oğlunu alqışlayır, öz hərb paltarını və atını ona verərək döyüşə yola salır. Düşmən əvvəljə Əmranı Bəkil bilib qaçmaq fikrinə düşür, amma «gözçü» diqqətlə baxdıqdan sonra atın və geyimin Bəkilə məxsus olduğunu, igidin isə Bəkil deyil, yeniyetmə bir oğlan olduğunu Təkürə xəbər verir. Təkür məsələni anlayıb deyir: «Yüz adam seçilin, taraqqa çatladın, oğlanı qorxudun, oğlan quş ürəkli olur, meydanı qoyub qaçar». Əmran-la üz-üzə gələn düşmən əvvəljə onu uşaq bilib sözlə qorxutmaq istəyir, lakin Əmrandan daha tutarlı, daha kəsərli javab eşidib heyrətə gəlir və yuxarıdakı deyimi işlədir. Bu variantda deyimin boydakı hadisələrin məntiqi ilə səsləşmədiyi duyulmaqdadır.

Əmranın mərdanə duruşu qarşısında «arsız» ifadəsi yersiz görü-nür. Məsələyə başqa yönümdən yanaşaq.

Deyimin tərkibindəki «dəli» sözü əslində «Kitab»ın dilində «igid», «alp», «bahadır» sözlərinin sinonimi kimi işlənmişdir:

Bahadır, dəlü, yaxşı yigid idi (13, 99).

Məgər xanım, Uşun Qojanın kiçik oğlı Səgrək eyü, bahadır, alp, dəlü yigit qopdı (13, 99).

Oğuzdan bir dəlü yigit gəldi (13, 101) və s.

Dondar, Qarjar, Domrul kimi oğuz igidlərinin adları qarşı-sında işlənməsi onu göstərir ki, «dəli» sözü məhz arxaik mənada açıqlanmalıdır. «Türkmanın dəlisi» deyildikdə heç də «ağıldan kəmi» deyil, «igidi» başa düşülməlidir. «İgid» sözünün antonimi isə «qorxaq» mənasına yaxın söz olmalıdır. Oğuz igidlərinin şərəfinə düzülüb-qoşulmuş bu abidədə onların turkman igidlərindən üstün tutulması təbii görünür. Bu məqamda «jiji-biji tğrkman qızı» ifadəsinin də eyni etnopsixoloci qaynaqdan bəhrə-ləndiyi yada salınmalıdır. Deməli, deyimin tərkibində «dəli» sözünün antonimi kimi getmiş «arsız» sifətinin işlənməsi özünü doğrultmur.

Bizjə, bu ziddiyyət ilkin arxaizmlərin oxunması zamanı «Kitab»ın üzünü köçürən katibin buraxdığı digər səhvlər kon-tekstində açıqlana bilər.

Üç mərhələyə ayırdığımız arxaikləşmə prosesinin ən qədim – ilkin mərhələsi XI əsri, yəni əsərin «Kitab» şəklinə salındığı dövrü əhatə edir. Elə buna görə də sonrakı əsrlərdə üzü köçürü-lən bu abidənin dilində ilkin arxaizmlərin ya çağdaş qarşılığı ilə, ya da yanlış olaraq oxşar formalı digər bir sözlə əvəzlənməsi hadisə-sinə mütəmadi rast gəlmək olur. «Arsız» sözünün məhz sonunju üsulla bu deyimin tərkibinə düşdüyü fikrindəyik.

M.Kaşğari lüğətində qədim oğuzlara məxsus «dəyərsiz şey» mənasında arxaik «arsu» sözü qeydə alınmışdır (10, I j, 127) . Sonrakı mərhələdə türk dillərinin, demək olar ki, heç bir yazılı

abidəsində rast gəlinməyən bu sözdən istifadə etməklə haqqında danışılan deyimin ilkin variantını bərpa etmək mümkündür: «Oğuzun arsusı türkmanın dəlisinə bənzər», yəni oğuzun dəyər-sizi (gərəksizi, vejsizi) türkmanın igidinə bənzər. Bu yozum boydakı hadisələrin gedişatına tam uyğun gəlir. Həqiqətən də, önjə uşaq hesab edilərək qiymətləndirilməyən Əmran sayja çoxluq təşkil edən təjrübəli düşmən qarşısında özünü bir ər, bir igid kimi aparır, ona gözlənilməyən zərbə vurub məğlub edir.

İlkin mənanı anlamayan katib «Oğuzun arsusı» birləşməsin-dəki sonunju sözü «arsızı» kimi oxumaqla bu qədim oğuz atalar sözünü köklü şəkildə təhrif etməli olmuşdur.

3. Dəbəgən köbini süsəgən yırtar (13, 101).

Maraqlı məzmuna malik bu deyimin qavranılmasında ikinji sözün oxunuşu və mənalandırılması xüsusi rol oynayır. M.Ergin həmin sözü «köpini» fonetik variantında oxuyaraq (6, 230) «şişkin, şışmə, şişkinlik» kimi izah etmişdir (7, 206). Alimin «dəpəgən» və «süsədən» sözlərinə verdiyi şərhdən (7, 82, 276) belə nətijə çıxarmaq olar ki, onun məzmunu «vurağan (və ya təpik atan) şişini buynuzlayan yırtar» kimi anlaşılmalıdır.

V.V.Bartold həmin deyimi «zadnöö çastğ ləqaöheqosə razorvet bodaöhiysə» kimi tərjümə etmiş və «pazı pazla çıxararlar» mənasında atla buğa arasında döyüşü ifadə etdiyini bildirmişdir (3, 135). İkinji sözün «zadnöö çastğ» şəklində təjrüməsindən belə məlum olur ki, görkəmli qorqudşünas onu H.Araslı kimi «təpəgən kötünü süsəgən yırtar» variantında (11, 139) oxumuşdur. F.Zeynalov – S.Əlizadə nəşrində isə bu deyim qədim oğuz məsəli kimi dəyərləndirilərək «təpəyənin köpünü süsəyən yatırar» mənasını ifadə etdiyi qənaətinə gəlinmiş və müasir ekvivalenti kimi «dinsizin öhdəsindən imansız gələr» deyimi göstərilmişdir. (12, 211). «Yırtar» felinin «yatırar» feli ilə açıqlanmasından aydın olur

ki, ikinji söz müasir dilimizdə «köp vermək» frazeminin tərkibində yaşayan söz kimi götürül-müşdür. Ş.Jəmşidov həmin sözü «köpünü» şəklində transkrip-siya etsə də, hansı mənada işlənməsini şərh etməmişdir (1, 239). Drezden əlyazma nüsxəsində «köbini» varianitında yazılmış bu söz (D, 265-8; 13, 356) abidənin dilində işlənmiş ilkin arxaizmlərdəndir. Maldarçılıqla məşğul olan türk xalqlarının deyimlərində at, buğa, öküz, dəvə və s. ilə bağlı külli miqdarda atalar sözü yer almışdır. Sözsüz, haqqında danışılan bu oğuz atalar sözü də təpik atan atla buynuzlaşan heyvanlar arasındakı münasibəti ümumiləşdirməyə xidmət edir. Bu mənada «köp// köb» arxaizmi atla bağlı olmalıdır. Araşdırmalar göstərdi ki, Kaşğari lüğətində kiçiltmə mənalı -jük şəkilçisi ilə birgə verilmiş «köp» sözü («köpjük») oğuzja yəhərin ön və arxa yastıqlarını adlandımaq üçün işlənmişdir (10, I j, 478). Bu məna isə deyimdəki məna ilə tam üst-üstə düşür. «P» səsinin indi də iki sait arasında «b» səsinə keçməsi hadisəsinə əsaslansaq, bu oxunuş variantını məqbul sayan alimlərə haqq qazandırmaq lazım gəlir. «Küb//köp» sözü həm də döyüş zamanı atların üstünə və qarınlarının altına doladılan zirehli örtükləri də adlandır-malıdır. Bir sıra türk dillərində «köp» sözünün «kep» fonetik variantında «geyim, kecim, paltar» (14, 1185), Əbu Həyyan lüğətində «qəlib» (forma) və «küpə» fonetik variantında «zirehli paltar» mənalarında (8, 47) işləndiyini nəzərə alsaq, həmin sözün göstərilən deyimdə «dəmir don», «zirehli» anlamını ifadə etdiyini söyləmək olar. «Kitab»ın dilində işlənmiş «yapınjı» mənalı «kəpənək» sözü də eyni söz kökündən rişət tapmış olmalıdır. Bəzi atalar sözü kimi bu deyim də həm həqiqi, həm də məjazi mənanı ifadə edir. Əgər «təpəgən» sözü qılınj, gürz, çomaq, balta kimi qədim silah növləri ilə vuruşan igidləri işarələyirsə, «süsəgən» sözü süngü, sür jida, köndər, nizə ilə silahlanmış igidləri ümumiləşdirir ki, döyüş zamanı qələbənin məhz sonunjulara nəsib olduğu bildirilir.

Fikrimizi sonunju boyda Qazanla Aruz arasındakı döyüş səhnəsi ilə açıqlayaq:

«Qazan qalqan yapındı, sügüsin əlinə aldı. Başı üzərinə çevirdi. Aydır: «Mərə qavat, muxannatlıq ilə ər öldürmək nejə olur, mən sana göstərəyim!» - dedi. Aruz Qazanın üzərinə at saldı. Qazanı qılıjladı, zərrə qədər kəsdirəmədi, ötə keçdi. Növbət Qazana dəgdi. Altmış tutam ala göndərin qoltuq qısdı, Aruza bir göndər urdı. Köksündən yalabdaq ötə keçdi. At üzərindən yerə saldı» (13, 111).

4. Əski tutun biti, öksüz oğlanın dili ajı olur (D, 256, 11-12; 13, 356).

«Kitab»ın «Uşun Qoja oğlı Səgrək boyu»nda getmiş bu qədim oğuz deyimi də maraqlı bir açıma malikdir. Araşdırmalar göstərir ki, bu deyimin açıqlanmasında başlıja çətinlik ikinji və üçünjü sözün nejə oxunması və hansı mənada şərh edilməsi ilə bağlıdır. Buna görə də qorqudşünaslıqda onun bir neçə variantlı şərhi mövjuddur. Qeyd olunan sözləri yazılışda buraxılan katib səhvinə əsaslanaraq «donun biti» şəklində oxuyan V.V. Bartold deyimi bütövlükdə «Vohğ staroqo platğə, əzık malğçika-sirotı qorğki» (3, 90) şəklində təjrümə etmişdir. Bu oxunuş variantı və məna yozumu akademik H.Araslıya daha inandırıjı görün-düyü üçün özünün hazırladığı nəşrlərdə «əski donun biti, öksüz oğlanın dili ajı olar» variantında oxumağa üstünlük vermişdir (11, 135).

Ş. Jəmşidov abidənin mətnşünaslıq məsələlərinə həsr etdiyi doktorluq dissertasiyasında mövjud deyimlə bağlı oxunuş variantlarını təhlilə jəlb edərək burada nüsxə səhvlərinin izlərini görməklə Bartold, Araslı variantı üzərində dayanmışdır (5, 24). Tədqiqatçı alim həmin məsələyə bir daha qayıdaraq onu «Drezden əlyazması katibinin yüzlərlə təhrifinin biri kimi» xarakterizə etmiş, «donun» sözünü bir nöqtə artığı ilə səhvən «tutun» şəklində yazılmasını «müdrik fikrin zəifləməsi» kimi qiymətləndirmişdir (2,

154). Bu oxunuş variantı həm F.Zeynalov - S.Əlizadə nəşrində (12, 111), həm də sonunju ensiklopedik nəşrdə (13, 99) saxlanılmışdır.

Beləliklə, əski ərəb əlifbasının mahiyyətindən irəli gələn yazılış xətasına istinad edilərək söylənilmiş birinji variant ulu babalarımızın qəribə bir məntiqə malik olduğunu üzə çıxarır. Demə, o zamanlar dil ajılığı bitlə müqayisə edilərmiş. Görünür, «bitli» babalarımız hətta o dərəjədə usta imişlər ki, köhnə paltar bitini təzə paltar bitindən fərqləndirməyi, onun daha ağrılı-ajılı olduğunu müəyyənləşdirəmyi bajarırlarmış. Yoxsa, belə bir «müdrik fikir» «Dədə Qorqud kitabı» kimi yüksək mənəvi dəyərləri özündə ümumiləşdirən bədii sənət numunəsinə təsadü-fən düşə bilməzdi. Göründüyü kimi, məsələyə belə formal yanaş-ma qədim oğuz təfəkkürünə, onun məntiqi düşünjə modelinə sığışmayan bir yozum meydana qoyur. Bu məqamda ilkin arxaizmlərin qavranılmasına münasibətdə qədim əlyazma katibi və müasir naşirlərin mövqe uyğunluğu tamamilə üst-üstə düşür.

İkinji variant böyük türk dilçisi M. Ergin tərəfindən irəli sürülmüşdür. Atalar sözünü Drezden nüsxəsindəki yazılışına uyğun olaraq «əski tutun biti, öksüz oğlanın dili ajı olar» şəklində (6, 226) oxuyan qorqudşünas, təəssüf ki, qeyd olunan sözləri tarixi leksikanın süzgəjindən keçirməyərək müasir anlam-da işləndiyi kimi şərh etmişdir (7, 54, 297).

O.Şaiq tərəfindən verilmiş üçünjü variantda isə birinji hissə «əski tutun buni» şəklində oxunmuşsa da, hətta müəllifin özü üçün sual doğuran mübahisəli «köhnə tutun barı» yozumu (3, 227) atalar sözünün dəqiq açımına işıq saçmır. Görünür, elə buna görə qorqudşünaslıqda mülahizə olaraq qalmaqdadır. Beləliklə, hər üç variantın müəyyən ziddiyyətli məqamı bu qədim atalar sözünün nəyə əsaslandığını üzə çıxarmaqda çətinlik yaradır. Deyimin məğzini anlamaq üçün onun işlənmə məqamını bir daha xatırlayaq. Boyun girişində nəql edilir ki, Uşun Qoja adlı bir

kişinin iki oğlu vardı. Böyük oğlunun adı Əgrək, kiçik oğlunun adı Səgrək idi. Qazan xanın divanında özünü sərbəst apardığı üçün Tərs Uzamış tərəfindən danlanır. Əgrək xandan «aqın diləyir», kafir elinə hüjuma keçir, döyuşlərin birində basıla-raq dustaq kimi Əlinjə qalasına salınır. Kiçik qardaş Səgrək böyüyüb boya-başa çatır. Bir gün yolu bir yığınjağa düşür. Möhkəm yeyib - içərək məst olur. Bayıra – ayaq yoluna çıxanda bir yetim oğlanın bir «qızan»la – bir dəli-dolu oğlan uşağı ilə çəkişdiyini görüb hərəsinə bir sillə vurur. Yetim oğlanın dili dinj durmur. Səgrəyi ajılamaq üçün indiyə qədər ondan gizli saxlanıl-mış dustaq qardaş sirrini açır. Qardaşının kim və harada olduğunu öyrənən Səgrək bu ajı xəbərdən sarsılaraq ağlayır. Bizjə, yetim oğlanın Səgrəyə verdiyi bəd xəbərin təsir güjünü artırmaq üçün işlədilmiş həmin atalar sözünü xalqımızın dilə, sözə, onun kəsər səviyyəsinə verdiyi qiymətlə müqayisədə dəyər-ləndirmək mümkündür. Janlı xalq dilində indi də öz işləkliyini saxlayan «qılınj yarası sağalar, söz yarası sağalmaz» atalar sözünün təhlili göstərir ki, o məhz Dədə Qorqud boyların-da təsvir olunan qılınj zamanında formalaşa bilərdi.

Tədqiqat göstərir ki, deyimin əslinə uyğun açıqlanmasında açar rolunu oynayan «tut» (-un yiyəlik hal şəkilçisidir) və «bit» (-i mənsubiyyət şəkilçisidir) sözləri ilkin arxaikləşməyə məruz qalmış lüğəvi vahidlərdəndir. Həmin arxaizmlərin məhz yığjam formalı, lakonik məzmunlu atalar sözünün tərkibində işlənməsi onların katib tərəfindən əvəzlənməsinə mane olmuşdur.

«Tut» arxaizmi Kaşğari lüğətində «qılınj və qılınj kimi şeylərin üzərinə çökən pas» mənasında qeydə alınmışdır (10, II j, 281). «Kılıj tatıksa, iş yunçar, er tatıksa, qanı tunjar» («qılınj paslanarsa, iş çətinləşər, adam tatlasarsa, qanı pozular» demək-dir) qədim türk məsəlində «tat» fonetik variantında yazıya alınmış bu arxaik sözə şərh yazan B. Atalay onun «tut» formasını daha düzgün hesab etmişdir (10, II j, 239). V.V. Radlov lüğətində «pas» mənalı «tot» və

o≈a səs əvəzlənməsi ilə «tat» variantında qeydə alınmış bu arxaizmin bir çox türk dillərində işləklikdən düşmədiyi nəzərə çarpır (14, 898, 1205). «Bit» sözü də ilkin arxaizmlərə aiddir. Məsələ burasındadır ki, qədim türk dillərində özünə möhkəm yer tutmuş fel-ad sinkretizmi hadisəsi (yəni eyni sözün həm prosesi – işi, halı, hərəkəti, həm də həmin prosesin nətijəsi kimi yaranan əşyanı adlandırması faktı) mövjud olmuş-dur. M.Kaşğari lüğətində «bit» variantında «yara qapamaq» mənasını ifadə edən bu arxaik sözün «bit (mək)» variantının əksər türk dillərində yara ilə bağlı «sağalmaq», «bitişmək» mənalarında işlənməsi də diqqəti jəlb edir (15, 154-155). Həmin qanunauyğun-luğa əsasən «bit» arxaizmini yalnız fel kökü kimi deyil, həm də yara sağalması anlamında isim kimi də qavramaq mümkündür. Bu isə imkan verir ki, həmin atalar sözü «köhnə qılınj pasının yara sağalması, yetim oğlanın dili ajı (ağrılı) olur» şəklində açıq-lansın. Bu gün də məişətimizdə paslı iti, kəsəyən alətlərin yarası qorxulu hesab olunur, qanı zəhərlədiyi üçün onların yarası gej sağalır. Bu mənada irəli sürdüyümüz yozumun daha məntiqi, xalqın həyat təjrübəsinə daha uyğun olduğu aydınlaşır. XII-XIII əsr türk ədəbiyatının qiymətli nümunələrindən sayılan, Ə.Yüqnəkinin «Atəbat əl-həqaiq» poemasında işlənmiş «til başaq tursa bütməz, bütər oq başı» («dil yarası sağalmaz, sağalar ox yarası», 4, 87) misrası və yuxarıda qeyd etdiyimiz müasir Azərbayjan atalar sözü eyni müşahidənin, eyni təfəkkürün nəti-jəsi kimi yaranmışdır ki, bu da irəli sürülən yozumun həqiqiliyinə zəmanət verir.

Bütün bu deyilənlər bir daha onu göstərir ki, «Dədə Qorqud kitabı» daha qədim oğuz təfəkkürünün məhsuludur.

4. Bir daha “marə//mərə” süzğ haqqında

Qorqudşünaslıqda geniş mübahisə obyektinə çevrilmiş sözlərdən biri də *marə//mərə* sözüdğr.

Ömrünün böyük bir hissəsini “Kitabın dilinin araşdırılmasına həsr etmiş görkəmli dilçi prof. Ə. Dəmirçizadə “marə//mərə sözünün mənşəyi ilə bağlı müxtəlif illərdə müxtəlif fikirlər söyləmişdir. Həmin sözün əvvəljə yunan dilindən alındığını, sonralar isə laz dilində “oğlan, “oğul, “uşaq, gürjü dilində “qoja, “kahin, “monax mənalarını ifadə edən “berə sözü ilə əlaqədar olduğunu irəli sürən alim axırda “bunların heç biri bu sözün mənsubiyyətini təyin və təsbit etmir (5, 147) deməklə ilkin mülahizələrindən əl çəkmişdir. Nətijədə həssas dilçi həmin sözün mənşəyini qədim dilimizlə bağlamağa çalışmış, ilkin konkret dil faktları olmadığı üçün mülahizələrini ehtimal şəklində qoymaq məjburiyyətində qalmışdır: “… adama belə gəlir ki, bu söz, bəlkə də, azərbayjanlıların qədim dilinə mənsub olmuş və qonşu tayfaların dilinə də keçmişdir (5, 147).

Abidənin elmi mətninin hazırlanmasında və dilinin tədqiqində böyük zəhmətləri olmuş tanınmış türk alimləri O.Ş. Gökyay (14, JJXXXV-JJXXXVI) və M. Ergin (13, IIj., 214-215) bu sözün mənşəyi ilə bağlı məlum fikirləri sadalamaqla kifayətlənərək problemi açıq saxlamışlar. Araşdırmalar göstərir ki, sonrakı illərdə *marə//mərə* sözünün mənşəyi ilə əlaqədar yalnız Azərbayjan alimləri tədqiqat aparmışlarsa da, dil tariximizin gözəl bilijisi Ə. Dəmirçizadənin yekun fikirləri bu işlərdə nəzərə alınmamışdır. Belə ki, həmin sözə ayrıja məqalə həsr edən A. Həsənov onun mənşəyini İran dillərində axtararaq “adam mənası ifadə edən “mərd sözünün mürajiət zamanı işlənən “mərda və ya “marda şəklindən törəndiyini irəli sürmüşdür (bax: 6). Onun fikrinjə: “ ola bilsin ki, bu söz oğuz türklərinin dilinə hələ oğuzlar Türküstanda yaşayarkən: yəni müsəlman olmadıqları zaman müsəlman qonşularından (tajik və ya farslardan) keçmiş, ya da sonralar qərbə

doğru yürüşlər zamanı oğuzların dilinə qərblilərdən (kafirlərdən) və ya ermənilərdən keçmişdir. Onlar bu sözü eynimənalı türk mənşəli "ey kişi//ə kişi ifadələrinin əvəzində, xüsusən birinə, adətən, düşmənlərə ikrah və nifrət hissi ilə mürajiət etdikləri zaman işlətmişlər (6, 41).

Belə etimoloci açımla qəti razılaşmayan qorqudşünas alim Ş. Jəmşidov bu fikirləri: "birincisi, fars mənşəli "mərd sözünün ərəb qrammatikasının qaydalarına istinadən mürajiət şəklinə salınaraq ilkin mənbə kimi götürülməsi, ikincisi, ədəbi və xalq dilimizdə həmin sözün həm ayrılıqda, həm də "mərdanə, "mərdlik sözlərinin tərkibində yalnız müsbət mənada işlədilməsi baxımından təkzib edir (4, 73). Tədqiqatçıya görə, "oğlan demək olan "mərə sözü dilimizə qədim şumer-akkad dillərindən gəlmişdir. Bu sözün qədim Misir mənbələri və ərəb dili lüğətlərində, əsasən, aşağı təbəqələrə verilən addan keçdiyini irəli sürən alim zağdaş dilimizdə təhqiramiz mənada işlədilən "gədə, "ədə sözlərinin qarşılığı kimi dastanın mətninə düşdüyünü iddia edir.

Sözün mənşəyinə toxunmasa da, H. Araslı onun "ədə, ey oğlan mənasında işləndiyini daha əvvəllər qeyd etmişdi (8, 162). Lakin A. Həsənov göstərilən məqaləsində həmin sözün dar mənada təkjə kişilərə və oğlanlara deyil, həm də qadınlara, qızlara, hətta heyvanlara mürajiət olunaraq işlədilməsinə əsaslanmaqla görkəmli alimin bu fikrinə etiraz edir. Təkjə bu aspektdən yanaşdıqda Ş.Jəmşidovun da etimoloci araşdırması, yəni "marə//mərə sözünün mənşəyini "oğlan, yaxud "qul mənaları ilə bağlaması tənqidə dözmür.

Göründüyü kimi, istər A.Həsənov, istərsə də Ş.Jəmşidov sözün mənşəyini yad dillərdə aramışlar. Odur ki, prinsipjə onun "adam mənalı "mərd fars sözündən, yaxud "oğlan mənalı "mərə akkad –şumer sözündən törənməsi elə bir əhəmiyyət kəsb etmir. Bu mülahizələrin Ə.Dəmirçizadənin vaxtilə irəli sürdüyü, sonradan isə təkzib etdiyi fikirlərdən bir o qədər də fərqi yoxdur.

Bizjə, “marə//mərənin alınma söz kimi verilməsi, ilk növbədə, bununla bağlı idi ki, araşdırıjılar onun “oğlan, yaxud “adam mənası ifadə edən sözlə əlaqəli olduğunu ehtimal etmişlər. Həmin mənanı bildirən söz formasının türk dillərində olmaması isə tədqiqatçıları sözün mənşəyini yad dillərdə axtarmağa yönəltmişdir.

Son dövrlərdə V.Zahidoğlu bu mürajiət formasının semantik transformalaşma yolu ilə “bərə (“fağır) sözündən törəndiyini (12, 11) bir fikir olaraq söyləmişdir. “Fağır mənalı “bərə arxaizminin “*marə//mərə* mürajiət forması ilə neçə əlaqələndirildiyi, düzü, aydın olmursa da, onun mənşəyini türk dilləri ilə bağlanılmasını müsbət hadisə kimi dəyərləndiririk.

Abidənin dilində bir dəfə “bərə, əksərən isə “marə//mərə fonetik variantında işlənmiş bu arxaik sözün etimologiyası ilə bağlı mülahizələrimizi söyləməzdən qabaq, onun işlənmə məqamlarını bir neçə nümunə ilə nəzərdən keçirmək istərdik:

Başındağı tuğulğaňı nə ögərsən, mərə kafir,
Başımdağı börkümjə gəlməz maňa! (7, 47).

Qazan aydır: “ Mərə çoban, bu ağaj nə ağajdır (7, 49).

Aydır: “Mərə bəzirganlar, bu ayğırı və dəxi bu yayı və bu gürzi maňa veriň! –dedi (7, 54).

Banıçiçək otaqdan baqırdı: “Mərə dayələr, bu qavat oğlu qavat bizə ərlikmi göstərir?-dedi (7, 55).

Banıçiçək aydır: “Mərə qızlar, bu yigit nə yigitdir (7, 55).

Qız aydır: “Mərə yigit, mənim atumı kimsə keçdügi yoq (7, 56).

Beyrək Oğuza gəldi. Baqdı gördi bir ozan gedər, aydır: “Mərə ozan, nerəyə gedərsən? (7, 60).

Qısırja yengə derlər, bir xatun vardı, ana ayıtdılar: “Mərə Qısırja yengə, tur sən oyna, nə bilür dəli ozan,- dedilər (7, 63).

Dəli Domrul aydır: “Mərə qapuçular, qapunı qapaň! – dedi (7, 75).

Əgrək aydır: “Mərə Tərsuzamış, baş kəsib-qan tökmək hünərmidir? - dedi (7, 99).

Mərə ana, mən xan oğlı degilmişəm (7, 106).

Əsərdən götürülən bu və digər nümunələrdə danışanın tərəf müqabilinə: çobana, bəzirgana, qapıçılara, düşmənə, yengəyə, igidlərə, qızlara, anaya, hətta Tərsuzamışa, Qazana, Dəli Domrula, Təpəgözə, Şöklü Məliyə və başqalarına mürajiətində “marə//mərə sözündən xitabı qüvvətləndirmək məqsədilə istifadə olunmuşdur. Bəzən ayrılıqda xitab kimi işlənən bu sözün kimə aid olduğunu asanlıqla müəyyənləşdirmək, təsəvvür etmək mümkündür:

Kafir aydır: “Mərə, varıň Qazanıň oğlı Uruzı dartıň, çəggələ asüň (7, 49).

Oğlan aydır: “Mərə, bəgünüz oğlı kimdür? (7, 55).

Qazan aydır: “Mərə, qon-a qızlar yanına da varsun! - dedi (7, 63).

Aydır: Marə, alca qopuzum ələ aluň, məni ügüň! (7, 82).

Mərə, qolca qopuzum çaluň, ogüň məni! (7, 83) və s.

Gətirilən nümunələrdə Şöklü Məliyin döyüşçülərinə, Beyrəyin bəzirganlara, Qazanın bəylərə, Qanturalının isə yoldaşlarına – igidlərinə mürajiət etdiyi açıq-aydın görünür və istənilən vaxt xitab sözləri bərpa etmək olur. Beləliklə, işlənmə məqamından asılı olmayaraq, “marə//mərənin yalnız xitablara aid olduğu və bu zaman onları daha qabarıq nəzərə çarpdırmağa xidmət etdiyi aydınlaşır. Bu qrammatik xüsusiyyələrinə görə Nihal Atsız (14, JJXXXXV-JJXXXVI) və Ə. Şükürov (11, 52) ondan ədat kimi bəhs etmişlər. Bizə elə gəlir ki, “marə//mərə qüvvətləndirmə funksiyası daşısa da, o məhz çağırış nidasıdır və etimoloci baxımdan eyni formalı arxaik feldən yaranmışdır. Araşdırmalar göstərir ki, müasir türk dillərində “diqqətlə baxmaq, “müşahidə etmək mənalı “mara(maq) felinə və bu kök

əsasında yaranmış fel-ad korrelyativ sözlərinə, az da olsa, rast gəlmək mümkündür. Məsələn, “mara(maq) felinin uyğur dilində “müşahidə etmək, baxmaq, pusmaq, göz qoymaq (18, 164-168), qırğız dilində “diqqətlə baxmaq, göz gəzdirmək (17, 296), Radlov lüğətində isə “görmək, pusmaq, müşahidə etmək mənalarını (20, IV j., 2 h., 2025) ifadə etdiyi göstərilir. Uyğür dilində həmin sözün “mara(maq) fonetik variantında “gözləmək, gözdən qoymamaq mənasında işləndiyi də qeyd olunub (21, 696). Bu sözə “ətrafına baxmaq, “boylanmaq mənasını bildirən “maran (mara-n) felinin (17, 291; 20, IV j., 2h., 2025), “müşahidə məntəqəsi, “pusqu mənasında işlənən “marak (mara-k) və “pusquçu, kəşfiyyatçı mənasını ifadə edən “maraqçı (mara-q-çı) (20, IV j., 2 h., 2025) isimlərinin tərkibində də rast gəlmək olur. Yakut dilində “sərrast atan, sərrast atıjı və “nişan almaqda sərrastlıq mənalarında işlənən “marqan (19, II j., 2508) sözünün də bu arxaik fellə bağlı olduğu inkaredilməzdir. Müasir altay və qazax dillərində həm “mere, həm də “mörön fonetik variantında “nişangah, göz qoyulan yer mənasında işlənməsi də (16, II j., 221) həmin ilkin məna ilə bağlıdır. Bu arxaik fel müasir Azərbayjan dilində işlənən bəzi sözlərin tərkibində də daşlaşmış şəkildə yaşamaqdadır. Belə ki, qədim “mara(maq) feli son saitin qapalı saitə keçməsi nətijəsində formalaşan “marı(maq) felindən düzəlmiş “zəndlə baxmaq, gözünü zilləmək mənalı “marıt(maq) (-t feldən fel düzəldən şəkilçidir) və “Kitabın dilində olduğu kimi “b samiti ilə işlənən “bərəl(mək), “bərəlt(mək) fellərinin mənşə-yində durur. Dilimizdə işlək olan “maraq (mara-q) sözünün yaranmasında da bu qədim fel kökü mühüm rol oynayır. Görünür, ilk zamanlar “göz qoyulan yer mənasında işlənən “maraq sözü sonradan məjazlaşaraq “arzu edilən, həvəs göstərilən, jan atılan şey mənasını qazanmışdır. Bu arxaik forma dialektlərimizdə “pusqu mənasında işlənən “marıq (marı-q) sözünün (10, 343) tərkibində qalmaqdadır. Onun “ov gözlənilən yer, pusqu, marıq mənasında işlənən

ad korrelyatına həm dialektlərimizdə (2, 72), həm də müasir ədəbi dilimizdə indi də rast gəlinir. Məsələn, Aşıq Abbasda:

Bülbül fəğan eylər gül həvəsindən,
Qoşa nar asılıb yar sinəsindən
Elə gəl, elə get bağ-bərəsindən,
Bülbüllər hürküşüb, gül injiməsin (3, 205) .

Aşıq Ələsgərdə:

Gedirdim güzarım düşdü bü yerə,
Ovçu bərəsində maralı gördüm.
Yatıb inildəyir, durur boylanır,
Bir neçə yerindən aralı gördüm (1, 111).

Musa Yaqubda:

Bərədə boş yerə anları sayıb
Ovunu hürküdən ovçular kimi
Eləmədiklərim yandırır məni.
Yaylaqda çeşməyə məhəl qoymayıb
Səhrada alışan yolçular kimi
Eləmədiklərim yandırır məni (9, 188).

Bizjə, bu söz türk dillərində bir qanunauyğunluq kimi özünü göstərən fel-ad sinkretizminin nətijəsi kimi məhz "baxmaq, "göz qoymaq mənalı "marə-//mərə- felindən yaranmışdır. Mətn üzərində müşahidələr göstərir ki, "marə//mərə arxaizmi "Kitabın dilində yalnız üz-üzə, göz-gözə dayanmış personacların birinin digərinə mürajiəti zamanı işlədilir. Daha dəqiq desək, danışan tərəf müqabilini, mürajiət etdiyi şəxsi gördüyü zaman, yəni baxış və nəzərləri ona yönəldiyi an həmin çağırış nidasından istifadə olunmuşdur. Bir neçə fakta diqqət yetirək:

Şöklü Məlik aydır: “Mərə aznaur, nə hayfımız qaldı? (7, 46).

Qazan aydır: “Mərə Qılbaş, bu Daş Oğuz bəgləri xanım bilə gəlürlərdi. Şimdi neçün gəlmədülər? - dedi (7, 109).

Aruz qoja meydana at dəpdi. Qazana çağırıb: “Mərə qavat, sən mənim qırımımsan, sən gəl bərü!- dedi (7, 111).

Ümumiyyətlə, dastandan elə bir nümunə gətirmək olmur ki, orada “marə//mərə nidası baxışları bir-birinə zillənmiş iki obrazın nitqində işlədilməsin.

Deyilənlər belə bir nətijəyə gəlməyə əsas verir ki, “marə//mərə sözü daha qədim çağlarda “göz qoyulan, nəzər dikilən, zəndlə baxılan məna çalarında işlənmiş (bunun qalığı, “nişan alınan yer mənasında altay, qazax dillərində və Azərbayjan dialektlərində (2, 322) indi də qalmaqdadır), sonralar leksik mənasını itirərək aid olduğu xitabı qüvvətləndirməyə xidmət edən çağırış nidası kimi çıxış etməyə başlamışdır.

Bu etimoloci şərh həm də “marə//mərə arxaizminin dildən çıxma səbəblərini müəyyənləşdirməyə imkan yaradır. Belə ki, ilk zamanlar “baxmaq, göz qoymaq mənasında işlənən həmin söz, görünür, tarixi inkişaf prosesində semantik daralmaya uğrayaraq müasir dilimizdə “marıt(maq), “bərəlt(mək fellərində olduğu kimi, yalnız mənfi məna çalarında işlənmiş və beləliklə də, xalis türk mənşəli bu çağırış nidası işləklikdən düşmüşdür.

“Marə//mərə arxaizminin keçdiyi inkişaf yolunu daha dərindən duymaq və söylənilən mülahizələri daha tutarlı etmək üçün başqa bir çağırış nidasının etimologiyasını müqayisəli şəkildə araşdıraq. “Kitabın dilində “marə//mərə nidası ilə yanaşı, eyni qrammatik funksiyanı yerinə yetirən “hay, hey, ay, a fonetik variantlarında işlənən bir nidaya da rast gəlinir. Məsələn:

Hey Dirsə xan, baňa qəzəb etmə (7, 40).
Hey ana! Ərəbi atlar olan yerdə
Bir qulunı olmazmı olur? (7, 50).

Oğul, oğul, ay oğul,
Bilürmisin, nələr oldu (7, 49).

Ay bəg baba!
Dəvəjə böyümüşsən, köşəkjə aqlun yoq! (7, 66) və s.

Göründüyü kimi, müxtəlif fonetik tərkibdə çıxış edən bu çağırış nidası da "marə//mərə arxaizmi kimi mürajiət olunan şəxsi nəzərə çarpdırmağa, xitabı qüvvətləndirməyə xidmət edir.

"Kitabın və klassik ədəbiyyatımızın dilində müasir dilimiz üçün arxaikləşən "ayıt(maq), "aydır(maq) fellərinə yetərinjə rast gəlinir. Ulu dilçi M. Kaşğariyə görə, "demək, "soruşmaq mənalı "ayıt(maq) felinin mənşəyində "ay(maq) feli durur (15, I j., 174, 393). Bizjə "hay, hey, ay, a fonetik variantlarında çıxış edən "ay nidası məhz "səsləmək, çağırmaq mənalı həmin "ay(maq) felindən törəmişdir. Gözlə görünəndən fərqli olaraq səslənilənin nəzərə çarpdırılması imkanı daha geniş olduğu üçün eyni inkişaf yolu keçmiş bu nidalardan sonunjusu indi də dilimizdə işləkliyini saxlamaqdadır. Hər halda, bu analoci tutuşdurma "marə//mərə sözünün etimologiyası ilə bağlı mülahizələrimizin daha doğru olduğuna əsas verir və onun mənşəyinin yad dillərlə bağlanmasını birdəfəlik qapamış olur.

5. “Dolu” arxaizmi və onun etimologiyası

İstər tarixi, istər müasir aspektdə olan bütün dilçilik əsərlərində “dolu” sözünün əlamət, keyfiyyət bildirən sifət və yağıntının bir növünü adlandıran isim kimi işlənildiyi göstərilir. Lakin ədəbi dilimizin tarixi materiallarında – XIV-XVI əsr klassik şairlərimizin əsərlərində və müxtəlif dövrlərdə yazıya köçürülmüş folklor nümunələrində “dolu” sözünün müasir dilimiz üçün tamamilə arxaikləşmiş mənasına da rast gəlmək olur. Bizcə, həmin sözün semantik və etimoloji cəhətdən aydınlaşdırılması dilimizin tarixi və bugünkü səviyyəsi baxımından maraq doğurmaya bilməz.

Arxaik “dolu” sözünə ilk dəfə olaraq XIV yüzilliyin görkəmli sənətkarı Qazi Bürhanəddinin dilində tez-tez rast gəlinir. Məsələn:

Tolu vericək əlimə sən, saqi, nə dersin,
Almaya ələ adınımı, saqına dersin? (5, 45)

Bir cami-meyi əlünə bən verməz idüm,
Şimdi çəkər oldun *tolular* sağraqəqiqi (5, 47).

Bu mövsümün əhli-dili ol gül gülə qarşu,
Tolu içəsin, şad olasın bülbülə qarşu (5, 66).

Susamışuz ləb ilə yadına *tolu* içəlim,
Şərab dəxi gözümüzə çün şərab olısar (5, 548).

Dürdeyi-dərdüni toldur sun bizə, saqi, *tolu,*
Bizə yetər bu qədər dəxi ki, eyni-safsın (5, 561).

XV əsrin sonu-XVI əsrin əvvəllərində yaşayıb-yaratmış görkəmli söz sənətkarımız Həbibi də həmin sözdən istifadə etmişdir. Məsələn:

Ey saqiyi-ruhi-rəvan, bir *dolu* sun, billah, rəvan,
Ta kim Həbibi dərvişi biəqli bihuş edəlim (9, 33).

Həmin dövr dilimizin qüdrətli söz ustadlarından sayılan Ş.İ.Xətainin qoşqularından birində bu sözün fərqli məna çalarında işləndiyini görürük:

İçmişəm bir *dolu*, olmuşam ayıq,
Düşmüşəm dağlara, olmuşam keyik.
Sənə derəm, sənə, sürməli keyik,
Qaçma məndən, qaçma, avçı deyiləm (9, 25).

Əsərlərinin dili üzərində zərgər dəqiqliyi ilə işləyən böyük söz sərrafı Füzulinin aşağıdakı məşhur qəzəlində də bu arxaizmin işlənildiyini müşahidə etmək olur:

Saqiya, cam tut ol aşiqə kim, qayğuludur,
Qayğu çəkmək nə üçün, cam ilə aləm *doludur*.

Təlx göftarsız olmaz ləbi-yar, ey aşiq,
Çox həvəs eyləmə ol şərbətə kim, ağuludur.

Qoyalım başı xümi-badə əyağına gəlin,
Tutmamaq olmaz onun hürmətini, bir uludur.

Bunca kim, kuh sifət başimə daşlar urulur,
Dideyi-bəxtim oyanmaz, nə ağır uyğuludur.

Dili-pürxunimə yağdırma bəla peykanın,
Həzər et şişəyə, nagah zərər eylər, *doludur*.

Könlümün zəxminə peykanını etdim mərhəm,
Gənci-ğəmdir, nola gər böylə dəmir qapuludur.

Nərgisin fikri, Füzuli, gözü könlümdə gəzər,
Tutar ahu vətən ol yerdə ki, otlu, suludur (8, 142).

Qəzəlin qafiyə sistemini sözlərin mənşəyinə görə təhlil edən prof. Ə.Dəmirçizadə onun "Azərbaycan dilinə mənsub əsli və ya düzəltmə sifətlərdən" ibarət olması qənaətinə gəlir (6, 194). Görkəmli dilçi alim qəzəldə qafiyə yaradan sözlərin xalis Azərbaycan mənşəli olmasını söyləməkdə haqlı olsa da, cinas qafiyə kimi işlənmiş *dolu* sözünü eyni mənalı sifət hesab etməkdə, bizcə, yanılmışdır. Belə ki, birinci beytdəki *dolu* sözü həqiqətən müasir dilimizdə olduğu kimi əlamət bildirən söz kimi işlədilsə də, beşinci beytdə tamamilə başqa mənada işlənildiyi duyulur.

Diqqəti cəlb edən odur ki, həmin söz "şərab"la, "mey"lə bağlı olan "saqi", "sunmaq", "vermək", "içmək" sözləri ilə məna əlaqəsində işlənmişdir. Bu sözün hansı mənanı ifadə etməsi Həbibinin bir qəzəlində xüsusilə aydın görünür. Şair

"Qıldı nəzər çün halimə, bir *dolu* sundu əlimə,
Dedi təbəssüm edərək: künci-kəduyi-meykədə"

beytindəki "dolu" sözünə işarə edərək sonrakı beytdə yazır:

Ol cami çün nuş eylədim, bu əqli sərxoş eylədim,
Görüb təəccüb eylədim cümlə əhli-kuyi-meykədə (9, 22).

"Dolu" sözünün klassik ədəbiyyatımızın dilində daha fəal olan "cam" sözü ilə eyni əşyanı adlandırması faktı və yuxarıda gətirilən şeir parçalarının daxili mənası bizə imkan verir söyləyək ki, bu söz

“cam”, “badə”, “piyalə”, “qədəh” sözlərinin sinonimi olub, “şərab qabı” mənasında işlənmişdir.

Şifahi xalq ədəbiyyatımızın dilində arxaik “dolu” sözünə, yazılı ədəbiyyatımızdan fərqli olaraq, hətta XX əsrin ortalarında belə yazıya alınmış bəzi nümunələrdə rast gəlmək olur. Məsələn,

Piyalən *dolu* xubdur,
İçməyə *dolu* xubdur.
Dost gəzən yeri gördüm,
Gözlərim doluxubdur (4, 45).

Cinas qafiyələrindən təşkil olunmuş bu bayatıda “dolu” sözü birinci misrada əlamət, keyfiyyət bildirən sifət kimi, ikinci misrada isə “şərab qabı” mənasını verən isim kimi işlənmişdir.

Bu arxaizmə məhəbbət dastanlarımızın dilində də rast gəlmək olur. Məsələn, “Əsli və Kərəm” dastanının İstanbul variantında və “Şəhri və Mehri” dastanında bunu əyani şəkildə görmək mümkündür:

İçib eşqin *tolusunu* qanayım,
Düşmüşəm eşqinə, necə yanmayım?
Könül sevdi anı, necə dönəyim?
Mehrabımdı iki qaşı arası (1, 438).

Aldı Mehri görək nə dedi:
Məndən salam olsun Cəlali Kürdə:
Əvvəl həqiqətin neçə yolu var?
Üç yüz altmış altı tabaxda duran
Kimdi, əllərində neçə *dolu* var?
Aldı cavabında Kürdoğlu:
Məndən salam olsun Mehri xanıma:
Həqiqətin otuz iki yolu var.

Üç yüz altmış altı tabaxda duran
Qırxlar idi, əllərində *dolu* var (3, 19).

Müasir Azərbaycan dilində arxaik "dolu" sözü ərəb-fars mənşəli "cam", "badə", "piyalə" və "qədəh" kimi sözlərin təsiri ilə tamamilə işləklikdən düşərək bəzi söz və idiomatik ifadələri çıxmaq şərtilə, demək olar ki, sıradan çıxmışdır. Hazırda dilimizdə "dəli-dolu" idiomatik ifadəsi işlənir. Əslində bu ifadə "Oğuznamə"də verilmiş "Ayıq-oyuq, dəli-dolu" atalar sözünün (12, 53) ikinci tərkib hissəsinin bu günümüzə gəlib çatmış qalığıdır. Həmin atalar sözünün məzmunu isə belədir: "Ayı oyuğa, dəliqanlı igid isə qədəhə (şəraba) meyl edər" (12, 209).

Öz mənşəyi etibarilə Azərbaycan və türk dilləri ilə bağlı olan "dolu" sözü, bizcə, iki tərkib hissədən – "ətrafında dolanmaq", "başına dolanmaq" mənasında işlənən "dol-" feli ilə ad düzəldən -u şəkilçisinin birləşməsindən ibarətdir. Qədim mənasını müasir türk dialektlərində və yakut dilində indi də saxlayan *dol-//tul-* feli (14, 260) türk dilləri ailəsinə mənsub əksər xalqların dillərində işlənən *tulum (tulup), dolab və tuluk//doluk* sözlərinin tərkibində qalmışdır (13, 1721). "Dəri kisə", "dəri qab" mənasını verən bu sözlər qədim *dol-//tul-* feli ilə ad düzəldən -um//-up//-ab, -uq//-uk şəkilçilərinin birləşməsindən əmələ gəlmişdir. Maraqlıdır ki, "dolab" sözünə "süd və digər ağartı məhsulları saxlanılan qab" mənasında "Dədə Qorqud kitabı"nda da rast gəlinir:

Dolab-dolab ağ südimi əmzirdigim oğul! (11, 77).

Digər tərəfdən, araşdırmalar göstərir ki, türk dillərində, eləcə də Azərbaycan dilində *dol-//tul-* felinin tarixən ad korrelyatı da olmuşdur. Qeyd etmək olar ki, "qab" mənasını verən "dol" sözü təkcə ədəbi dilimizin tarixi materiallarında deyil, həm də müasir Bakı, Şamaxı, Salyan, Ordubad və Təbriz dialektlərində də işlənir (2, 196). Məsələn,

Gözün kibi cam olmaya məclisdə, nigara,
Ki, necə ki dökə meyi, dər də *tola* qarşu (5, 67),

Mən yolçuyam, yollar keçib geddirəm,
Eşqin qatarını çəkib gedirəm.
Yanıqlıyam, su ver, içib gedirəm,
Bir cam verin içim, *dol* sizin olsun (3, 184).

Bundan əlavə, "qab" mənasında işlənən *dol//tul* sözü müasir ədəbi dilimizin lüğət tərkibində bəzən açıq-aydın, bəzən daşlaşmış şəkildə olsa da, özünü göstərməkdədir. Ümumişlək sözlərimizdən olan "dolça" sözünün "dol" sözündən törəndiyini, yaxud qab düzəldən ustanı adlandıran *dulus* sözünün *dul* (fonetik variantdır) və "mahir adam", "usta" mənasını verən qədim *us* sözündən yarandığını söyləyə bilərik. Əgər bir az da dərinə getsək görərik ki, *dol-/tul-* feli və onun ad korrelyatı özü də törəmə söz olub, qədim türk dillərində "örtmək", bağlamaq", "yummaq", "qabağını kəsmək" mənasını verən *do-//tu-* felindən əmələ gəlmişdir (7, 117; 14, 255, 293-294).

Nəticə kimi demək olar ki, öz mənşəyi etibarilə qədim Azərbaycan dilinə bağlı olan "dolu" sözü *do/tu→dol/tul→dolu/tolu* istiqamə-tində uzun bir inkişaf yolu keçmiş, xalqın həyat tərzi, məişəti, dünya-görüşü dəyişdikcə bu sözün də semantikasında müəyyən dəyişikliklər baş vermişdir. Çox ehtimal ki, dilimizin ən qədim çağlarında konkret olaraq yalnız dəridən düzəldilmiş müxtəlif həcmli qabları adlandıran *dol, dolu* sözləri zaman keçdikcə gil, saxsı, şüşə və başqa materiallardan düzəldilmiş qabları da adlandırmağa xidmət etmişdir.

6. Da/də ədatının dil sistemində yeri

Ədatın ən qədim nitq hissələrindən biri olmasına baxmayaraq, dilçiliyimizdə onun tədqiqi tarixi prof. Ə.Abdullayevin "Köməkçi nitq hissələri" əsəri ilə başlamışdır. Sonrakı illərdə çıxan qrammatika kitablarında (5, 289-297; 13, 327-352; 15, 324-342; 18, 448-460) və xüsusən prof. F.Zeynalovun "Müasir türk dillərində köməkçi nitq hissələri" adlı iri həcmli fundamental elmi əsərində ədatın köməkçi nitq hissəsi kimi dilimizin qrammatik quruluşunda tutduğu mövqeyi, sözə, söz birləşməsinə, cümləyə verdiyi məna çalarları və s. xüsusiyyətləri geniş şərh edilsə də, bir çox mübahisəli məsələlər öz cavabını hələ də gözləməkdədir. Bu mübahisəli məsələlərdən biri də ayrı-ayrı ədatların, o cümlədən dilimizdə öz işləkliyinə görə seçilən *da/də* ədatının konkret izahında meydana çıxır. Araşdırma göstərir ki, ümumiyyətlə, türkologiyada *da/də* ədatına ikili baxış geniş yayılmışdır. Bu haqda prof. F.Zeynalovun göstərilən əsərində ətraflı danışılsa da, bəzi məşhur türkoloqların fikirlərini xatırlamaq yerinə düşərdi.

Tanınmış türkoloq N.K.Dmitriyev "Başqırd dilinin qrammatikası" kitabında *da/də* haqqında yazırdı: "Bitişdirmə və ya ziddiyyət bağlayıcıları vəzifəsində işlənən ədatdır. Vurğusuzdur. İstənilən nitq hissəsindən sonra gəlir. Ahəng qanununa tabe olduğuna görə bağlayıcılara aid edilə bilməz" (45, 129). Göründüyü kimi, müəllif *da/də* sözündə bağlayıcılıq keyfiyyəti görsə də, onu ədat hesab etmişdir. Lakin görkəmli türkoloq öz fikirlərində ardıcıl olmamış, əksər əsərlərində *da/də* morfemindən bağlayıcı kimi bəhs etmişdir (45, 263-265).

Məşhur türkoloq A.N.Kononovun tədqiqatlarında *da/də* vahidindən həm bitişdirici bağlayıcı, həm də xalis ədat kimi danışılır (51, 347; 52, 335). N.A.Baskakov isə *da/də*-dən həmcins felləri və digər

nitq hissələrini bitişdirən, eləcə də cümlə üzvlərini qüvvətləndirən və nəzərə çatdıran bağlayıcı kimi bəhs etmişdir (33, 516-517).

Türkologiyada *da/də* ilə bağlı araşdırmaları nəzərdən keçirdikdə ondan əsasən bağlayıcı kimi danışıldığını müşahidə etmək olar. Bununla belə, bəzi alimlərin, məsələn, L.N.Xaritonov, A.İ.Qrekul, F.Q.İsxakovun tədqiqatlarında o yalnız ədat kimi araşdırılmışdır (49, 430-452; 72, 415-418; 77, 277). Dmitriyev, Kononov, Baskakov, Musayev, Hacıyeva və b. dilçilər isə *da/də*-nin tarixən ədat olmasını və sonradan bağlayıcıya keçməsini söyləmişlər (ətraflı bax: 62).

Azərbaycan dilçiliyində prof. Ə.Abdullayevin göstərilən əsərinə qədər, əksər ədatlar kimi, *da/də* morfemi də bağlayıcıların tərkibində öyrənilmiş, hətta aid olduğu sözdən sonra işlənməsinə görə ondan "qoşma tipli bağlayıcı" kimi bəhs edilmişdir (4, 144-168; 6, 235). Həmin əsərdə isə, dilçiliyimizdə ilk dəfə olaraq, *da/də* morfemindən ədat kimi danışılmış və qeyd edilmişdir ki, bu söz "müasir dilimizdə elə vəziyyətdədir ki, onda həm bağlayıcılıq, həm də ədatlıq keyfiyyəti vardır" (1, 10). H.Mirzəzadənin əsərini çıxmaq şərti ilə (15, 324-342), nəşr olunan sonraki qrammatika kitablarında *da/də* sözündə ikili keyfiyyət görülmüş, ondan həm bağlayıcıların, həm də ədatların tərkibində bəhs edilişdir (5, 289-297; 13, 327-352; 18, 448-460; 27, 166-311).

Dil faktları üzərində müşahidələrimiz göstərir ki, bütün ədatlar kimi *da/də* ədatının əsas xüsusiyyəti bu və ya digər sözü, söz birləşməsini və cümləni qüvvətləndirmək, nəzərə çatdırmaq, onlara emosional-məntiqi məna çalarları verməkdir. *Da/də* ədatı aid olduğu sözün, söz birləşməsinin və cümlənin sonunda işlənib, özündən əvvəlki sözün üzərinə vurğu gətirir. Bəzi ədatlar kimi (məsələn, -sana[2], -mı[4]) bu ədat da ahəng qanununa tabe edilərək işlədilir. Bəs dilçilərimiz hansı məqamda *da/də* sözündə bağlayıcılıq keyfiyyəti görürlər? Prof. M.Hüseynzadə *da/də*-dən bağlayıcı kimi bəhs edənlərin fikrini sanki ümumiləşdirərək yazırdı: "*da/də* bağlayıcıları

həmcins üzvlər, tərkib daxilindəki sözlər və cümlələr arasında işlənir" (13, 316). Bu məqamlar üzərində ayrı-ayrılıqda dayanmaq istərdik.

1) Həmcins üzvlər arasında işləndikdə;

Prof. Ə.Abdullayev bunu belə izah edir: "*da/də* sözü iki-iki işləndikdə, yəni bağlanan vasitələrin hər birinin yanında bunlardan biri olduqda bağlayıcı rolu oynadığı daha artıq nəzərə çarpır. Əli də, Kərim də orada idilər – dedikdə *da/də* bağlayıcıdır. Çünki Əli və Kərim sözlərini bir-birinə bağlayır. Buradakı *da/də* bağlayıcısını *və, ilə* bağlayıcıları ilə əvəz etmək olar. Lakin ədatlıq keyfiyyəti üstün olan yerlərdə *da/də* əvəzinə *və, ilə* bağlayıcıları işlətmək olmaz" (1, 10).

M.Hüseynzadə bu sözü "Ədat" bəhsində "həm bağlayıcı, həm də ədat kimi işlənənlər" başlığı altında verərək yazır: "*da/də* cümlədə təkrar olunarsa və bağlayıcı ilə əvəz edilə bilərsə, bağlayıcı olar. Bunlar tək işlənərsə, özündən əvvəlki sözün üzərinə vurğu gətirərsə və başqa bağlayıcı ilə əvəz olunmazsa, ədat olar" (13, 330).

"*Da/də* təkrarlandıqda bağlayıcılıq məzmunu özünü daha artıq hiss etdirir" fikrini söyləməklə prof. F.Zeynalov da həmin dilçilərin baxışları ilə razılaşdığını bildirmiş olur (27, 182).

Beləliklə, aydın olur ki, *da/də* sözündə bağlayıcılıq keyfiyyəti görən dilçilər onun həmcins üzvlərlə işlənə bilməsi və bağlayıcılarla əvəz edilə bilməsi faktına əsaslanırlar. Lakin məsələ burasındadır ki, *da/də* həmcins üzvlərlə işləndikdə belə ədata məxsus heç bir xüsusiyyətini, yəni özündən əvvəlki sözün üzərinə vurğu gətirmək, onu qüvvətləndirmək və ya nəzərə çarpdırmaq, ahəng qanununa tabe olmaq xüsusiyyətlərini itirmir. Bunu həmin dilçilər özləri də etiraf edirlər: "*da/də* enklitik ədatı bağlayıcı kimi çıxış edib, iki anlayışı bitişdirmək məqamında da qüvvətləndirmə ədatı kimi çıxış edir" (27, 182).

Da/də sözünün həmcins üzvlərlə işləndikdə *və, ilə* bağlayıcıları ilə əvəz edilməsi, bizcə, heç də onun bağlayıcılıq keyfiyyətindən deyil, *və, ilə* bağlayıcılarının özlərinin həmcins üzvlər arasında işlənə bilməsindən irəli gəlir. Doğrudan da, "Əli də, Kərim də orada idilər" tipli cümlələrdə *da/də*-ni atıb, *və, ilə* bağlayıcılarını həmcins üzvlər arasına əlavə etmək olar, lakin əvvəlki məna çaları alınmaz.

Məlumdur ki, dil üzərində apardığımız müşahidələr göstərir ki, *da/də* həmcins üzvlərin hər birinin yanında işlənməklə yanaşı, sonuncu həmcins üzvün yanında ayrılıqda da işlənə bilir. Son tədqiqatlara əsasən deyə bilərik ki, bu zaman heç bir dilçi ondan bağlayıcı kimi danışmır. Məsələn:

Gəncə əyan və ziyalıları da məsciddə idilər (M.S.Ordubadi).

Orada gözəllik nə qədər qiymətlidirsə, ağıl və fərasət də qiymətlidir (M.S.Ordubadi).

Ümidsizliyi və bədbinliyi də doğuran haman ruh məsələsidir. (M.S.Ordubadi).

Xidmətçi və cariyələrdən də bir çoxu gözə dəymirdi (M.S.Ordubadi).

Əbul-üla və Fələki də Zəhirin və Kəmaləddinin fikirlərinə qovuşdular (M.S.Ordubadi).

Diqqət edilsə, bu tipli cümlələrdə *da/də*-ni əvvəlki həmcins üzvün yanında da işlətmək mümkündür və ümumi mənaya heç bir xələl gəlməz. Demək, *da/də* həmcins üzvlərlə işləndikdə belə ədatlıq xüsusiyyətini itirmir.

2) Mürəkkəb cümlənin tərkibində işləndikdə;

Da/də ədatı söz və söz birləşməsinə aid olduğu kimi, bütün cümləyə də aid olub, onun mənasını qüvvətləndirir. Əgər dilçiliyimizdə sadə cümlənin sonunda gəlib, ona müxtəlif emosional məna çalarlıqları verən *da/də*-nin ədat kimi öyrənilməsi əksəriyyət tərəfindən qəbul edilmişsə, mürəkkəb cümlənin tərkibində işlənən *da/də*-yə münasibət mübahisəlidir. Hətta bəzi dilçilər *da/də*-nin

tabesiz və də tabeli mürəkkəb cümlələrin tərkibində işlənməsini nəzərə alaraq, onu həm tabesiz, həm də tabeli bağlayıcılara daxil etmişlər (5, 121; 18, 438). Bu ikili keyfiyyət isə hətta xalis bağlayıcılarda yoxdur.

Məlumdur ki, *da/də* qrammatik forması tabesiz mürəkkəb cümlənin bütün komponentlərinin, yaxud da bir komponentinin tərkibində işlənə bilər. Məsələn:

Dolu da ötüşdü, külək də keçdi (B.Bayramov).

Quyu qazılar, neft də çıxar (M.Süleymanov).

Bərəkət ondur, onu da düzlük (Atalar sözü).

Bəziləri özünü suya atıb çimir, bəziləri də yastı daşları suyun üzərində sürüşdürürdülər (İ.Şıxlı).

Bu evin sahibi mənəm, mən də nə edəcəyimi bilirəm (İ.Şıxlı).

Əri o yana dursun, qayınanası da ona göz verib, işıq vermir (İ.Şıxlı).

İnişil arvadı öldü, keçən il də əlləri aşağı oldu (İ.Şıxlı).

Bu tipli cümlələrdə *da/də*-dən bağlayıcı kimi bəhs edən dilçilər (M.Şirəliyev, Ə.Abdullayev, A.Axundov) onun sintaktik funksiyasını ön plana çəkmiş, aid olduğu söz, söz birləşməsi və cümləyə verdiyi semantik çalarını nəzərdən qaçırmışlar (3, 343; 7, 347; 19, 358). Vaxtilə "Qış da gəldi" tipli cümlələrdə olduğu kimi bu tipli cümlələrdə də *da/də*-nin bağlayıcı hesab edilməsi nitq hissələrinin leksik-semantik və morfoloji prinsiplər üzrə bölgüsünə ziddir.

Əgər tabesiz mürəkkəb cümlənin tərkibində işlənən *da/də* ədatı əksər dilçilərimiz tərəfindən bağlayıcı kimi tədqiq edilmiş və edilirsə, tabeli mürəkkəb cümlənin tərkibində işlənən *da/də* ədatına münasibət nisbətən aydındır. Belə ki, əksər dilçi alimlər (məsələn, A.N.Kononov, N.Hacıyeva, Ə.Abdullayev və b.) tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlayan *da/də*-ni ədat kimi işıqlandırmışlarsa, bəzi dilçilər (məsələn, M.Şirəliyev, Ə.Tağızadə və b.) ondan bağlayıcı

kimi bəhs etmişlər (2, 116-128, 337-345; 7, 381; 25, 130; 35, 83; 51, 337-345). Dil faktlarına müraciət edək:

O buraya gəlin gələndə ərinini var-dövləti olsa da, əməlli-başlı bir otağı da yox idi (İ.Şıxlı).

O nə qədər hirsli olub Mələyə susmağı əmr etsə də, qəlbinin dərinliklərin-də haqsızlığını duyurdu (İ.Şıxlı).

Onun fikri burada qalsa da, yerindən tərpənmir, canın dişinə tutub daya-nırdı (İ.Şıxlı).

İndi biz burda olsaq da, kökümüz-nəslimiz ordadır (İ.Şıxlı).

Göründüyü kimi, istər tabeli, istərsə də tabesiz mürəkkəb cümlənin komponentləri tərkibində işlənən *da/də* aid olduğu söz, söz birləşməsi və cümlənin mənasını qüvvətləndirməyə, nəzərə çarpdırmağa xidmət edir ki, məhz bu xüsusiyyətlər ədata məxsus keyfiyyətlərdəndir. Bununla belə, *da/də* ədatı mürəkkəb cümlənin komponentlərinin tərkibində, eləcə də həmcins üzvlərlə yanaşı işləndikdə (ayrıca və ya təkrarlandıqda) həm də sintaktik funksiya daşıyıcısına çevrilir ki, bu əlamət digər ədatlara, hətta semantik cəhətdən daha yaxın olan modal sözlərə də xas xüsusiyyətdir. Son illər bu tipli sözlərin sintaksisdə ümumi bir termin – "bağlam" başlığı altında (rus dilçiliyində "скреп") öyrənilməsi həmin problemin həlli baxımından tutarlı hesab edilməlidir (ətraflı bax: 68).

Tədqiqatlar göstərir ki, təkcə sözə və ya cümləyə verdiyi semantik xüsusiyyətinə və morfoloji əlamətinə görə deyil, həm də mənşəyinə görə *da/də*-nin ədat kimi formalaşması və fəaliyyət göstərməsi gəldiyimiz nəticənin düzgünlüyünü sübuta yetirməyə imkan yaradır.

Türk dillərində, o cümlədən Azərbaycan dilıində əksər ədatlar mənşəyinə görə əsas nitq hissələrinə bağlı olub, adların və fellərin, bəzi ədatlar isə köməkçi nitq hissələrinin, xüsusən modal sözlərin leksik-semantik mənasını itirməsi nəticəsində yaranmışdır. Əgər bir çox ədatlarda bu əlaqə açıq-aydın duyulursa (məsələn, belə, elə, bir,

bax, qoy, gör və s.), uzun bir tarixi proses keçmiş türk mənşəli ədatlarda bu inkişafın mənbəyini və təkamülünü müəyyənləşdirmək olduqca çətindir (Alınma ədatların mənşəyi o qədər də mübahisə doğurmur). Məhz buna görə də türkologiyada belə ədatların mənşəyi məsələsi uzun müddət fikir ayrılığına, mübahisə obyektinə çevrilmişdir. Odur ki, hər hansı bir ədatın etimologiyasını araşdırarkən onun keçdiyi inkişaf yolunu – xarici forma və daxili məzmunundakı leksik-semantik və qrammatik dəyişməni tarixi ardıcıllıqla, müqayisəli şəkildə tədqiq etmək vacib şərtlərdəndir. İstisnasız olaraq, bütün türk dillərində müxtəlif fonetik variantlarda yayılmış *da/də* ədatının mənşəyi məsələsi də mübahisəli olduğu üçün xüsusi araşdırmaya möhtacdır.

İlk dəfə qədim Orxon-Yenisey abidələrində – Kül Tiqinin şərəfinə yazılmış abidədə 2 dəfə rast gəlinən *da/də* ədatı (24, 57-62), daha sonra yazılmış əksər türk dilli əsərlərdə yeri düşdükcə istifadə edilmiş və müasir türk dillərində, o cümlədən Azərbaycan dilində ən işlək ədatlardan sayılır (1, 9; 27, 191; 15, 328; 13, 29; 61, 425; 64, 44; 71, 506; 74, 247). Bu işləkliyin nəticəsidir ki, hələ keçən əsrin ortalarında *da/də* ədatının etimologiyası türkoloqların diqqətini cəlb etmiş və onun dəxi ədatının qısaldılmış forması olması haqqında fikir L.Budaqovun və M.Terentyevin əsərlərindən rişələnməyə başlamışdır (34, 352; 76, 133). Lakin həmin fikrin türkologiyada daha "tutarlı" təsdiqi və geniş yayılması məşhur fransız türkoloqu J.Deni və Türkiyə dilçisi T.Tekinin adı ilə bağlıdır. J.Deni "Türk dili qrameri" əsərində *da*-ya qədim *dəy*(mək) felinə *-i* feli bağlama şəkilçisinin artırılması ilə düzəlmiş "*dahi*" ədatının son iki səsinin ixtisarı kimi baxmış (28, 406) və onun fikirləri V.Banq, K.Brokkelman və M.Rəsənen kimi tanınmış türkoloqlar tərəfindən cüzi əlavələrlə qəbul edilmişdir. Q.Abdurahmanov, A.N.Kononov, S.Y.Malov, K.M.Musayev, A.M.Şerbak və başqalarının əsərlərində, eləcə də bəzi qrammatika kitablarında J.Deninin bu etimoloji izahı

dönə-dönə xatırlanaraq razılıqla qəbul edilmişdir (32, 18; 51, 356; 53, 206; 61, 426; 62, 8; 79, 190; 80, 116; 41, 450-451; 74, 512). *Da/də* ədatının mənşəyi məsələsi uzun müddət Türkiyə dilçilərinin də diqqət mərkəzində olmuşdur. Onlardan ilk dəfə M.Rüfət *da/də*-nin *dəxi*-dən törəməsi fikrinə gəlmiş və yaxud J.Denidən iqtibas etmişdir (15, 328). Tanınmış Türkiyə dilçisi T.Tekin isə bu məsələyə daha ətraflı toxunaraq, XIII yüzillikdəki bir mətnə əsasən *da/də*-nin aşağıdakı 2 istiqamətdə "*daki*" formasından törəməsi fikrinə gəlmişdir:

1) daki > dak > dah > da
2) daki > dahi > dah > da (31, 276-277).

Digər Türkiyə alimi Ə.Y.Elöve isə T.Tekinin bu yozumunu xeyli inkişaf etdirmiş və bu qısalmanı aşağıdakı variantda vermişdir:

Taki > *daki* > *daqi* > *daki* > *daha* > *da(.)* > *da/de* (29, 454-456).

Türkologiyada J.Deni və T.Tekinin adı ilə bağlı olan bu mülahizə Azərbaycan dilçiliyində tarixi qrammatikamızın görkəmli tədqiqatçısı prof. H.Mirzəzadə tərəfindən heç bir əlavə izahat verilmədən qəbul olunmuşdur (16, 38; 15, 328). Özünə çoxlu sayda tərəfdar toplamasına baxmayaraq, bu etimoloji açım heç də əksər dilçiləri qane etməmişdir. Belə ki, E.K.Pekarski məşhur lüğətində *da/də* ədatının *dəxi* ədatından deyil, əksinə *dəxi*-nin *da/də*-dən törəməsi qənaətinə gəlmişdir (66, 661). Türk dilçi alimi M.Ergin isə "*dəxi* ədatı "*tak*-i" feli bağlamasının ədatlaşması yolu ilə ortaya çıxıb" fikrini qəbul etsə də, *da/də* ədatını tamamilə başqa bir mənşə – əski türkcədə işlənmiş *ma/mə* ədatı ilə bağlamış, lakin *m* səsinin *d* səsinə keçmə prosesini şərh etməmişdir (30, 339).

Tatar dialektoloqu L.T.Maxmutova *da/də* ədatının tatar dialektlərində işlənən "tə" formasının mənşəyinə toxunaraq yazır ki, o, görünür, bir sıra türk dillərində – qaqauz (*ta, te*), qazax (*tu, tüneu*), qırğız (*tetiqi*), uyğur (*tana, tavu*), oyrot (*tu, tü, tu ol*), tatar (*teqe*), türk (*tee*) və Azərbaycan (*otana, butana*) dillərində və ya

dialektlərində həm ayrıca, həm də tərkib daxilində qorunub qalmış "*te*" işarə əvəzliyindən törəmişdir. Azərbaycan dilçiliyində ədatların mənşəyi məsələsinə ardıcıl toxunan prof. Ə.Şükürov *da/də* ədatının etimologiyası haqqında türkologiyadakı mövcud fikirləri sadalayaraq, L.Maxmutovanın bu açımına tərəfdar çıxmışdır (78, 55-57).

Da-də ədatının mənşəyi ilə əlaqədar bütün yozumları müqayisə edib aşağıdakı qənaətə gəldik:

1. J.Deni və T.Tekinin adı ilə bağlanan, *da/də*-nin ədatlaşmış *dəxi* feli bağlama formasından törəməsi fikri görkəmli dilçilər tərəfindən bəyənilsə belə, yanlışdır, çünki:

a) *dəxi* ədatı özü başqa yolla meydana gəlmişdir (bu haqda irəlidə danışılacaqdır);

b) *dəxi* ədatı deyil, türk dillərində geniş yayılmış *tək/dək*, *təki/dəki*, *təkin/dəkin* qoşmaları mənşəyinə görə qədim *dəy(mək)* feli və onun feli bağlama formasından törəmişdir (27, 106; 78, 35).

2. M.Erginin etimoloji açımı bir məchulun başqa bir məchulla açımına bənzədiyi və hətta alimin özünə belə tam aydın olmadığı üçün məqbul sayıla bilməz.

3. Nəhayət, türk dillərinin daxili qanunauyğunluqları bizə imkan verir ki, *da/də*-nin mənşəyini "*tə*" işarə əvəzliyinə bağlayan L.Maxmutovanın yozumunu daha inandırıcı sayaq. Lakin bu yozumun daha tutarlı araşdırmaya ehtiyacı olduğunu nəzərə alaraq, üzərində bir qədər geniş dayanmaq istərdik.

K.Y.Maytinskaya "Müxtəlif sistemli dillərdə əvəzliklər" adlı irihəcmli monoqrafiyasında Hind-Avropa, fin-uqor, Altay və s. fərqli quruluşlu dilləri müqayisə edərək, əvəzliklərin dillərin struktur inkişafında xüsusi rol oynadığını göstərməklə, onların özünəməxsus keyfiyyətinə əsasən yarımformal element olub, köməkçi nitq hissələrinə və formadüzəldici şəkilçilərə asanlıqla keçmələrini qeyd edir (59, 126). Bu mənada işarə əvəzliklərinin ədata keçmə fəallığı

olduqca yüksəkdir. M.Y.Maytinskaya bu hadisəni belə işıqlandırır: "... ilk başlanğıcda işarə sözlər konkret mənalı sözlərdən törəmiş və heç də təkcə əvəzliklərin deyil, ədat və zərflərin də funksiyasını yerinə yetirən hissəciklər kimi formalaşmışdır. Lakin ilk deyktik hissəciklərin (terminin geniş mənasında işarə sözlərin) törəməsi bizə məlum olan bütün kök dillərin yaranmasına qədərki çox uzaq bir dövrə aiddir ki, adətən, belə sözlər heç bir tammənalı sözə daxil edilə bilməz. Buna görə də təəccüblü deyildir ki, Ural və ya Hind-Avropa kimi dil qruplarında əvəzlik köklər (o cümlədən işarələrin özləri də) tammənalı sözlərin köklərindən bütünlüklə təcrid olunmuş kimi görünür.

Ümumi deyktik mənbədən uzun bir inkişafın nəticəsində öz funksiyasına görə diferensiallaşmış işarə sözlər: müxtəlif əvəzliklər, ədatlar, zərflər əmələ gəlib" (59, 107). Sonra müəllif öz fikirlərini inkişaf etdirərək yazır ki, bunun izlərini bir sıra dillərdə indi də üzə çıxarmaq mümkündürsə də, işarə əvəzliklərinin köməkçi nitq hissələrinə (o cümlədən ədata) və şəkilçilərə keçmə prosesi dillərin inkişafının daha sonrakı dövründə özünü mürəkkəb və rəngarəng şəkildə göstərməkdədir (59, 133).

Türkologiyada əvəzliklərin ədata keçmə prosesi sistem halında tədqiqat obyekti olmasa da, ayrı-ayrı ədatların etimoloji izahında bu məsələyə toxunulmuş, müəyyən fikirlər söylənilmişdir (51, 345-355; 58, 32-34; 74, 504-508; 79, 93-110 və s.). Azərbaycan dilçiliyində də *ki, oş/uş, -mı*[4]*, elə, belə* və s. ədatların əvəzliklərlə bağlı olması haqqında qiymətli araşdırmalar və mülahizələr mövcuddur (2, 126-128; 14, 195-196; 15, 331; 26, 103; 78, 61; 57, 13 və s.). Deməli, *da/də* ədatının qədim *te/ti* işarə əvəzliyindən (biz bir çox dilçilərin fikirlərinə və gətirdikləri tutarlı arqumentlərə əsaslanaraq, bu formanı arxetip forma şəklində qəbul etdik) əmələ gəlməsi türk dillərinin öz təbiəti daxilində mümkündür və heç də gözlənilməz yozum xarakteri daşımır.

Te/ti işarə əvəzliyinin müxtəlif fonetik variantlarda ayrıca və tərkib daxilində müasir türk ədəbi dillərində və dialektlərində işlənilməsi faktının F.Q.İsxakov (49, 249) və A.M.Şerbak tərəfindən ümumiləşdirildiyini göstərməklə yanaşı, son illərin tədqiqatlarını nəzərə alaraq bu məsələ üzərinə bir daha qayıtmaq istərdik. Həmin əvəzliyə altay (oyrot) (*tu, tu ol* – 81, 512), başqırd (ədəbi dildə: *teqe*, dialektlərdə: *teqe, tabaha, taha* – 45, 23; 60, 123), qaqauz (*ta/te, ta bu/te bu, ta o/te o, ta şu/te şu, ta bola/te bola, ta ola/te ola* – 67, 131-136), qazax (*tu, tuneu* – 72, 233), qırğız (*tiqi/tiqil, tetiqil, tee tetiqi/tee tetiqil* – 38, 187), yakut (*iti, siti* – 41, 191), tatar (ədəbi dildə: *teqe, teqeley*, diallektlərdə: *teqe/tee, teqendey/teendey, tuşi, tuşinday*), baraba tatarları (*tiqi* – 46, 187), tofalar (*tee* – 67, 256), tuva (ədəbi dildə: *dəə/doo/duu/düü*, dialektlərdə: *dee, dii* – 49, 231; 78, 92), türkmən (yanut dialektinin qərb şivələrində: *işti* – 42, 178), uyğur (ədəbi dildə: *tana, tavu, anavut*, dialektlərdə: *tinə, tavu* – 63, 79), xakas (*titi* – 43, 148) və s. dillərdə əsasən işarə əvəzliklərinin tərkibində, tək-tək hallarda isə müstəqil şəkildə də rast gəlmək olur. Həmin işarə əvəzliyi Azərbaycan dilinə də yad deyil. Belə ki, dialektlərimizdə işlənən *buta, ota, butana, otana* əvəzliklərinin tərkibində daşlaşmış halda olsa da yaşamaqdadır (14, 80-81). Bizcə, te/ti işarə əvəzliyi qədim Azərbaycan və Osmanlı türkcəsində işlənmiş *iştə* (9, 85; 15, 331), *oşda/uşda* (44, 74) mürəkkəb işarə əvəzliyinin (və ya ədatının) tərkibində özünü göstərməkdədir. Hərçənd ki, H.Mirzəzadə (15, 331), Ə.Şükürov (78, 72) bu sözü "*iş*" və "*tə*" hissələrinə bölərək, birincini qədim işarə əvəzliyi, ikincini ədat hesab edirlər, yuxarıda gətirdiyimiz faktlara, eləcə də qədim və müasir türk dillərində işlənən digər işarə əvəzliklərinin əmələ gəlmə mexanizminə əsaslanaraq (məsələn: türk dilində: *işbu, bul, şul* – 51, 173; Azərbaycan dilində: *şol, uşbu, öylə, şöylə, böylə, haböylə* – 17, 111-114; 26, 100-103) deyə bilərik ki, *iştə* işarə əvəzliyi də iki işarə əvəzliyinin birləşməsindən törəmişdir. "Əgər nəzərə alsaq ki, türk

dillərində işarə əvəzlikləri əsasən iki əvəzliyin birləşməsindən yaranır” (55, 62), onda verdiyimiz etimoloji izah daha inandırıcı və daha məqbul görünür.

Bu məqamda kiçik bir şərh vermək istərdik: məşhur şərqşünas M.Kazım bəy Azərbaycan dilində *helə* işarə əvəzliyinin də işləndiyini qeyd edir (50, 336). Nədənsə heç bir qrammatika kitabında bu işarə əvəzliyi haqqında danışılmır. Bizcə, müasir danışıq dilində az da olsa istifadə edilən *helə* işarə əvəzliyi elə və belə işarə əvəzliklərinin yaranması istiqamətində formalaşmışdır: *helə he/hə* qədim işarə əvəzliyi ilə *-lay* qədim bənzətmə şəkilçisinin birləşməsindən əmələ gəlmişdir.

Te/ti işarə əvəzliyi mənşəyinə görə türk dillərinin ən qədim dövrlərinə aid olub, bəzi tanınmış dilçilər tərəfindən ümumaltay mənşəli hesab edilir. Ramstedt Altay dillərində geniş yayılmasına görə *te* işarə əvəzliyini *e* işarə əvəzliyi ilə birlikdə ən qədim əvəzlik sayır və onun türk, monqol, tunqus dillərindən əlavə, hətta koreya dilində də işləndiyini qeyd edir (69, 74). “Altay dillərində əvəzliklər” adlı məşhur əsərində V.Kotviç monqol, mancur və türk dillərində *te* mənşəli əvəzlikləri qarşılaşdıraraq, karakaslarda *tä,* uryanxaylarda *tä* və *tö* formasında, həmin mənada Yenisey çayından Volqaya qədər geniş bir ərazidə yayılmış (Katanova görə) *tiqi*, yakut dilindəki *iti* və *şiti* mürəkkəb əvəzliklərinin tərkibindəki *ti* əvəzliyini monqol dilindən alınma olduğunu göstərir (55, 61-62). *İti* işarə əvəzliyinin mənşəyinə toxunarkən müəllif Bötlinqkin və Radlovun fikirlərini maraqlı sayır: “Bötlinqk artıq onun (*iti*-nin – H.A.) başqa dillərdə olmadığını müəyyənləşdirmişdir. Radlova görə isə, o da ümumiyyətlə həmin sözün “türk dilinə yaddır” fikrində olmuşdur” (55, 62). V.Kotviç öz fikirlərində ardıcıl olmuş, “Altay dilləri üzrə araşdırmalar” adlı iri həcmli digər əsərində həmin məsələyə bir də qayıdaraq yazır: “... yuxarıda qeyd edilən *tä, tiqi* və *tetiqi* əvəzliklərinin kökü *te*, *ti*-dir. O, şübhəsiz, monqol dilindən, hələ

orada *tere* formasının yaranmasına qədər alınmışdır” (54, 142). Lakin müasir türk dillərində və dialektlərində *te/ti* mənşəli əvəzliklərin geniş arealda yayılması, digər tərəfdən *te-* mənşəli işarə əvəzliklərinin həm də Hind-Avropa, fin-uqor qruplarında fəal işlənməsi (ətraflı bax: 57) onun hər hansı bir dildən keçməsini rədd edir. Bizcə, həmin işarə əvəzliyi pratürk dilinə mənsub olub, müasir dilimizdəki *o* işarə əvəzliyi mənasında işlənmişdir.

Ümumiyyətlə, əksər dilçilərin III şəxs əvəzliyi kimi I və II şəxs əvəzliklərinin də işarə əvəzliklərindən törəməsi fikri müəyyən nöqtədə birləşir. Bu sahədə türk dilləri üzrə aparılan tədqiqatlara əsasən deyə bilərik ki, əgər “mən” şəxs əvəzliyi *mu/bu* işarə əvəzliyindən yaranmışdırsa, “sən” şəxs əvəzliyi *t~s* dəyişməsi nəticəsində qədim *te/ti* işarə əvəzliyindən əmələ gəlmişdir. Bir çox dünya dillərinin müəyyən inkişaf mərhələsində II və III şəxs əvəzliklərinin eyni mənbədən rişə tapması faktını da nəzərə alsaq, türk dillərində *te/ti* işarə əvəzliyinin həm II şəxsin, həm də III şəxsin təkini əmələ gətirməsini söyləmək mümkündür. Altay nəzəriyyəsinə görə, türk dili ilə eyni mənşəli monqol dilində də həmin hadisəni görmək olar. *Te/ti* işarə əvəzliyinin pratürk dilinə mənsub olmasını belə bir fakt da qüvvətləndirir ki, monqol dilindəki II şəxsin təkini bildirən *çi*-nin *t~ç* əvəzlənməsi nəticəsində artıq X–XIII əsrlərdə formalaşdığı dəqiq söylənilirsə, türk dillərində *t~s* səs dəyişməsi nəticəsində *sən/sin* formasının əmələ gəlməsi yazıyaqədərki dövrü əhatə edir və fərziyə şəklində irəli sürülür.

Beləliklə, *te/ti* işarə əvəzliyinin türk dilləri, o cümlədən Azərbaycan türkcəsi üçün “yad olmadığını”, yuxarıda sadaladığımız qədim və müasir işarə əvəzliklərinin qanuniləşmiş bir sistem daxilində ədata keçmə prosesini nəzərə alaraq, *da/də*-nin əmələ gəlməsini iki variantda vermək olar.

1. Pratürkdə hələ qədim işarə hissəciklərinin diferensiallaşmadığı bir dövrdə mövcud olan *te/ti* işarə hissəciklərinin müəyyən təkamül nəticəsində paralel variantda həm işarə, həm ədata keçməsi.

Bu hadisəni təqribən belə sxemləşdirmək olar:



2. Artıq formalaşmış ta/ti işarə əvəzliyinin ədata keçməsi.

Sözsüz, birinci variant ikinci variantdan daha qədim olub yalnız mülahizə şəklində qəbul edilə bilər. Belə ki, ən qədim türk yazılı abidələrindən Kül Tiqinin şərəfinə yazılmış böyük abidədə *ta/da* ədatının müasir türk dillərindən, o cümlədən Azərbaycan dilindən heç bir fərq olmadan işlənməsi onun çox qədim çağlarda formalaşdığını sübut edir.

a) Anta kisrə iki kağan bolmıs erinc, oğlu *ta* kağan bolmıs erinc (24, 57).

b) Anta sakıntım: gözdə yaş kelsər, eti *də* könültə sığıt kelsər, yanturus sakıntım, katığtı sakıntım... (24, 62).

İkinci variantda isə, öz əvvəlki semantikasını itirən arxaik *te/ti* işarə əvəzliyi ədatlaşaraq aid olduğu, mənasını nəzərə çarpdırdığı sözün önündə gəlmiş, sonra iltisaqi dillərin daxili qanunlarına tabe olaraq söz sonuna keçməklə (fonetik variantlılıq da bu zaman yaranmışdır) həmin funksiyanı yerinə yetirmişdir. Bu inkişafı aşağıdakı şəkildə sxemləşdirmək olar:



İkinci variant üzərində ətraflı dayanmamışdan, həmin prosesi keçmiş digər ədatların timsalında fikrimizi əsaslandırmağa çalışaq.

XIV-XVI əsr Azərbaycan klassik ədəbiyyatının dilində geniş istifadə olunmuş *oş/uş/üş* işarə əvəzliyi lüğəti mənasını itirərək aid olduğu sözün həm əvvəlində, həm də sonunda gəlməklə qüvvətləndirici ədat kimi də işlənmişdir. Məsələn:

1. İşarə əvəzliyi kimi:

Q.Bürhanəddində:

Şəkkər ləbinü sun bizə, ey yar, bu gecə,
Gər yox der isən, *uş* yurəgim yar, bu gecə.

Nəsimidə:

Hər bihünər, insafı yox *uş* mənsəbi tutdu,
Sahib hünərə mənsəbi-idrar bulunmaz.

2. Ədat kimi:

a) söz önündə –

Q.Bürhanəddində:

Uş dəkərəm gözlərinə qarşu qanumı,
Yavrı şahin qana dadanə gərəkdir.

Nəsimidə:

Külli mənanın gövhəri, gövhəri–kanmısan, nəsən?
Uş bu sifəti-hüsn ilən canu-cahanmısan, nəsən?

Ol iki *uş* bu yerdə oldu diri,
Beynə zalik başında qəflətdir.

b) söz sonunda –

Q.Bürhanəddində:

Xumar xəstə gözün, çün xumar xəstəyəm *uş*,
Saçun girehləri ilə şikəstə bəstəyəm *uş*.

Nəsimidə:

Gənci-nihan mənəm, mən *uş*, eyni-əyan mənəm, mən *uş*.
Gövhəri-kan mənəm, mən *uş*, bəhravü kanə sığmazam.

Dövlətin dövranı gəldi, dərdə dərman buldum *uş*,
Şövqə yanmış canə həqdən abi-heyvan buldum *uş*.

Mənşəyinə görə müasir yakut dilindəki "*kini*" işarə əvəzliyinin tərkibində qalan "*ki*" işarə əvəzliyinə bağlanan "*ha*" ədatı istər klassik ədəbiyyatımızın, istərsə də dialektlərimizin dilində həm söz önündə, həm də söz və ya cümlənin sonunda gələrək aid olduğu sözü və ya cümləni qüvvətləndirməyə xidmət edir. Məsələn:

1. İşarə əvəzliyi kimi:

Müasir Şəki-Balakən dialektlərində işlənən bu əvəzliyə (*ha, ho* fonetik variantlarında) təkcə Q.Bürhanəddinin bir qəzəlində rast gəlirik.

Sabahın gülşənə girdum, dedüm: "kim dürdi"–dedi: "*hu*",
Nə qoxudur dedüm, aydır:– Səbadan gəkdi bana bu.

2. Ədat kimi:

a) söz önündə –

Q.Bürhanəddində:

Sən saçını çözüp tarağıl *ha* ki çəməndə
Bizə səhəri yel ola qanmaz axı nolayı.

Gözlərün oynar fəridü *ha* ötər,
Yeg degülmi səd həzaran əz ziyad.

Füzulidə:

Eşqin qılmazdı kimsə yadın
Ha səndən eşitdim indi adın.

Kam olsa nizasız müyəssər,
Ha gənci-dürü xəzaneyi-zər.

Mən böyləneçün zəbunu xarəm,
Ha gəlgil, əgər günahkarəm.

b) söz sonunda –

Vaqifdə:

Uşaq *ha* deyilsən, tez-tez habelə
Könülümün şişəsi sınar, ağlarsan.

M.F.Axundovda:

Məstəli şah: Xanım, bu sirdən gərək olar və ya başqa adam nə indi, nə sonra xəbərdar olmasın *ha*?

Xəstə Qasımda:

Mən *ha* billəm sən əttarsan,
Qənd ilə noğul satarsan...

Yaxud, müasir ədəbi dilimiz üçün tamamilə arxaikləşmiş, lakin klassik ədəbi dilimizdə *da/də* ədatına nisbətən daha fəal olan "*dəxi*" ədatının (15, 328) etimoloji açımı bu məsələdə önəmli rol oynayır. Türkologiyada *dəxi* ədatının qədim *dəy*(mək) felinə *-i* feli bağlama şəkilçisinin artırılması ilə düzəlməsi haqqında uzun müddət mövcud olan mülahizələri yuxarıda tarixi ardıcıllıqla göstərmişdik. İlk dəfə olaraq yakut dilinin tanınmış araşdırıcısı E.K.Pekarski "*dağı*" (*dəxi*) ədatının *da* ədatından törəməsi fikrinə gəlsə də (66, 661), bu, dilçilikdə demək olar ki, etimadsızlıqla qarşılanmışdır. Yalnız Azərbaycan dilçiliyində prof. Ə.Şükürovun timsalında həmin fikrin razılıqla qarşılandığını və daha da inkişaf etdirildiyini görürük. O yazır: "Bizcə, *dəxi* ədatı *də* və *ki<kük* ədatlarının birləşməsi nəticəsində meydana çıxmışdır" (23, 57). Son fikrin nisbətən ağlabatan olmasına baxmayar, türk dillərinin daxili qanunauyğunluğu və əldə edilən faktlar sübut edir ki, bu forma müasir başqırd, qırğız, tatar, xakas, şor dillərində *teqe/tiqi* fonetik variantlarında qorunub saxlanılmış iki qədim işarə əvəzliyinin – *ta/te* və *qe/qi* əvəzliklərinin birləşməsindən əmələ gəlmiş mürəkkəb işarə əvəzliyinin ədatlaşmış variantıdır.

Azərbaycan ədəbi dilinin bizə gəlib çatmış tarixi materiallarında qədim *tiqi/teqe/teqi* işarə əvəzliyinə rast gəlməsək də, istər *dəxi*

ədatının söz sonu ilə yanaşı söz əvvəlində işlənməsi, istərsə də *q<x<h* səs dəyişməsi (17, 20-21; 12, 48) faktları belə bir işarə əvəzliyinin dilimizin daha qədim qatlarında ola bilməsinə şəhadət verir. Ədatlaşmış *dəxi* əvvəlcə söz önündə, sonra isə iltisaqi dillərin daxili quruluşunun tələb etdiyi kimi söz sonunda işlənərək aid olduğu hər hansı bir üzvü və ya cümləni nəzərə çarpdırmağa, qüvvətləndirməyə xidmət etmişdir. Ən qədim abidəmiz olan "Dədə Qorqud kitabı"ndan başlayaraq XX əsrin əvvəllərinə qədər klassik ədəbi əsərlərimizin dilindən gətirdiyimiz nümunələrlə fikrimizi əsaslandıraq:

1. Söz önündə –

"Dədə Qorqud kitabı"nda:

Dəxi kəpənəgindən qurumsı edib yarasına basdı.

"Dastani-Əhməd Hərami"də:

Dəxi aldı qız-oğlanlar, xəlayiq,
Huri sanır görən bunları bayiq.

Q.Bürhanəddində:

Anda kim könülüm top urmışdur,
Dəxi könül ilə qübarə degül.

Nəsimidə:

Gər mən ərəfin sirrinə irişməz alursan,
Cəhl ilə qalırsan, *dəxi* ürfan olamazsan.

Kişvəridə:

Qoy bu viranlıq bilə mən natıvanı, ey rəfiq,
Kim, *daxı* məmur eşq tapmaz mənim viranlığım.

Xətaidə:

Cana cahanda olmaya məhru sənin kimi,
Məhru də *dəxi* gəlməyə niku sənin kimi.

Füzulidə:

Dəxi zövqi-vüsali-dust şövqin istəmin məndən,
Ki, mən zövqi-vüsali möhnəti-hicrani dəgişirdim.

Vaqifdə:

Mən Vaqifəm, şükür yetdim murada,
Dəxi arzum yoxdur fani dünyada.

M.F.Axundovda:

Hacı Nuru şair. *Dəxi* yanıma bir iş gətirmir.

Sabirdə:

Hökm inda sənindir, *dəxi* çək işlərə saman,
Yığ müşkül açanı...

2. Söz sonunda –

"Dədə Qorqud kitabı"nda:

Buğa *dəxi* oğlana sürdi-vardı.

"Dastani-Əhməd Hərami"də:

Macal vermədi, anı *dəxi* çaldı,
Həman dəm gövdəsindən başın aldı.

Q.Bürhanəddində:

Kola öndüm, gözümə sürdüm səni,
Sən *dəxi* aləmdə bir pürvəndəsin.

Kipriklərinlə qaşın olmuşdur ismi-əzəm,
Divdən *dəxi* nə qorxu, çün kim pənahim oldur.

Kişvəridə:

Eylə yanar atəşi-hicrində canım, tən *daxi*
Kim, mənim halimcə ağlar dust, bil düşmən *daxi*.

Xətaidə:

Ancaq yüzün görəndə sənin, can degil məlul,
Zülfin kimi könül *dəxi* bərhəm durur mana.

Füzulidə:

Lövhi-aləmdən yudum eşk ilə Məcnun adını,
Ey Füzuli, mən *dəxi* aləmdə bir ad eylərəm.

Vaqifdə:

Sən qəddinə yaşıl-allar geyici,
Vaqif *dəxi* sənə qəzəl deyici.

M.F.Axundovda:

Hacı Kərim sövdəgər. ...yəqin ki, sənin *dəxi* əqlin qəbul edən işdir.

Sabirdə:

Derlər: a qanmaz, de yıxıl, öl, qurtar!
Hə, balam, doğrusu, ay dadaş, mən *dəxi*
Məsləhət andan o yana bilmərəm...

Beləliklə, gətirilən faktları da nəzərə alaraq, qədim te/ti işarə hissəciyinin inkişaf istiqamətini şaxəli şəkildə aşağıdakı kimi sxemləşdirmək olar:



Da/də ədatının digər türk dilləri ilə müqayisədə səs tərkibi, yazılışı və işləkliyi də xüsusi maraq doğurur. Belə ki, *da/də*_ədatı əgər müasir dilimizdə aid olduğu sözün səs tərkibindən asılı olaraq yalnız iki variantda işlənirsə, digər türk dillərində aşağıdakı variantlarda işlənir:

1.	Altay (oyrot) dilində	– da/de, do/dö, ta/te, to/tö (47, 221-222)
2.	Baraba dilində	– ta/te, da/də (40, 329)
3.	Baraba tatarlarının dilində	– ta/tä (46, 184-186)
4.	Qaqauz dilində	– da/dä, ta/tä (67, 287)
5.	Qazax dilində	– da/de, ta/te (72, 415-418)
6.	Qaraqalpaq dilində	– da/de, ta/te (33, 479)
7.	Qaraim dilində	– da/de, ta/te
8.	Qaraçay-balkar dilində	– da
9.	Qırğız dilində	– da (38, 389)
10.	Yakut dilində	– da (41, 442)
11.	Krım-tatarlarının dilində	– da/de (81, 252)
12.	Kumıq dilində	– da/de (81, 206)
13.	Noqay dilində	– da/de, ta/te, da/di, ta/ti (39, 299-300)
14	Özbək dilində	– da (52, 355)
15.	Sarıq-yuğur dilində	– ta/de/tu (75, 121-122)
16.	Tatar dilində	– da/də, ta/tə (73, 333)
17.	Tofalar dilində	– ta/tə (70, 270)
18.	Tuva dilində	– döö/doo/düü/duu (49, 231)
19.	Türk dilində	– da/de, ta/te (51, 355; 30, 337)
20.	Türkmən dilində	– da/də, da:/də: (79, 450)
21.	Uyğur dilində	– da/də (63, 102)
22.	Xakas dilində	– daa/dee, taa/tee (43, 248)
23.	Çuvaş dilində	– ta/te (58, 124)
24.	Şor dilində	– ta/da, taa/daa (48, 246)

Göründüyü kimi, bu ədata müasir türk dillərinin bəzilərində (qaraçay-balkar, qırğız, yakut, özbək) bir, bəzilərində (Azərbaycan, baraba tatarları, krım tatarları, kumıq, tofalar, uyğur, çuvaş) iki, bəzilərində (sarıq-yuğur) üç, bəzilərində (başqırd, qaqauz, qazax,

qaraqalpaq, qaraim, tatar, tuva, türk, türkmən, tuva, şor) dörd, bəzilərində isə (altay, noqay) səkkiz variantda rast gəlmək mümkündür. Bu ədatın tərkibində aşağıdakı sait səslərin işləndiyini görürük: *a, ə, e, ı, i, o, ö, u, ü*. Əgər tuva və xakas dillərində həmin ədat yalnız uzun sait səslərlə işlənirsə, türkmən və şor dillərində həm qısa, həm də uzun sait səslərlə, digər türk dillərində isə qısa sait səslərlə işlənir. Ən maraqlı fakt həmin ədatın dodaqlanan (*o, ö, u, ü*) və dodaqlanmayan (*a, ə, e, ı, i*) sait səslərlə işlənməsidir ki, onların da eyni arxetip formadan intişar tapdığı söylənilir. Samit tərkibinə görə də bu ədat fərqli variantlarda çıxış edir. Belə ki, Azərbaycan, qaraçay-balkar, qırğız, yakut, krım-tatar, kumıq, özbək, tuva, türkmən, uyğur dillərində yalnız *d* samiti; baraba tatarları, tofalar, çuvaş dilində yalnız *t* samiti ilə işlənirsə, o biri dillərdə hər iki samitlə işlənir. *T/d* səs dəyişməsi qədim türk dillərində geniş yayılmış fonetik hadisələrdəndir. Görünür, *t/d* əvəzlənməsi pratürk dilinə də xas olmuşdur. Lakin bu səslərin müasir türk dillərində olduğu kimi kar və cingiltili səslənmələrinə görə yox, qüvvətli və zəif səslənmələrinə görə fərqləndiyi güman edilir.

Bütün türk dillərində *da/də* ədatı aid olduğu sözdən sonra gəlir ki, bu zaman həmin dillərin orfoqrafiyasına uyğun olaraq ayrı (məsələn: Azərbaycan, qaqauz, qazax, türk və s.), bəzilərində defislə (məsələn: qaraqalpaq, özbək, türkmən), bəzilərində isə həm ayrı, həm də defislə (məsələn: qaraim, şor) yazılır.

Bəzi qrammatika kitablarında (məsələn: 20, 39, 44) *da/də* ədatı özündən əvvəlki sözlə ayrı və defislə yazılmasından asılı olaraq müxtəlif ədatlar kimi öyrənilmişdir ki, bunun da heç bir elmi əsası yoxdur. Çünki hər iki halda o, eyni funksiyanı yerinə yetirir. Fikrimizcə, həmin ədat bütün türk dillərində vahid orfoqrafik prinsipə tabe edilərək özündən əvvəlki sözdən ayrı yazılmalıdır.

Bütün bu deyilənləri yekunlaşdıraraq, *da/də* ədatının türk dillərində səs tərkibinə və yazılışına görə işlənmə cədvəlini veririk.

Sıra nömrəsi	Türk dillərinin adı	Samit səsə görə tərkibi	sait səslərə görə səs tərkibi								səslərə görə variantlılıq	yazı lışı	
			arxa sıra	ön sıra	açıq	qapalı	dodaqlanan	dodaqlanma	uzun	qısa		ayrı	defislə
1	Azərbaycan	d samitli dillər	+	+	+	-	-	+	-	+	2	+	-
2	Qaraçay-balkar		+	-	+	-	-	+	-	+	1	+	-
3	Qırğız		+	-	+	-	-	+	-	+	1	+	-
4	Yakut		+	-	+	-	-	+	-	+	1	+	-
5	Krım-tatar		+	+	+	-	-	+	-	+	2	+	-
6	Kumıq		+	+	+	-	-	+	-	+	2	+	-
7	Özbək		+	-	+	-	-	+	-	+	1	+	+
8	Tuva		+	+	+	+	+	-	+	-	4	+	-
9	Türkmən		+	+	+	-	-	+	+	+	4	-	+
10	Uyğur (yeni uyğur)		+	+	+	-	-	+	-	+	2	+	-
11	Baraban tatarları	t sam. dillər	+	+	+	-	-	+	-	+	2	+	-
12	Tofalar		+	+	+	-	-	+	-	+	2	+	-
13	Çuvaş		+	+	+	-	-	+	-	+	2	+	-
14	Altay-oyrot	t/d samitli dillər	+	+	+	-	+	+	-	+	8	+	-
15	Başqırd		+	+	+	-	-	+	-	+	4	+	-
16	Qaqauz		+	+	+	-	-	+	-	+	4	+	-
17	Qazax		+	+	+	-	-	+	-	+	4	+	-
18	Qaraqalpaq		+	+	+	-	-	+	-	+	4	-	+
19	Qaraim		+	+	+	-	-	+	-	+	4	+	+
20	Noqay		+	+	+	+	-	+	-	+	8	+	-
21	Sarıq-uyğur		+	+	+	+	+	+	-	+	3	+	-
22	Tatar		+	+	+	-	-	+	-	+	4	+	-
23	Türk		+	+	+	-	-	+	-	+	4	+	-
24	Xakas		+	+	+	-	-	+	+	-	4	+	-
25	Şor		+	-	+	-	-	+	+	+	4	+	+

Da/də ədatının təkcə yazılışı deyil, işləkliyi də maraq doğurur. Müasir türk dillərində, o cümlədən Azərbaycan türkcəsində bu ədat ən işlək ədatlardan sayılır. Lakin dilimizin tarixi inkişafı göstərir ki, bu heç də həmişə belə olmamışdır. Bu mənada prof. H.Mirzəzadə çox doğru olaraq göstərir: "Azərbaycan dilinin qədim dövrlərində üstünlük *dəxi* ədatına verildiyindən *da/də* nisbətən az işlənmişdir" (15, 328). "Dədə Qorqud Kiabı"ndan üzü bəri yazılmış klassik əsərlərimizdən topladığımız faktlar da görkəmli alimin firkini təsdiqləyir.

Faktlar göstərir ki, canlı xalq dilinin məhsulu olan "Oğuznamə" (XVI) əsərini çıxmaq şərti ilə XVIII əsrə qədər yazılmış bütün əsərlərdə *dəxi* ədatı *da/də* ilə müqayisədə işləkliyinə görə daha fəaldır. XVIII əsrdən başlayaraq *da/də*-nin işləkliyi sürətlə artmış və bu müasir dilimizdə xüsusilə nəzərə çarpmaqdadır. Belə bir faktı da müqayisə etmək istərdik ki, əgər "Oğuznamə"nin dilində 1847 məsəl və atalar sözündə (fars dilində işlənmiş 9 məsəl hesaba alınmır) 62 dəfə *da/də* işlənmişsə, "Atalar sözü" kitabında (XX əsr) 5148 atalar sözündə 389 dəfə işlənmişdir. Bu da 3,3%-in 7.5%-ə nisbətindədir. Deməli, 5-6 əsr ərzində *da/də* ədatının işləklik dərəcəsi iki dəfədən artıq yüksəlmişdir.

Digər türk dillərində, məsələn, qazax, qaraqalpaq, özbək dillərində də bu ədatın işləklik faizinin çox yüksək olduğu göstərilir. Növbəti cədvəldə bu işləkliyin müqayisəli təhlilini görmək mümkündür:

№	İstifadə edilmiş əsərlərin adı	Da/də-nin işlənmə miqdarı (rəqəmlə)	Dəxi-nin işlənmə miqdarı (rəqəmlə)
1.	Kitabi-Dədə Qorqud. Bakı: 1988	30	140
2.	Dastani-Əhməd Hərami. Bakı: 1978	7	33
3.	Q.Bürhanəddin. Divan. Bakı: 1988	4	460
4.	Nəsimi. Bakı: 1973	10	42
5.	Həbibi. Bakı: 1980	2	9
6.	C.Həqiqi. Bakı: 1986	–	9
7.	Ş.İ.Xətai. Əsərləri. I c. Bakı: 1975 II c. Bakı: 1976	 12 25	 45 63
8.	M.Füzuli. Əsərləri. I c. Bakı: 1958 II c. Bakı: 1958	 4 2	 22 48
9.	Kişvəri. Əsərləri. Bakı: 1984	2	51
10.	Oğuznamə. Bakı: 1987	62	9
11.	Məsihi. Vərqa və Gülşah. Bakı: 1977	2	95
12.	M.P.Vaqif. Əsərləri. Bakı: 1968	51	35
13.	M.F.Axundov. Komediyalar, povest və hekayələr. Bakı: 1982 a) dram əsərlərində b) “Aldanmış kəvakib”də	 222 14	 72 25
14.	M.Ə.Sabir. Hophopnamə. Bakı: 1960	502	78
15.	Bayatılar. Bakı: 1977	112	7
16.	Atalar sözü. Bakı: 1981	389	–

Bütün deyilənlər bunu söyləməyə əsas verir ki, *da/də*-yə hansı prinsip (leksik-semantik, morfoloji, sintaktik) əsasında yanaşılmasından asılı olmayaraq, o, bir nitq hissəsi kimi ədatdır və ədat kimi də öyrənilməlidir.

7. Müqayisə bildirən tərzi-hərəkət budaq cümləsinin bir tipi haqqında

Azərbaycan dilçiliyində müqayisə yolu ilə tərzi-hərəkət bildirən budaq cümlələr, adətən, iki yerə bölünür: baş cümlədən qabaq gələnlər, baş cümlədən sonra gələnlər (1, 300; 7, 62; 8, 232). Lakin tabeli mürəkkəb cümlə probleminin dərin tədqiqatçısı prof. Ə.Abdullayev belə bir faktı da qeyd etməyi lazım bilmişdir ki, müqayisə bildirən tərzi-hərəkət budaq cümlələrində bəzən budaq cümlə baş cümlənin arasında da işlənir (1, 303). Məsələn:

1. Xanpəri. ... göndər qonşuluqdan, Ağcabədi kəndindən, Qızılbaşdan gələn Məstəli şahı gətirib, neçə ki sənin lazımındır, bu işi elə düzəltsin (2, 50-51).

2. Tükəz. ... gərək mənim ərimi, neçə ki aparıbsınız, elə də mənə tapşırasınız (2, 158).

Bu tipli cümlələrin ədəbi dilimizdə seyrək işlənilməsi, görünür, dilçi alimi, təyin budaq cümləsində olduğu kimi, üçüncü bir tip kimi fərləndirməkdən çəkindirmişdir. Lakin öz üslubuna görə ədəbi dildən seçilən nağıl və dastanlarımızın dilində müqayisə bildirən tərzi-hərəkət budaq cümləsinin bu tipinə, yəni baş cümlənin ortasında gələn budaq cümlə tipinə geniş rast gəlindiyini nəzərə alaraq, ondan ətraflı bəhs edilməsinə dəyər. Məsələn:

Əhvalatı, neçə ki Xoca Əziz danışmışdı, ona dedilər (6, 212).

Koroğlu Keçəl Həmzənin işini, neçə ki olmuşdu, onlara danışdı (6, 129).

Pəri xanım əhvalatı, neçə ki biz bilirik, əvvəldən axıra qədər danışdı (3, 263).

Müşahidələr göstərir ki, bu tipli cümlələr müqayisə bildirən tərzi-hərəkət budaq cümləsinin baş cümlədən qabaq gələn budaq cümlə tipinin məntiqi vurğu qəbul edərək baş cümlə daxilində işlənilməsi nəticəsində yaranmışdır. Bu tipi digərlərindən fərqlən-

dirən əsas əlamət, budaq cümlənin tərkibində “necə”, “necə ki” bağlayıcı sözlərinin, baş cümlədə isə qarşılığı kimi aşağıdakı sözlərin iştirak etməsidir:

1. *Elə, elə də, eləcə, eləcə də* sözləri:

Simurq, necə vardı, elə də danışdı (4, 58).

Əhvalatı, necə ki biz bilirik, eləcə də Koroğluya danışdı (6, 255).

Qoy elə quyuda, necə ki qalıb, eləcə də qalsın (6, 155).

2. *O minval ilə* söz birləşməsi:

Oradan, buradan bir az danışandan sonra tacir Əhməd, necə ki imam ona demişdi, o minval ilə başladı tacir Yusifə danışmağa (4, 295).

Baş cümlədəki qarşılıq söz bəzən buraxıla bilər:

Əhvalatı, necə ki Aşıq Cunun gəlib xəbər gətirmişdi, Koroğluya danışdılar (6, 221).

Siz özünüz, necə ki kefinizdi, yeyin, için, məni bağışlayın (4, 156).

Bəzən budaq cümlədə bağlayıcı sözdən əlavə -sa[2] ədatı da işlənir:

Ondan Koroğluya başlayıb əhvalatı, necə olmuşdusa, əvvəldən axıra kimi danışdı (6, 110).

Azərbaycan dilçiliyində bəzi budaq cümlələrin transformasiyaya uğrayaraq ara söz, ara söz birləşməsinə keçməsi haqqında geniş danışılmışdırsa da, tərzi-hərəkət budaq cümlələrinin bu prosesdə oynadığı rol aydınlaşdırılmamışdır (1, 401-414; 9, 36-52). Bizcə, bəzi budaq cümlələr kimi, müqayisə bildirən tərzi-hərəkət budaq cümləsinin bu tipi də transformasiyaya uğrayaraq ara söz birləşməsi yaratmağa meyillidir və bunun çox qədim tarixi olduğunu söyləməyə əsasımız var. Belə ki, “Dədə Qorqud kitabı”nda cəmi iki dəfə işlənən “ necə söylərsən” ara söz birləşməsi bu fikrin təsdiqinə imkan verən faktlardandır:

1. Ozan aydır: Qarılar dörd dürlüdü: birisi solduran soydur, birisi tolduran toydur, birisi evin tayağıdır, birisi, necə söylərsən, bayağıdır (5, 33).

2. Gəldin ol kim, necə söylərsən, bayağıdır (5, 33).

Görünür, bu tipli cümlələrdə budaq cümlə feli xəbərinin şəxsli formadan ümumi şəxsli formaya keçməsi ara söz birləşmələrinin yaranması üçün əsas amil olmuşdur.

II hissə. Metodik araşdırmalar

1. Azərbaycan dili təliminin bəzi problemləri

Son dövrlərdə ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi vəziyyətinin yaxşılaşdırılması ilə bağlı müxtəlif səviyyələrdə geniş müzakirələr gedir. Fənnin təlimi məzmunu və təşkili məsələlərini müasir pedaqoji fikrin süzgəcindən keçirərək mövcud nöqsanları linqvodidaktik baxımdan təhlilə cəlb edən mütəxəssis alimlərimiz problemin həlli yolunu keçən əsrin doxsanıncı illərində hazırlanmış proqram və dərsliklərin yeniləşməsində görürlər. Təbii ki, qlobal məsələlərə aydınlıq gətirmədən gözlənilən yeniləşmənin effektli nəticə verəcəyini gözləmək çətindir. Burada onlardan bəziləri ətrafında fikir mübadiləsi etmək istərdik.

Həllini gözləyən məsələlərdən biri Azərbaycan dilinin tədris fənləri sırasında yeri, məqsədi və qoyuluşu ilə əlaqədardır. Bu, ilk baxışda, öz həllini çoxdan tapmış mübahisəsiz problem təsiri bağışlayır, lakin məsələnin təhlili göstərir ki, qarşıya çıxan real nöqsanların böyük əksəriyyəti həmin problemin nə dərəcədə düzgün qoyuluşundan asılıdır. Məlumdur ki, təlim Azərbaycan dilində olan məktəblərdə bu fənn ana dili kimi tədris olunur. Təkcə bu fakta görə onun tədrisini digər fənlərin tədrisi ilə eyniləşdirmək olmaz. Ana dili milli ruhun, milli təfəkkürün ifadəsidir. Şagird bu dildə danışmağı ailədə – ana qoynunda öyrənsə də, xalqımızın minillikləri aşan tarixi yaddaşını, psixoloji xüsusiyyətlərini, əxlaqi-mənəvi dəyərlərini, dini-fəlsəfi görüşlərini və s. özündə yaşadan ayrı-ayrı söz, ifadə və deyimlərin məna açımına məhz dil dərslərində yiyələnir. O, şəxsi təcrübəyə əsaslanmış fikir və müşahidələrini, başqa fənlərdə əxz etdiyi bilikləri düzgün və dəqiq ifadə etməyi, daha sadə və məntiqi formada dinləyiciyə çatdırmağı Azərbaycan dili dərslərində qazandığı bacarıqlara istinad edərək yerinə yetirir.

Həmin müzakirələrin birində tanınmış dilçi alim prof. Y.Seyidov bu məsələyə xüsusi toxunaraq qeyd edir: “V sinifdən başlayaraq tədris sabitləşdirilir, ayrı-ayrı elm sahələri üzrə fənlərin tədrisi ardıcıl həyata keçirilir. Burada fənlərin hamısına bərabər münasibət olmalıdır” (1, 13-14). Orta məktəbdə Azərbaycan dilinin tədrisi vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə söylənilən bu fikirlərini inkişaf etdirən alim daha sonra davam etdirərək yazır ki, Azərbaycan dili fənni də digər fənlərdən biridir. V sinifdən tədrisi başlanan bu fənnin vəzifəsi ana dilini praktik bilən, onun qayda və qanunları ilə ibtidai siniflərdə tanış olan şagirdlərə bu sahədə daha geniş biliklər öyrətməkdir. Azərbaycan dili fonetika, orfoepiya, leksikologiya, söz yaradıcılığı, qrammatika, orfoqrafiya, frazeologiya və üslubiyyət bölmələrini əhatə edən elmi fəndir.

Bizcə, Azərbaycan dilinin tədrisini fizikanın, kimyanın tədrisi ilə eyniləşdirmək olmaz. Bu sahədəki mövcud problemlər, təlim yükünün ağırlığı, nəzəri biliklərin praktik bacarıqları üstələməsi kimi mühüm nöqsanlar bu yanaşma mövqeyindən irəli gəlir. Dil dərslərini digər fənlərin tədrisinin qoyuluşu ilə eyniləşdirmək onun keyfiyyətcə yüksəlməsinə deyil, əksinə çətinləşməsinə şərait yaradan başlıca amildir. Uzun illərin məktəb təcrübəsi və real vəziyyət bunu bir daha sübut edir.

Adətən, dilçi alimlər Azərbaycan dilini elmi fənn hesab edir və buna görə də şagirdlərə dilin qayda və qanunlarını öyrədilməsini üstün tuturlar. Şühəsiz, dilin linqvistik əsaslarının şagirdlərə mənimsədilməsi mühüm təlim əhəmiyyəti kəsb edir, lakin bu, başlıca məqsəd və vəzifə yox, vasitə rolunu oynamalıdır. Başqa sözlə, linqvistik anlayışların, qayda və qanunların şagirdlərə öyrədilməsi onların dil duyumunun, nitq qabiliyyətlərinin inkişaf etdirilməsinə, lüğət ehtiyatlarının zənginləşdirilməsinə yönəldilməlidir. Verilən bilik konkret praktik bacarıqların formalaşdırılmasına xidmət etməlidir. Nəzəri material əzbər öyrənilmək və ya yadda saxlamaq

üçün deyil, şifahi və yazılı nitq vəzifələrini normalaşdırmaq, cilalamaq, rəngarəng formalara salmaq məqsədilə keçirilməlidir. Bir sözlə, Azərbaycan dili təliminin məqsədi şagirdlərə sərbəst nitq fəaliyyəti aşılamaq və onlarda lazımi linqvistik anlayışlar formalaşdırmaqdır. Dil təlimində nitq fəaliyyəti həmişə ön plana çəkilməli, verilən biliklər ona istiqamətlənməlidir.

Fəaliyyətdə olan proqramda göstərilir ki, Azərbaycan dilinin təlimi məqsədi "şagirdlərə dilimizin fonetik, morfoloji, sintaktik quruluşuna, leksikası, frazeologiyası və digər sahələrinə dair müvafiq nəzəri biliklər verməkdən və bu biliklər zəminində onlarda hərtərəfli nitq hazırlığı, yəni savadlı yazı, şüurlu və sürətli oxu vərdişləri, başqasının nitqini, xüsusən təlim informasiyalarını başa düşmək, ünsiyyətin müxtəlif şəraitləinrdə (rəsmi yığıncaqlarda, müsahibələrdə, müxtəlif məclislərdə, qatarda, mağazada və s.) öz fikrini şifahi və tələb olunan hallarda yazılı olaraq sərbəst, dəqiq və düzgün ifadə etmək bacarıqları yaratmaqdan ibarətdir" (2, 4).

Deməli, əvvəl bilik, sonra nitq hazırlığı nəzərdə tutulur. Prof. Y.Seyidov nəzəri materiallarla yüklənmiş müasir dərsliklərə etirazını elə mövcud proqramda qoyulduğu modeldə bildirir: "Şagirdlərə qayda, qanunlar öyrədilməlidir. Sadəcə, onun həcmi və elmi məzmunu üzərində düşünmək gərəkdir". Bu, problemin həlli yolu ola bilməz. Elə uzun illər belə bir çərçivədə düşünüldüyü üçün orta məktəbi qurtaran şagirdlərimizin böyük çoxluğu fikrini sərbəst ifadə etmək mədəniyyətinə yiyələnə bilmirlər. Yüzlərlə tərifi əzbər söyləyən şagird sadə bir mövzu ətrafında polemika qurmağı, fikir mübadiləsi etməyi, sərbəst danışmağı, müstəqil inşa yazmağı bacarmır. Şagirdlərə nəzəri biliklər verilməlidir, lakin əvvəlcə həyat üçün faydalı olan nitq bacarıqlarının ümumi "bloku" müəyyənləşdirilməli və onu formalaşdırmağa xidmət edən biliklər sistemi seçilməlidir. Yalnız belə bir istiqamətdə konkret praktik məqsədə xidmət edəcək biliklərinin öyrənilməsi üzərində düşünməyə

dəyər. Əks təqdirdə, biliyin hansı həcmdə verilməsindən asılı olmayaraq, qoyulan məqsəd özünü doğrultmayacaq.

Qaldırılan ilk problem dairəsində Azərbaycan dili təliminin qoyuluşu məsələsi üzərinə keçək. Məlumdur ki, Azərbaycan dili təlimin hər üç mərhələsində – ibtidai, V-IX və yuxarı siniflərdə tədris olunur, lakin biri digərini tamamlayan bu pillələr arasındakı qarşılıqlı əlaqənin real vəziyyəti çox zaman diqqətdən kənarda qalır. Linqvistik ziddiyyətlər, təlimin yersiz yüklənməsi, təkrarçılıq və s. nöqsanlar məhz bu səbəbdən irəli gəlir. Bu mənada prof. Y.Kərimov olduqca haqlıdır ki, "Azərbaycan dili tədris fənni kimi bütöv bir sistemdir. Həm də bir-birindən təcrid olunmuş hissələr şəklində deyil, I sinifdən XI sinfədək ciddi düşünülmüş, dilin nəzəriyyəsinə, didaktik prinsiplərə, mükəmməl metod və priyomlara söykənən optimal sistemdir" (3, 12). Bu sistemi işlək mexanizmə çevirmək üçün müxtəlif prinsiplərin qarşılıqlı əlaqədə götürülməsi, o cümlədən varislik prinsipinin gözlənilməsi mühüm əhəmiyyətə malikdir. Bir neçə konkret faktla fikrimizi açıqlayaq.

Təcrübə göstərir ki, aşağı siniflərdə sözdüzəldici və sözdəyişdirici şəkilçi məfhumlarını dərindən mənimsəyən və bu terminlərə alışan şagirdlər V sinifdə birdən-birə eyni anlayışı ifadə edən "leksik və qrammatik şəkilçilər"lə tanış olmaq məcburiyyətində qalırlar. Maraqlı bir paradoks yaranır. Həmin terminləri sistematik kursda alınma mənşəli terminlərlə əvəz edən dilçi-metodistlər belə bir arqumentə əsaslanırlar ki, şagirdlər "sözdüzəldici" və "sözdəyişdirici" terminləri qarışdırır, fərqləndirə bilmirlər. İbtidai siniflərdə bu terminin dəyişdirilmədən saxlanılmasında, uzun bir müddət keçməsinə baxmayaraq, onun mənimsənilməsində hələlik elə bir çətinlik qeydə alınmayıb. Görünür, şagirdlər sinifdən-sinfə keçdikcə linqvistik anlayışları daha zəif mənimsəyirlər, yoxsa belə bir "məntiqi" hökm verilə bilməzdi. Bu, sadəcə, təlimin mərhələləri arasındakı əlaqəyə məhəl qoymamaq, yanlış da olsa, fərqli mövqedən

çıxış etmək meylindən irəli gəlmirmi? Burada nə metodik, nə də psixoloji problem var. Yaxud, ismin hal şəkilçiləri ilə aşağı sinifdən tanış olan şagirdlərə mövcud proqramdakı həcmdə yenidən öyrətmək nə dərəcədə effektlidir? Bu səpkili problemlər aradan qaldırılmayınca təlimin optimal variantda qoyuluşundan söz açmaq tezdir.

Sistematik kursda Azərbaycan dilinin qoyuluşu açılan müzakirələrdə xüsusilə tənqid olunur. Belə ki, fonetika, leksika, söz yaradıcılığı və morfologiya ("fel" bəhsinə qədər) kimi böyük bir kursun V sinifdə keçilməsi təlimi ağırlaşdıran amillərdən biri kimi irəli sürülür. Yaxud, VIII sinfin yalnız mürəkkəb cümlələrə həsr edilməsi dilə şagird marağının azalma səbəblərindən biri kimi göstərilir. X-XI siniflərin isə bütövlükdə "Üslubiyyət" məsələrini əhatə etməsi dözülməz bir hal kimi qeyd edilir. Çıxış yolu nədədir? Bizcə, qabaqcıl tarixi və müasir təcrübəni əlaqələndirməklə bəzi çətinlikləri aradan qaldırmaq, daha optimal variantı irəli sürmək olar. Belə ki, V siniflərdə təlimin məzmununu, dilin sintaktik əsasda tədrisi prinsipinə istinad edərək, "Sintaksisdən başlanğıc kurs"la başlamaq, fonetika, leksika və söz yaradıcılığı bölmələri ilə davam etdirmək olar (bax: 4). "Morfologiya" bölməsini yığcamlaşdıraraq bir pillə yuxarı, VI-VII siniflər həcmində nəzərdə tutmaq mümkündür. Prof. N.Cəfərovun düzgün müşahidə etdiyi kimi, "köməkçi nitq hissələrinin, onların hər birinin mənaca növlərinin ayrı-ayrılıqda öyrədilməsi praktik baxımdan faydasızdır" (1, 11). Odur ki, digər nitq hissələrinin də mübahisə doğuran və çətin mənimsənilən məqamlarını sadəcə ixtisar etmək mümkündür. Tarixən Azərbaycan dili proqramlarında xətti prinsipə üstünlük verilmiş və buna görə də kursun müəyyən hissəsi bir sinifdə, digər hissəsi sonrakı sinifdə öyrədilmişdir. Bu artıq bir ənənə halını almışdır. Ancaq bəzi ölkələrin təcrübəsinə əsasən həcmcə ağır və geniş olan bu kursu pilləlilik prinsipi üzrə də qruplaşdırıb keçmək

effektlidir. Belə ki, nisbətən sadə anlayışlar VI sinifdə, daha çətin anlayışlar VII sinifdə keçilə bilər.

Belə olduqda morfologiyanı bir bütün kurs kimi müəyyənləşməsində qarşıya çıxan bəzi problemlər asanlıqla aradan qaldırıla bilər.

VII sinfi bütövlükdə, IX sinfin isə birinci yarımilini "Sintaksis" bəhsinə ayırmaq olar. Bu zaman təlimin məzmunu uzun uzadı şərhlərdən, xırda detallardan təmizlənməlidir. Məsələn, II və III növ təyini söz birləşmələrinin oxşar və fərqli cəhətlərini xarakterizə edən şərhlər artıqdır. Bu cəhətləri didaktik materiallar üzərində işləyən şagirdlər özləri müəyyənləşdirməlidirlər. Onda dərsə maraq artar. Müstəqillik, axtarıcılıq həvəsi şagirdi fənnə daha qüvvətli bağlayar.

IX sinfin ikinci yarısı üslubiyyata ayrılmalıdır. X-XI siniflərdə keçilən kurs daha yığcam formada bu sinfə gətirilməlidir. Ümumiyyətlə, üslubi bacarıqların formalaşdırılması həm ibtidai, həm də sistematik kursda aparıcı mövqedə durmalıdır. Bundan əlavə, sintaksisin tədrisi əslində praktik üslubiyyatla müvazi aşılanmalıdır. Funksional üslubiyyatla bağlı biliklər isə "Üslubiyyat" bölməsində daha yığcam və sadələşdirilmiş variantda verilməlidir. Yuxarıda qeyd etdiyimiz kimi, praktik bacarıqlara istiqamətlənmiş hər bir bölmə çoxsaylı vəzifələr daşımalıdır. V sinifdə daha çox orfoepik, VII siniflərdə isə orfoqrafik bacarıqların formalaşmasına fikir verilməli, eyni zamanda, ayrı-ayrı söz və ifadələrin tarixi açımı sistemli xarakter daşımalıdır. VIII-IX siniflərdə dilin üslubi imkanları üzərində praktik işlə bağlı çalışmalara daha çox yer ayrılmalıdır. Buna görə də dərsliklərə metodik rəhbərliklə əlaqədar işləmələr hazırlanmalıdır. Burada konkret dərsin aparılma mexanizmi açıqlanaraq müəllim üçün faydalı formaya salınmalıdır. V-IX siniflərdə təlimin məzmunca yeniləşməsi X-XI siniflər üçün dərinləşdirilmiş proqramın hazırlanmasına zəmin yaradır. Bu, xüsusi mövzudur, lakin bəzi qeydləri nəzərə çatdırmaq istərdik. Təlimin

yuxarı pilləsində daha bilikli şagirdlərin oxumasını nəzərə alaraq, burada V-IX sinifdə ötəri toxunulmuş nəzəri bilikləri dərinləşdirərək sistemə salmaq, şagirdlərin linqvistik təfəkkürünü inkişaf etdirən elementləri əlavə etmək mümkündür. Hər halda bu bir həqiqətdir ki, X-XI siniflərdə təlimin məzmunu dəyişdirilməlidir.

(Məqalə çapa hazırlandığı müddətdə artıq Azərbaycan dilindən yeni proqram hazırlanaraq məktəblilərin öhdəsinə verilmişdir. Toxunduğumuz bəzi problemlər burada öz həlllini tapsa da, mübahisəli məqamlar hələ də qalmaqdadır. Lakin bu xüsusi mövzudur və ondan ayrıca bəhs edilməlidir).

Toxunmaq istədiyimiz digər problem, dil dərslərində inteqrativ təlim metodlarından istifadə ilə bağlıdır. Əslində, təlimin məzmununu şagirdin müstəqil dərk etməsi formasında həyata keçirən bu təlim metodları dərsliklərin struktur baxımından yeniləşməsini tələb edir. Belə ki, dərsliklər daha çox düşündürücü didaktik materiallar əsasında qurulmalıdır ki, inteqrativ təlim metodlarından istifadəyə imkan yaransın. Şagirdin və müəllimin fəaliyyəti məhz dərslikdən düzgün istifadə üzərində qurulduqda səmərəli nəticə verir. Odur ki, yeniləşmiş dərsliklərdə bu amilin nəzərə alınması təlimin keyfiyyətini təmin edə bilər.

2. Azərbaycan dilindən sistematik kursun sintaktik əsasda tədrisinə dair

Orta ümumtəhsil məktəblərinin V-IX sinifləri üçün mövcud Azərbaycan dili proqramının təhlili göstərir ki, bu fənnin məzmunu və strukturu əvvəlki illərlə müqayisədə köklü dəyişikliyə uğramışdır. Belə ki, Azərbaycan dilindən sistematik kursun tədrisi artıq V-IX siniflərdə deyil, V-VIII siniflərdə, dil və dilçilik, Azərbaycan dilinin quruluşu və tarixi, nitq mədəniyyəti və üslubiyyat məsələlərini özündə ehtiva edən ayrıca kursun tədrisi isə IX-XI siniflərdə nəzərdə tutulmuşdur.

Göründüyü kimi, Azərbaycan dili təliminin struktur baxımından yeniləşməsi onun məzmununa da öz təsirini göstərmiş və vaxtilə sistematik kursun tərkibində xüsusi əhəmiyyət kəsb edib ötəri mahiyyət daşıyan məlumatlar zamanın tələbinə uyğunlaşdırılaraq məntiqi cəhətdən əlaqələndirilmiş biliklər formasında verilmişdir. Məlumdur ki, təlimin məzmununu müəyyənləşdirən hər bir metodik ideyanın dəyəri təcrübə vasitəsilə üzə çıxır. Bu baxımdan yeni proqramın tətbiqindən (1994-cü ildən) keçən zaman müddəti onun məziyyətləri haqqında müəyyən fikir söyləməyə, ümumiləşdirmələr aparmağa zəmin yaradır. Problemin geniş və əhatəliliyini nəzərə alaraq, burada yalnız Azərbaycan dilindən sistematik kursun məzmunu və qoyuluşu ilə bağlı bəzi mülahizələrimizi bölüşdürmək istəyirik.

İlk növbədə diqqəti belə bir fakta cəlb edir ki, yeni proqramda Azərbaycan dilindən sistematik kursun tədrisinə həftədə 16 saat, yəni əvvəlki illərlə müqayisədə 2 saat az vaxt ayrılmışdır. Digər tərəfdən, kursun məzmunu xətti prinsip əsasında müəyyənləşdirildiyindən V sinfin girişində verilmiş “İbtidai siniflərdə keçilmişlərin təkrarı” (20 saat) və “Sintaksis və durğu işarələri” (39 saat) bölmələri təlim materialları sırasından çıxarılaraq fonetika, leksika, söz yaradıcılığı

və morfologiyaya aid materialların V-VI siniflərdə, sintaksislə bağlı materialların VII-VIII siniflərdə öyrədilməsi məqsədəuyğun hesab edilmişdir. Təlimin məzmununu təkmilləşdirməyə yönəldilmiş bu dəyişiklik, proqramın izahat vərəqində deyildiyi kimi, "dilçilik elminin son uğurları baxımından" aparılmışdır. Təbii olaraq, belə bir sual meydana çıxır: bəs bu yeniləşmə zamanı metodika elminin son uğurları nə dərəcədə nəzərə alınmışdır?

Ümumiyyətlə, orta ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin linqvistik əsaslarının dilçilik elminin inkişafı ilə üzvi sürətdə əlaqələndirilməsi metodikada elmilik prinsipinin mahiyyətindən irəli gələn xüsusi bir tələb kimi qoyulub və bu aspektdən yanaşdıqda son proqram təqdir edilməyə layiqdir. Lakin dilimizin tədrisi sahəsində istər nəzəri, istər praktik cəhətdən özünü çoxdan doğrultmuş dilin sintaktik əsasda tədrisi prinsipinin nəzərdən qaçırılması, şübhəsiz, geriyə doğru bir addım kimi qiymətləndirilməlidir ki, mövcud proqramın yaratdığı başlıca çətinliklər də məhz buradan irəli gəlir. Həmin çətinliklər üzərində ətraflı dayanmazdan öncə dilin sintaktik əsasda tədrisi prinsipinin mahiyyətini açaq.

Orta ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin əsas məqsədi, son proqramda da qeyd edildiyi kimi, "şagirdlərə dilimizin fonetik, morfoloji, sintaktik quruluşu, leksikası, frazeologiyası və digər sahələrinə dair müvafiq nəzəri biliklər verməkdən və bu biliklər zəminində onlarda hərtərəfli nitq hazırlığı, yəni savadlı yazı, şüurlu və sürətli oxu vərdişləri, başqasının nitqini, xüsusən təlim informasiyalarını düzgün başa düşmək, ünsiyyətin müxtəlif şəraitlərində (rəsmi yığıncaqlarda, müsahibələrdə, müxtəlif məclislərdə, qatarda, mağazada və s.) öz fikrini şifahi və tələb olunan hallarda yazılı olaraq sərbəst, dəqiq və düzgün ifadə etmək bacarıqları yaratmaqdan ibarətdir" (2, 4). Daha sadə, yığcam şəkildə ifadə etsək, Azərbaycan dili təliminin başlıca məqsədi şagirdlərdə,

linqvistik materiallardan istifadə etməklə, düzgün, aydın, rabitəli nitq vərdişləri formalaşdırmaqdır. Nitq isə qrammatik cəhətdən bir bütöv təşkil edən mətn formasında əks olunur ki, onun da əsas vahidi cümlədir. Aydındır ki, cümləyə aid anlayışlar sisteminə bələd olmadan tələb edilən nitq vərdişlərinə yiyələnmək mümkün deyil. Cümlə isə məhz sintaksisin tədqiqat obyektidir ki, bu mövqedən yanaşdıqda dilin sintaktik əsasda tədrisi prinsipinin əhəmiyyəti meydana çıxmış olur.

Araşdırmalar göstərir ki, digər dillərin, xüsusən rus dilinin tədrisində səmərəli şəkildə tətbiq edilən bu prinsip 1970-ci ildən sonra Azərbaycan dili təlimi məzmununun müəyyənləşdirilməsində nəzərə alınan başlıca prinsiplərdən biri kimi ön plana çəkilmiş və daima diqqət mərkəzində saxlanılmışdır. Həmin prinsipə görə sistematik kursun tədrisinə sintaksisə aid ən lazımi sadə bilik və bacarıqlar əldə edildikdən sonra başlamaq daha optimal variantdır. Odur ki, dilin digər bölmələrinin, xüsusən morfologiyanın sintaktik əsasda tədrisini, rabitəli nitq üzrə aparılan işlərin səmərəliliyini və şagirdlərdə durğu işarələri qaydalarına aid müvafiq vərdişlərin aşılanmasını təmin etmək məqsədi ilə proqrama sistematik kursun başlanğıcında "Sintaksis və durğu işarələri" bölməsi daxil edilmişdi. Hazırki proqramın tətbiq edildiyi 1994-cü ilə qədər təkmilləşə-təkmilləşə dolğunlaşan bu ideya təlimin məzmunun müəyyənləş-məsində: a) yuxarıda qeyd edildiyi kimi, sintaksisin ibtidai kursu özündə ümumiləşdirən "Sintaksis və durğu işarələri" bölməsi; b) morfologiyanın tədrisi prosesində nitq hissələrinin cümlədə rolu formasında daha qabarıq əks olunmuşdur. Əgər bütün nitq hissələrinin cümlədəki sintaktik vəzifəsinin öyrənilməsi morfologiyanın tədrisi prosesində mühüm bir tələb kimi qoyulurdusa, sistematik kursun başlanğıcında aşağıdakı məlumatların verilməsi vacib sayılırdı:

1) Söz birləşməsi; söz birləşməsində əsas və asılı söz;

2) Məqsəd və intonasiyaya görə cümlənin növləri: nəqli, sual, əmr və nida cümlələri. Cümlənin sonunda işlənən durğu işarələri;
3) Cümlənin baş üzvləri: mübtəda, xəbər. Baş üzvlər cümlənin qrammatik əsası kimi. O, bu əvəzlikləri ilə ifadə olunan mübtədalardan sonra vergülün işlənməsi;
4) Xəbərin mübtəda ilə uzlaşıb-uzlaşmaması qaydaları;
5) Sadə cümlə; müxtəsər və geniş cümlələr;
6) Cümlənin ikinci dərəcəli üzvləri: tamamlıq, təyin, zərflik. Həmcins üzvlü cümlələr; həmcins üzvlər arasında vergülün və "və" bağlayıcısının işlənməsi;
7) Xitab; xitablarda durğu işarələri;
8) Mürəkkəb cümlələr. Bağlayıcısız mürəkkəb cümlələr, onların tərkib hissələri arasında vergülün işlənməsi. Bağlayıcılı (ki, amma, ancaq, lakin, çünki bağlayıcılı) mürəkkəb cümlələr, onlarda vergülün işlənməsi;
9) Müəllifin sözündən sonra və əvvəl gələn vasitəsiz nitq, vasitəsiz nitqdə durğu işarələri;
10) Dialoq. Dialoqda tire işarəsinin işlənməsi.

Beləliklə, dilin sintaktik əsasda tədrisi proqramların pilləlilik və xətti prinsiplər üzrə tərtibini tələb edir ki, məhz bu keyfiyyətinə görə orta məktəblərdə Azərbaycan dilindən sistematik kursun qoyuluşu ali məktəb kursundan fərqlənir. Son proqramda da orta məktəb kursunun ali məktəb kursuna maksimum səviyyədə yaxınlaşdırılması meyli açıq-aydın görünməkdədir. Lakin istər tarixi, istərsə də mövcud təcrübə göstərir ki, sistematik kursun mzmunca bu variantda, yəni yalnız xətti prinsip üzrə qoyuluşu məqbul sayıla bilməz. Bizcə, proqram müəllifləri sistematik kursun başlanğıcında keçilməsi nəzərdə tutulmuş "Sintaksis və durğu işarələri" bölməsinin metodik əhəmiyyətini düzgün qiymətləndirməmiş və varislik prinsipinə istinadən həmin bölmənin "İbtidai siniflərdə keçilmişlərin təkrarı"na

aid etmişlər. Tədrisi yeknəsəqləşdirdiyi və fənnə olan maraq hissini azaltdığı üçün "İbtidai siniflərdə keçilmişlərin təkrarı" bölməsinin proqramdan çıxarılması metodik zərurət idi. Lakin həmin bölmələri bir-biri ilə qarışdırmaq və onlara eyni baxış bucağından yanaşmaq təcrübədə özünü doğrultmadı. Düzdür, ibtidai siniflərdə də sintaksislə bağlı şagirdlərə elementar biliklər verilir, amma bu məlumatlar o qədər cüzi və ötəri xarakter daşıyır ki, onlar şagirdlərdə lazımi bacarıq və vərdişlər formalaşdıra bilmir. Digər tərəfdən, həcm və məzmunca fərqlənən bu biliklər başqa-başqa vəzifələrə xidmət edir. Prof. H.Əhmədov vaxtilə bu problemə daha dərindən toxunaraq yazırdı ki, sistematik kursun başlanğıcında verilmiş "ibtidai sintaksis kursunun qarşısında duran başlıca vəzifə şagirdlərin sintaksisə aid aldıqları ilkin məlumatları sistemə salmaq, onu tədricən dərinləşdirmək, öyrəniləcək sistematik morfologiya kursunun sintaktik zəmin üzərində tədris edilməsi üçün şərait yaratmaqdan ibarətdir. Bu vəzifənin həyata keçirilməsi prosesində şagirdlər bir sıra sintaktik terminlər və eləcə də qaydalarla tanış olmalı və həmin qaydaları nitq prosesində tətbiq etməyə çalışmalıdır" (1, səh. 92).

Yeni proqramla əvvəlki proqramların müqayisəli təhlili də göstərir ki, prinsipcə sistematik kursun qarşısında qoyulmuş məqsəd də dəyişilməz qalmışdır. Lakin həmin məqsədə aparan yollar müxtəlif variantlarda düşünülmüşdür ki, bunlardan hansının daha optimal olduğunu aydınlaşdırmaq müasir məktəb təcrübəsində bir o qədər də çətinlik törətmir. Müşahidələrimiz göstərir ki, sistematik kursla əlaqədar V-VI siniflərdə aşağıdakı problemlər mövcuddur:

- Rabitəli nitq bacarıqlarının (məsələn, şifahi və yazılı şəkildə mətnlər tərtib etmək, məlum (oxunmuş) mətni hissələrinə ayırıb təhlil etmək, məzmununu danışmaq və ya yazmaq və s.) formalaşdırılmasına verilən tələblərə əməl olunmur;
- Söz birləşmələrinin növü və hüdudları düzgün müəyyənləşdirilmir;

- Cümlənin qrammatik əsası və ikinci dərəcəli üzvləri dəqiq göstərilmir;
- *O, bu* əvəzlikləri ilə ifadə olunmuş mübtədalardan sonra vergül işarəsi yerli-yerində işlədilmir;
- Xəbərin mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşma qaydalarına riayət edilmir;
- Həmcins üzvlər arasında vergül və "və" bağlayıcısından səmərəli istifadə olunmur;
- Həmcins xəbərli cümlələrlə mürəkkəb cümlələr qarışıq salınır;
- Bağlayıcısız mürəkkəb cümlələrin komponentləri arasında vergül işarəsi işlətmək unudulur;
- *Ki, amma, ancaq, lakin, çünki* bağlayıcılı mürəkkəb cümlələrdə vergül işarəsi müvafiq qaydada qoyulmur.
- Vasitəsiz nitqdə tire və iki nöqtə kimi durğu işarələrindən istifadə etmək ya unudulur, ya da qarışıq salınır və s.

"Şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi normaları"nda qeyd edidiyi kimi, bu nöqsanlar şagirdlərin nə şifahi nitqlərinin, nə də yazılı işlərinin qiymətləndirilməsi zamanı nəzərə alınmalıdır. Çünki tələb elə qoyulmuşdur ki, keçilməyən mövzularla bağlı səhvlər hesaba alınmır. Bu məlumatlarsız isə tədris prosesində keçinmək mümkün deyil. Onlarla hər dərsdə üzləşməli olursan. Artıq pis adət halına keçmiş nöqsanların qarşısını yuxarı siniflərdə (VII-VIII siniflərdə) almaq olduqca mürəkkəbləşir, müəllim və şagirddən izafi səy tələb edir.

Dilin sintaktik əsasda öyrədilməsi prinsipi üzrə tərtib edilmiş proqramlarda isə həmin bilik və bacarıqlar V sinifdə aşılandığı üçün şagirdlər yuxarıdakı tipli nöqsanlara az yol verirlər və onların aradan qaldırılması üçün müəllimin də müəyyən metodik bazası olur. İndiki halda isə müəllim əlacsız qalaraq həmin nöqsanların üzərindən sükutla keçmək məcburiyyətindədir.

Başqa bir fakt. Morfologiya bəhsinin sintaktik əsasda tədrisi nitq hissələrinin cümlədəki vəzifəsinin mənimsədilməsini tələb edir. Bu isə morfologiya və sintaksis bölmələrinin qarşılıqlı əlaqədə keçilməsinə şərait yaradır. Hazırda isə real vəziyyət belədir ki, proqramda ayrı-ayrı nitq hissələrinin sintaktik funksiyasının öyrədilməsi bir tələb kimi qoyulmadığından cümlə üzvlərinin hansı nitq hissələri ilə ifadə olunmasını da mənimsətməkdə problemlər ortaya çıxır. Bu zaman müəllilmin əks-əlaqəni yarada bilməsi olduqca çətindir, çünki aparılan iş metodik özüldən məhrum edilmişdir. Bu misallara təcrübədə rəngarəng formalarda rastlaşdığımız digər faktları da (məsələn, sözün həqiqi və məcazi mənasının, sinonimlərin və s. mənmsədilməsini) əlavə edə bilərik.

Bütün bu deyilənləri ümumiləşdirib belə bir qənaətə gəlmək olur ki, dilin sintaktik əsasda tədrisini yenidən bərpa etmək vacib məsələlərdəndir. Əks təqdirdə sistematik kurs proqramda qarşıya qoyulmuş məqsəd və vəzifələrin yerinə yetirilməsi üçün zəmin yarada bilməyəcəkdir. Odur ki, V sinifdə sistematik kursun başlanğıcında “Sintaksis və durğu işarələri” bölməsi daha təkmil variantda təlimin məzmununa daxil edilməlidir. Təkmil variant dedikdə mətn, onun tərkib hissələri (başlanğıc, əsas məlumat, yekunlaşdırıcı hissə, abzas və onlara daxil olan cümlələri bir-biri ilə bağlayan vasitələr) haqqında məlumatların da bu bölməyə əlavə edilməsi nəzərdə tutulur. Çünki şagirdlərin şifahi və yazılı nitqlərinin formalaşması üçün bu materialların aşağı sinifdən öyrədilməsi zəruridir.

3. **Dilin nitq fəaliyyəti zəminində tədrisi**

Ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisində başlıca məqsəd şagirdlərdə hərtərəfli nitq bacarıqları, sözün geniş mənasında, nitq mədəniyyəti formalaşdırmaqdan ibarətdir. Bu o deməkdir ki, təhsilini başa vurmuş hər bir məktəbli aydın və səlis nitqə malik olmalı, fikir və düşüncələrini şifahi və yazılı formada sərbəst ifadə etməyi, şəraitdən asılı olaraq başqaları ilə ünsiyyət qurmağı, müəyyən problemlə bağlı müzakirə açmağı və lazımi məqamda söylənilmiş mülahizələri ümumiləşdirməyi bacarmalıdır.

Nitq fəaliyyətdə olan dildir. O, praktik mahiyyət daşısa da, dil qaydalarına əsaslanır. Məhz buna görə də ana dilinin tədrisi metodikasında belə bir baxış əsas götürülmüşdür ki, "dilin mənimsənilməsi fonetika, qrammatika və leksikanın öyrənilməsidir" (1, 33). Deməli, dilin fonetik, leksik və qrammatik quruluşunu dərindən və sistemli öyrənməklə qoyulmuş məqsədə nail olmaq mümkündür. Pedoqoji elmlər doktoru L.P.Federenkonun qanunauyğunluq kimi ümumiləşdirdiyi bu fikri geniş açıqlayan prof. B.Əhmədov yazır:

"Dərsdə həmişə vəhdətdə olan iki məqsəd izləməliyik: şagirdin nitqini zənginləşdirmək (bu, əsasən, praktik xarakter daşıyır) və dil haqqında olan elmi öyrətmək (bu, əsasən, nəzəri xarakter daşıyır və diferensiasiya olunmuş şəkildə aparılır). Birinci məqsəd ikinciyə, ikinci isə birinciyə xidmət etsə də, birinci ikincinin özülünü təşkil edir. Çünki ana dili təlimində (ikinci dilin təlimindən fərqli olaraq) nitqdən dilə doğru istiqamət alırıq. Şagirdin nitq praktikasına əsaslanaraq ona elmi öyrədirik. Bu elm isə öz növbəsində nitq praktikasına təsir göstərir, anormal halları aradan qaldırır" (1, 34-35).

Uzun illərin təcrübəsi göstərir ki, vaxt və enerjisini dil materiallarının mənimsənilməsinə sərf edən şagirdlərin nitqi gözlənilən səviyyəyə yüksələ bilmir. Onlar oxuduqlarını,

eşitdiklərini, müşahidə etdiklərini və düşündüklərini aydın və sadə bir dillə ifadə etmək, dinləyiciləri maraqlandıran məsələlərlə əlaqədar dolğun çıxışlar hazırlamaq bacarıqlarına yiyələnə bilmir və təbii ki, təlim prosesində çətinlik çəkirlər. Bu isə ondan irəli gəlir ki, yaddaşa istinadən mənimsədilən dil hadisələri şagirdlərin nitq fəaliyyətində praktik tətbiqini tapa bilmir. Verilmiş qaydaların, təriflərin əzbərlənməsi ilə başlayan məşğələlər çox zaman söz və cümlələr üzərində linqvistik təhlil nümunələrinin aparılması, test tapşırıqlarının yerinə yetirilməsi ilə davam etdirilir. Dərslikdəki çalışmaların da əksəriyyəti nəzəri materiallara uyğun dil faktlarının müəyyənləşdirilməsinə xidmət etdiyindən və ümumən, rabitəsiz mətnlər əsasında tərtib olunduğundan nitq inkişafına köklənmiş iş sistemi qurmaq hər bir fənn müəlliminə müəssər olmur. Odur ki, dilin nəzəri əsasda öyrədilməsi ideyası gözlənilən nəticələrin əldə edilməsi baxımından səmərəli sayıla bilməz.

Müasir mərhələdə Azərbaycan təhsil sistemində aparılan islahatlar onun yeni prinsiplər, o cümlədən nəticəyönümlülük və şagirdyönümlülük prinsipləri əsasında qurulmasını tələb edir. Bu aspektdən yanaşdıqda ümumtəhsil məktəblərində tədris edilən fənlərin məzmun və strukturca yenilənməsinə böyük ehtiyac duyulur və həmin konteksdə Azərbaycan dili fənninin də müəyyən dəyişikliyə uğraması qaçılmazdır. Qabaqcıl təcrübə göstərir ki, qarşıya qoyulmuş məqsəd və vəzifələrin həyata keçirilməsi üçün dilin nitq fəaliyyəti zəminində tədrisi bu yeniləşməni həyata keçirməyə qabil olan ən optimal yoldur və təlimin keyfiyyəti bu işin düzgün təşkilindən asılıdır.

Bilirik ki, nitq oxu, yazı, dinləyib-anlama və danışma olmaq üzrə fəaliyyət növlərinə ayrılır. Dilin nitq fəaliyyəti zəminində tədrisi deyildikdə məhz bu komponentlərə uyğun bacarıqların formalaşdırılması nəzərdə tutulur. Şagirdin məktəbə qədəm qoyduğu ilk gündən savad təlimi ilə başlayan bu iş yuxarı siniflərə keçdikdə

ardıcıl və mütəşəkkil qaydada davam etdirilərsə, sistemli xarakter alar və ən zəruri həyati bacarıqların formalaşmasına imkan yaradar. Müvafiq qaydada bu bacarıqları açıqlayaq.

Oxu prosesində sözün məna xüsusiyyətlərini anlamaq, fikrin ifadəsində cümlələr arasında əlaqə və mətnin daxili strukturunun dərk olunması ilə bağlı bacarıqlar qazanılır, dilin gözəlliyinə, üslubi imkanlarının genişliyinə maraq və məhəbbət hissi aşılanır və beləliklə, şagirdin dil duyumu inkişaf etdirilir. Şagird ədəbi-bədii və elmi kütləvi mətnlər üzərində müstəqil işləməklə lüğət ehtiyatını zənginləşdirir, müxtəlif üslublarda yazılmış materialları səciyyəvi xüsusiyyətlərinə görə fərqləndirmək bacarığına yiyələnir. Aydındır ki, dilin ən mühüm vahidi sözdür. Oxu prosesində şagird ona tanış olmayan yeni sözləri müəyyənləşdirib mənasını işlənmə məqamına və ya müxtəlif lüğətlərdən istifadə etmək üsulu ilə şərh edir ki, bu da onun yaradıcılıq, axtarıcılıq, tədqiqatçılıq qabiliyyətlərinin inkişafına xidmət edir. Həmin prosesdə şagirdin düzgün, şüurlu, axıcı (sürətli) və ifadəli oxu texnikası sinifdən-sinfə keçdikcə təkmilləşir. Oxu mətnləri onun yeni məlumatlar əldə etməsinə, bilik dairəsinin genişlənməsinə və ümumi dünyagörüşünün formalaşmasına da böyük təsir göstərir.

Müqayisə üçün nəzərə çarpdıraq ki, real təcrübədə söz, əsasən, ayrılıqda, konteksdən təcrid edilərək təqdim edilir. Bu da şagirdə sözün mahiyyətini anlayıb leksikonuna daxil etməkdə maneə yaradır. Yeni sözü qavramayan şagird, təbii ki, onu işlətməkdən çəkinir və beləliklə, nitqi inkişafdan qalır. Sözsüz, dərsin oxu materialı üzərində işlə başlanılması şagirdin məntiqi və tənqidi təfəkkürünün inkişafına yönəlmiş mətn üzərində işləmək, müşahidə etmək, faktları tutuşduraraq onlar arasında əlaqəni müəyyənləşdirmək, alınmış nəticələri dəyərləndirmək kimi bacarıqların formalaşmasını təmin edir. Nəzərə almaq lazımdır ki, ana dili təlimində oxu həm də nitq

fəaliyyətinin digər növləri üçün bir özül rolunu oynayır və sistemin işlək mexanizmə çevrilməsinə öz töhfəsini verir.

Nitq fəaliyyətinin mühüm komponenti kimi yazı da mühüm göstəricilərə malikdir. Oxu prosesində qazanılan bacarıqlar yazı vasitəsilə genişləndirilərək yaradıcı formada tətbiqini tapır. Şagird yazı vasitəsilə duyğu və düşüncələrini nəqli, təsviri və mühakimə xarakterli mətnlər formasında kağız üzərinə köçürmək imkanı əldə edir. Müxtəlif problemlərə həsr olunmuş inşa, esse kimi yazı nümunələri şagirdə müşahidə etdiyi həyat hadisələri ilə qazandığı biliklər arasında əlaqə yaratmağa, onlara müstəqil münasibət bildirməyə, fərdi fikir və mülahizələrini başqaları ilə özünəməxsus üsulda bölüşdürmək imkanı verir. Yazı daha yaradıcı proses olduğu üçün şagirdi həm səfərbər edir, həm də öz fəaliyyətinə tələbkar yanaşmağı öyrədir.

Təcrübədə şagirlərin yazı bacarıqlarının heç də lazımi səviyyədə olmadığı üzə çıxır. Belə ki, rabitəli mətnlər üzərində iş formal xarakter daşıyır və şagirdin dilə yiyələnmə səviyyəsinin müəyyənləşdirilməsində elə də mühüm rol oynamır. Yalnız belə bir faktı söyləmək kifayətdir ki, şagirdin dil dərslərində əldə etdiyi nailiyyətlər bir qayda olaraq orfoqrafik bacarıqların qiymətləndirilməsinə xidmət edən yoxlama imlaların aparılması ilə yekunlaşdırılır. İmla isə əslində nitq fəaliyyətinin növü olan yazıya daxil deyil. O, şagirdin diqqət və hafizəsi üzərində qurulmaqla dillə bağlı müəyyən qaydaların möhkəmləndirilmə və mənimsənilmə səviyyəsini yoxlamaq məqsədilə aparılır.

Nitq fəaliyyətinin bir növü kimi yazı hər hansı bir problem və ya mövzu ətrafında fikir və mülahizə yürütməyə, görülmüş işlərlə bağlı hesabat hazırlamağa təminat verir. O, gündəlik keçilən dərsin mühüm tərkib hissəsi olub, şagirdin tədqiqatçılıq və təşkilatçılıq bacarıqlarını nümayiş etdirməyə imkan yaradır. Şagird müxtəlif maraqları nəzərə almaqla müvafiq plana uyğun rabitəli mətnlər

qurur, onun tərkib hissələrini (giriş, əsas hissə və nəticə) məntiqi cəhətdən əlaqələndirir. Yazı şagirdə informasiya toplamaq, müxtəlif mətnlərdən götürdüyü fakt və sitatlardan məqsədyönlü istifadə etmək bacarıqları aşılayır. Şagird bu zaman həm redaktə etmək, həm də əməli yazı nümunələri: ərizə, tərcümeyi-hal, akt, protokol, arayış və s. tərtib etmək bacarıqlarına da yiyələnir ki, bu da təlimin nəticəyönümlü olmasını şərtləndirir.

Nitq fəaliyyətinin əsas komponentlərindən biri kimi dinləyib-anlama bacarıqlarının formalaşdırılması da böyük təlimi əhəmiyyət daşıyır. Müəllim və sinif yoldaşlarının nitqinə diqqətlə qulaq asmaq, söylənilən mülahizələri məntiqi təfəkkürünün süzgəcindən keçirməklə buradakı fikirləri anlayan şagird məşğələ zamanı qarşıya qoyulmuş məqsədə çatmaqda elə də bir çətinliklə rastlaşmır. Danışanın nitqini səbirlə, tələsmədən dinləmək yüksək insani qabiliyyətdir. Belə bir vərdişi özündə formalaşdırmağa çalışan şagird eyni zamanda tərəf müqabilinin nitqindəki əsas fikri ikinci dərəcəli fikirlərdən ayırmaqla lazımi nəticəyə tez gəlir. Keçilən mövzunun mənimsənilməsildə bu fakt önəmli yer tutur. Şagirdlərdə dinləyib-anlama bacarıqlarının formalaşdırılması məqsədilə dərs zamanı dialoqlardan, disputlardan, debatlardan mütəmadi surətdə istifadə edilməlidir. Tərəf müqabilini axıra qədər dinləmək, onun fikrinə cəld reaksiya vermək tədris prosesini canlandıran, şagirdlərdə ruh yüksəkliyi yaradan amillərdəndir.

Nəhayət, nitq fəaliyyətinin bir növü kimi danışma bacarıqlarının inkişafı da Azərbaycan dili təlimində qarşıya qoyulmuş başlıca vəzifələrdən sayılır. Şagird sərbəst, müstəqil, aydın, yığcam niqtə yiyələnməklə qazandığı bilikləri ifadə etmək imkanı əldə edir. Şifahi nitq müxtəlif forma və üsullarla inandırıcı təqdim olunmalıdır. Bu isə danışanın hazırlığından, məlumatların dolğun və düzgünlüyündən, eləcə də auditoriyanın maraqlarına cavab verməsindən çox asılıdır. Müəllim məktəb, bölgə və respublika əhəmiyyətli problemlər

ətrafında çıxışlar hazırlamağı şagirdlərə tapşırmaqla onlarda natiqlik bacarıqları formalaşdırmalıdır. Belə çıxışlar məşğələ zamanı təhlil edilərək, müsbət və çatışmayan cəhətləri göstərilməlidir. Təqdimat formasında olan belə çıxışlarda elmi-texniki tərəqqinin müasir nailiyyətlərindən istifadə onun maraqla qarşılanmasını təmin edir. Şifahi nitq qabiliyyətinin inkişafı şagirdin fəallaşmasına, onun cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi yetişməsinə təkan verir. Kiçik yaşlarından özünü yaşadığı mühitin bir hissəsi kimi dərk edən şagird ictimai həyata tez atılır və burada baş verən dəyişikliyə vətəndaş mövqeyindən yanaşmağı bacarır.

Göründüyü kimi, nitq fəaliyyəti bir-birilə qarşılıqlı əlaqədə olan bir sistemdir. Odur ki, təlim prosesində bu bacarıqlar inteqrativ əsasda formalaşdırılmalıdır. Yəni oxu yazı, yazı danışma, dinləyib-anlama yazı və danışma ilə əlaqəli şəkildə həyata keçirilməlidir ki, gözlənilən nəticələr əldə olunsun.

Qeyd olunduğu kimi, nitq dilə əsaslanır. Nitqin zənginliyi, gözəlliyi dil qaydalarına hansı səviyyədə bələd olmaqdan çox asılıdır. Bununla belə, linqvistik mahiyyət daşıyan bütün dil qaydalarını deyil, ən zəruri dil qaydalarını sinif səviyyəsinə uyğun formada şagirdlərə öyrətməklə onlarda mükəmməl nitq üçün lazım olan bacarıqları formalaşdırmaq mümkündür. Şagirdin dilin daxili quruluşu ilə bağlı biliklər əldə etməsi onun bir sistem kimi elmi dərkinə əsas yaratsa da, təlim prosesində, ilk növbədə, nitq inkişafına istiqamətlənməlidir. Bilik bilik xatirinə deyil, həyati bacarıqlar yaratmaq naminə öyrədilməlidir. Bu baxımdan təhsilin müxtəlif pillələrində keçilən Azərbaycan dilinin təlimi sistemində köklü dəyişikliklər edilməli, onun sintaktik əsasda öyrədilməsi önə çəkilməlidir. Dəqiq ifadə etsək, fonetika, leksika və morfologiya ilə bağlı bacarıqlar mətn və ya cümlələr əsasında aşılanmalıdır (ətraflı bax: 2, 7-11). Dilin bir sistem kimi öyrədilməsi təlimin yuxarı pilləsində, yəni X-XI siniflərdə həyata keçirilməlidir. Bu mərhələyə

qədər Azərbaycan dilinin məzmun strukturu xətti və pilləlik prinsipləri gözlənilməklə qurulmalıdır. Mövcud təcrübə göstərir ki, onsuz da şagird X sinfə çatanda sistemli şəkildə verilmiş dil hadisə və qaydalarının böyük bir qismini unutmuş olur. Yalnız təkrar saatlar ayırmaqla bilikləri yenidən sistemləşdirmək ehtiyacı yaranır. Ancaq dilin nitq fəaliyyəti zəminində tədris edilməsi şagirdin gündəlik həyatda yararlı bacarıqlara yiyələnməsini təmin etdiyi kimi, dilin linqvistik quruluşunun elmi əsasda mənimsənilməsinə də imkan yaradır. Yalnız belə bir yanaşma Azərbaycan dil təlimi qarşısında qoyulmuş real vəzifələrin həyata keçirilməsi ilə nəticələnə bilər.

4. VII-VIII siniflərdə sintaksis təliminin linqvistik problemləri

Mövcud təhsil qanunu əsasında hazırlanmış Azərbaycan dili proqramının təhlili göstərir ki, dil təlimi, əvvəlki illərdən fərqli olaraq təhsilin orta pilləsində (V-VIII siniflərdə) sistematik, yuxarı pilləsində (IX-XI siniflərdə) ayrıca kurs şəklində qoyulmaqla ciddi dəyişikliyə məruz qalmışdır. Bu dəyişiklik dilin bütün sahələrinin, o cümlədən sintaksisin təlimini də bu və ya digər dərəcədə əhatə etmişdir. Prof. Y.Seyidov və Q.Kazımov birgə yazdıqları yeni "Azərbaycan dili" dərsliyi (5) sintaksis təliminin təkmilləşmə səviyyəsinin ümumi mənzərəsini geniş əks etdirir. Dərslik məktəb kursunun məzmunu ilə dilçilik elminin məzmunu arasında fərqin aradan qaldırılması və təcrübədə özünü doğrultmayan materialların çıxarılması kimi üstün keyfiyyətləri ilə yanaşı, tədris prosesində müəyyən mübahisəli məqamların ortaya çıxması ilə də xarakterizə olunur. Bu məsələlər üzərində ətraflı dayanmaq istərdik.

Dərsliyin "V-VI siniflərdə keçilmişlərin təkrarı" hissəsində qrammatikaya belə bir tərif verilir: "Qrammatika sözlərin dəyişməsi və cümlədə sözlərin birləşməsi qaydalarından bəhs edən elmdir" (5, 11). Məlumdur ki, qrammatika morfologiya və sintaksis bölmələrindən ibarətdir və bu tərifin birinci hissəsi morfologiyanın, ikinci hissəsi isə sintaksisin xarakterik xüsusiyyətlərini ümumiləşdirir. Daha konkret desək, sözlərin dəyişmə qaydaları morfologiyanın, birləşmə qaydaları sintaksisin obyektinə aiddir. Elmilik baxımından tərifin birinci hissəsi düzgün ifadə olunmuşdursa, ikinci hissəsi müəyyən anlaşılmazlıqlar yaradır. Bu nə ilə bağlıdır? Elmi ədəbiyyatda göstərilir ki, qrammatikanın bir şöbəsi kimi sintaksis sözlərin söz birləşmələri və cümlələr şəklində birləşməsi qaydalarından bəhs edir (2, 5). Buradan aydın olur ki, sintaksis söz birləşməsi və cümlə şəklində öz ifadəsini tapmış

sözlərin birləşməsini tədqiq edir. Deməli, sintaksis üçün cümlə və söz birləşmələri müstəqil, lakin bərabərhüquqlu anlayışlardır. Dərslikdəki tərifdə *cümlə* anlayışının ön plana çəkilməsi *söz birləşməsi* anlayışını bir növ kölgədə qoymuş olur və belə bir nəticə hasil olur ki, sintaksis yalnız cümlənin tərkibini öyrənir. Digər tərəfdən, yeniləşmiş tərifdə "sözlərin dəyişməsi və cümlədə sözlərin birləşməsi" ifadəsində "sözlərin" anlayışının təkrar işlənməsi üslubi baxımdan dilə ağırlıq gətirir.

Nəzəri və metodik ədəbiyyatda qrammatika sözlərin dəyişməsi və birləşməsi qaydalarından bəhs edən elm kimi xarakterizə edilir. Müqayisə etsək, bu tərifin elmi və üslubi baxımdan daha düzgün ifadə olunduğunu görmək olar. Odur ki, dərsliyin sonrakı nəşrlərində bu məsələyə bir daha qayıdılmasına və daha optimal variantın seçilməsinə ehtiyac duyulur.

Yeni dərslikdə mübahisəli məsələlərdən biri də cümlənin tərifi ilə əlaqədardır. Tərif belə getmişdir: "Sözlərin bitmiş fikir ifadə edən birləşməsinə cümlə deyilir" (5, 43). Söylənən fikir nümunələr əsasında izah edildikdən sonra belə bir qeyd verilir: "Cümlə bir sözdən də ibarət ola bilər" (5, 44). Tərifdən aydın olur ki, cümlə bir məfhum kimi bitkin fikri ifadə edir və sözlərin birləşməsi əsasında formalaşır. Lakin tərifdən cümlənin formalaşması haqında fikrin natamamlığını görən müəlliflər əlavə qeyd verməli olmuşlar. Deməli, tərif dolğun ifadə edilməyib.

Söz birləşmələrinə ayrılan bir neçə saatı çıxmaq şərti ilə VII-VIII siniflərdə sintaksisin tədrisinin əsasını "Cümlə" bəhsi təşkil edir. Bu qrammatik məfhumun xarakterik xüsusiyyətlərinin dəqiq və əhatəli izahı mənimsəmənin səviyyəsini xeyli yüksəldir. Məktəb təcrübəsi göstərir ki, şagirdlər cümləyə xas xüsusiyyətlərlə söz birləşmələri bəhsində tanış olurlar. Belə ki, söz birləşmələrinin xarakterik xüsusiyyətləri cümlə ilə oxşar və fərqli əlamətlər aspektində izah

edilir. Buna baxmayaraq, cümləyə verilən yeni tərif tədris prosesində müəyyən dolaşıqlığa səbəb olur.

Adətən, məktəb təcrübəsində yaxşı ənənəyə sadiqlik təlimin keyfiyyətinə müsbət təsir göstərir. Əvvəlki dərsliklərdə cümləyə belə bir tərif verilirdi: "Bitmiş fikir ifadə edən sözlərin birləşməsinə və ya bir sözə cümlə deyilir". Düzdür, elmi baxımdan bu tərif özü də yarımcıq olub, cümlənin bütün xüsusiyyətlərini ehtiva etmir. Bununla belə, həmin tərif cümləyə məxsus əlamətlərdən ikisini (bitklinliyi və ifadə formasını) düzgün ümumiləşdirir. Cümləyə verilən digər təriflərlə müqayisədə yığcam, daha sadə dildə ifadə olunduğu üçün bu tərif asan yadda qalır. Görünür, elə buna görə də qabaqcıl müəllimlər cümlə məfhumunu ənənəvi tərif əsasında izah etməyi üstün tuturlar. Bütün bunlar belə bir nəticəyə gəlməyə əsas verir ki, dərsliyin sonrakı nəşrlərində "cümlə"nin əvvəlki tərifinin ("Bitmiş fikri ifadə edən bir sözə və ya sözlərin birləşməsinə cümlə deyilir") saxlanılması daha məqsədəuyğun olardı. Mübahisəli görünən və tədris prosesində mənimsənilmədə çətinlik törədən məsələlərdən biri də mübtədanın tərifi ilə əlaqədardır. Dərslikdə xüsusi qeyd edilir ki, cümlənin qrammatik əsasını mübtəda və xəbər təşkil edir. Cümlə bu baş üzvlərdən ya hər ikisi, ya da biri əsasında formalaşır. Mübtədanın tərifində isə bu nəzəri ümumiləşdirmənin doğruluğuna şübhə yeri qoyulur. Mübtədanın bir cümlə üzvü kimi xarakterik xüsusiyyətləri izah edildikdən sonra belə bir tərif verilir: "Cümlənin *fikir özülünü* bildirən, adlıq halda olub, kim? nə? hara? suallarından birinə cavab verən baş üzvə mübtəda deyilir" (5, 55). Burada diqqəti cəlb edən "fikir özülü" ifadəsidir. Məlumdur ki, fikir bitkinliyi cümləyə xas səciyyəvi cəhətlərdəndir və onun qrammatik əsasını da baş üzvlər təşkil edir. "Fikir özülü" birləşməsini "qrammatik əsas" anlayışının yeni bir ifadə variantı kimi qəbul etsək, belə bir sual meydana çıxır: Bəs xəbər əsasında formalaşan cümlələrin fikir özülünü nə bildirir? Yoxsa bu tipli cümlələr fikir

özülündən məhrumdur? Yaxud xəbərin tərifində həmin ifadə niyə işlənməmişdir? Axı xəbər də bir baş üzv kimi cümlənin fikir özülünü bildirməyə xidmət edir. Göründüyü kimi, yerində işlədilməmiş bir ifadə çoxsaylı sualların meydana çıxmasına şərait yaradır. Dərsliyin sonrakı nəşrlərində bu məsələyə yenidən qayıdılmasına ehtiyac duyulur.

Dərslikdə vasitəli nitqə verilən yeni tərif də qüsurludur. Tərif belə getmişdir: "Başqasının nitqini ("nitqinin" olmalıdır – H.A.) eynilə deyil, öz sözümüzlə dəyişilmiş şəkildə verilməsinə vasitəli nitq deyilir" (5, 169). Fikir aydın olsa da, onun ifadə üslubu düzgün tapılmamışdır. Tərifin elmi ümumiləşdirmə səviyyəsini "öz sözümüzlə" ifadəsinin aşağı saldığını açıq-aşkar duyulur. Fikri daha dəqiq, daha elmi ifadə etməyə lüzum görünür (Bizcə, "öz sözümüzlə" ifadəsi əvəzinə, "ondan istifadə edənin öz sözləri ilə" birləşməsini işlətməklə tərifi saxlamaq olar).

Ümumiyyətlə, dərslikdə ayrı-ayrı qrammatik anlayışların izahında və təsnifində bir sıra nöqsanlara yol verilmişdir ki, bunlardan bəzilərini xüsusi qeyd etmək istərdik.

Dərslikdə söz birləşmələrinin cümlədə rolu haqqında danışılarkən belə bir qeyd verilib: "Bəzi hallarda üçüncü növ təyini söz birləşmələrinin birinci tərəfi I və II şəxs əvəzlikləri ilə ifadə olunur, lakin ikinci tərəflərdə bunlara uyğun mənsubiyyət şəkilçiləri işlədilmir. Məsələn, bizim qızlar, sizin dağlar. Belə birləşmələri tərəflərinə ayırıb, birinci tərəfi təyin, ikinci tərəfi isə sualına müvafiq cümlə üzvü kimi təhlil etmək lazımdır" (5, 30). Sonra isə nümunələr əsasında fikir açılır. Araşdırmalar göstərir ki, bu qeydin nəzəri əsası dilçi alim R.Rüstəmov tərəfindən irəli sürülmüşdür. Sonradan prof. Ə.Abdullayev və dərslik müəllifi Y.Seyidov həmin fikrə tərəfdar çıxmışlar. Prof. Ə.Abdullayev daha irəli gedərək hətta bütün üçüncü növ söz təyini söz birləşmələrinin birinci tərəfinin təyin olmasını əsaslandırmağa çalışmışdır (1, 169-172). Vaxtilə həmin fikir

Azərbaycan dilçiliyində geniş polemikaya səbəb olsa da, bir fikir olaraq qaldı. Prof. Y.Seyidov həmin ideyanı bütövlükdə qəbul etməsə də, "bizim küçə" tipli birləşmələrdə birinci tərəfin təyin rolunda çıxış etməsi ideyasını məqbul saymış (4, 397-406) və orta məktəb dərsliyinə də gətirmişdir. Məlumdur ki, dilçilikdə mübahisəli görünən bir məsələnin orta məktəb dərsliyinə gətirilməsinin özü mübahisəlidir. Nəzəri və metodik ədabiyyatda həmin qeydin əsassızlığı çoxdan sübuta yetirilmişdir. Prof. B.Əhmədov bu məsələyə münasibətini belə izah etmişdir: "İkinci tərəfin mənsubiyyət şəkilçiləri atılmış III növ təyini söz birləşmələrinin I tərəfini müstəqil üzv götürmək düzgün deyil. Çünki həmin ikinci tərəfin şəkilçiləri üslub xatirinə ixtisar edilib və onları istənilən vaxt bərpa etmək olar, mənaya xələl gəlməz. Azərbaycan dilində bizim küçə, bizim küçəmiz və sadəcə küçəmiş söz və ifadələri arasında heç bir məna fərqi yoxdur. Ona görə də burada söhbət ancaq üslub məsələlərindən gedə bilər" (3, 8).

Məlumdur ki, hər bir üslubi imkan qrammatik əsas üzərində meydana çıxır. Bu əsas olmadan hər hansı bir dil faktının üslubi çalar qazanmasına şərait yarana bilməz. Tədqiqat göstərir ki, haqqında bəhs edilən üslubi çalar da konkret qrammatik əsasa söykənir. Belə ki, söz birləşmələrinin tarixi inkişafı III növ təyini söz birləşmələrinin formalaşmasında mənsubiyyət şəkilçisiz keçid variantın mövcudluğunu təsdiq edir. Tanınmış türkoloqlar B.A.Serebrennikov və N.Z.Hacıyeva bütün türk dilləri üçün geniş yayılmış bu dil faktını qədim dil elementi hesab edirlər (6, 256).

Beləliklə, üslubi çalar daşıyan hər hansı bir dil faktından çıxış edərək onu elmi yenilik kimi orta məktəbə gətirmək özünü doğrultmur. Bu, təlimin məzmununun təkmilləşməsinə deyil, ağırlaşmasına səbəb olur.

Sintaksisin təlimində qarşıya çıxan çətinliklərdən biri də "feli birləşmələr və tərkiblər" anlayışlarının mənimsədilməsi ilə

əlaqədardır. Prof. Y.Seyidov vaxtilə düzgün olaraq göstərirdi ki, “feli birləşmələrlə tərkiblər eyni dil faktının müxtəlif adlarıdır və burada eyni mənada iki addan istifadə edilir; yəni burada mahiyyət fərqi yoxdur, termin fərqi vardır” (4, 232-233). Dərslikdə də “tərkiblər” məfhumu eynilə bu şəkildə izah edilir: “Feli birləşmələrə tərkiblər də deyilir” (5, 32). Lakin bu fikrə dərslikdə tam riayət edilməmiş və həmin anlayışları fərqləndirilməyə cəhd göstərilmişdir: “Feli birləşmələrdə, iki tərəf olur: tabe olan və tabe edən tərəflər. Tərkiblərdə isə sözlərin miqdarı çox olur. Birləşmələr üçün iki söz, tərkib üçün isə çox söz səciyyəvi hesab olunur” (5, 33). Lakin gətirilən bəzi nümunələrdə bu fərq gözlənilməmişdir: məsələn, kitabı oxuyanda – feli bağlama tərkibinə, kitabı oxuyan – feli sifət tərkibinə, kitabı oxumaq – məsdər tərkibinə aid edilmişdir ki, bu da göstərilən fərqin süni şəkildə qoyulması ilə izah edilə bilər. Təlimdə mənimsənilmə ilə bağlı müəyyən dolaşıqlıq yaradan bu məsələnin optimal həllinə nail olmaq üçün dərsliyin sonrakı nəşrlərində həmin terminləri müvafiq şəkildə işlətməyi daha məqsədəuyğun hesab edirik.

Təhlil göstərir ki, VII–VIII siniflərdə sintaksis təliminin linqvistik əsasları ümumən obyektiv elmi fikirlərə söykənir, lakin bəzi dil faktlarının izahında subyektivliyə də yol verilmişdir. Elmi ədəbiyyatda ikinci növ təyini söz birləşmələrinin tərəfləri arasındakı sintaktik əlaqədən danışılarkən əksər dilçi alimlərimiz uzlaşma və idarə əlaqələrini qeyd edirlər. Həmin mövqe orta məktəb dərsliklərində də uzun müddət öz əksini tapmışdır. Son dərslikdə isə ikinci növ təyini söz birləşməsinin tərəfləri arasında uzlaşma əlaqəsindən başqa hansı əlaqə növünün olduğu konkret şəkildə müəyyənləşdirilməyərək, qeydsiz saxlanılmamışdır. Bizcə, bu onunla bağlıdır ki, həmin bölmənin müəllifi prof. Y.Seyidov ikinci növ təyini söz birləşmələrinin tərəfləri arasında uzlaşma əlaqəsi ilə birgə, yanaşma əlaqəsini sintaktik əlaqə növü kimi müdafiə edir (4, 182-

183). Elə buna görə də alim öz fikrinin əksinə getmək istəməmiş, həmin məsələni açıq qoyulmuşdır. Düzdür, dərslikdə idarə əlaqəsinə verilən tərifdən ikinici növ təyini söz birləşmələri arasında idarə əlaqəsinin olması fikrinə şagirdlər özləri də gələ bilərlər. Tərifdə deyilir: "Əsas sözün tələbi ilə tabe sözün ismin adlıq halından çıxıb başqa hala düşməsinə idarə əlaqəsi deyilir" (5, 34). Məlumdur ki, ikinci növ təyini söz birləşməsinin birinci tərəfi də adlıq halda deyil, qeyri-müəyyən yiyəlik haldadır. Odur ki, burada yalnız idarə əlaqəsindən danışıla bilər. Buna baxmayaraq, istər linqvistik mətn daxilində, istərsə də müvafiq nümunə və çalışmalarda bunun təsdiq edilməməsi mənimsənilmənin keyfiyyətinə xələl gətirən amil kimi qiymətləndirilməlidir.

Dərslikdə bəzi linqvistik anlayışların şərhində də qeyri-dəqiqliyə yol verilmişdir: məsələn, "Cümlənin məqsəd və intonasiyaya görə növləri" başlığında sual cümləsinin 3 növü olduğu göstərilir (5, 47). Təsnifatın nəyə əsasən aparıldığı məlum deyil. "Nida cümləsi" yarımbaşlığına əsasən təsnifatın cümlənin yaranma üsuluna görə aparıldığı aydınlaşır. Yaxud, şərt budaq cümləsinin izahında digər budaq cümlələrinin şərhində istifadə edilməyən "tip" termini işlədilmişdir ki, bu da, əvvəla, tabeli mürəkkəb cümlənin təsnifi ilə bağlı vahidliyi pozmuş, digər tərəfdən, həmin mövzunun tam qavranılmasında anlaşılmazlıq yaratmışdır. Digər bir fakt. 207-ci səhifədə belə bir qeyd getmişdir: "Bağlayıcı sözdə *ki* ədatından sonra vergül qoyulmaz... ". Göründüyü kimi, əsas müəlliflər *ki* ədatı ilə *ki* bağlayıcısını fərqləndirməyi lazım bilmişlər. Üçüncü müəllif isə bunun fərqinə vara bilməmiş, təlim prosesində anlaşılmazlıq yaradan belə bir izahat vermişdir: "... tabeli mürəkkəb cümlələrdə bəzən *bu şərtlə, bir şərtlə* birləşmələri öz yerini dəyişərək, bağlayıcı (*ki*) ilə birlikdə budaq cümlənini tərkibinə keçir və *bu şərtlə ki, bir şərtlə ki* şəklində bağlayıcı birləşmə əmələ gətirir. Bu halda vergül işarəsi də

budaq cümləni baş cümləyə bağlayan həmin birləşmələrdən əvvəl qoyulur...” (5, 238).

Bütün bunlar onu göstərir ki, orta məktəbin VII-VIII siniflərində sintaksis təliminin linqvistik-nəzəri əsasları ilə bağlı müəyyən problemlər var və onların aradan qaldırılması vacib məsələlərdən biri kimi qarşıda durur.

5. Da, də ədatının tədrisinin bəzi məsələləri

Orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi qarşısında qoyulmuş başlıca vəzifələrdən biri təlimin məzmununu təhsil islahatının tələbləri səviyyəsində qurmaqdan ibarətdir. Sonuncu proqram və dərsliklər üzərində aparılan müşahidələr göstərir ki, təcrübədə özünü doğrultmayan, problem yaradan bəzi məsələlər aradan qaldırılmamışdır. Lakin toxunulan problemin genişliyi mövcud ziddiyyətlərin tamamilə həll edilməsinə imkan verməmişdir. Bu isə məktəb kursunun məzmunu ilə dilçilik elminin məzmunu arasında müəyyən fərqlərin olmasına şərait yaratmışdır. *Da, də* ədatının mənimsədilməsində ortaya çıxan bir sıra məsələlərin də həmin faktorla bağlı olduğunu nəzərə alaraq, üzərində ətraflı dayanmaq istərdik.

Təhlil göstərir ki, *da, də* orta məktəb kursunda, əsasən, bağlayıcı kimi öyrədilir. Şagirdə ilk dəfə onun barəsində IV sinif dərsliyində (7) məlumat verilir və "cümlə üzvləri arasında əlaqə yaradan" (7, 138) bağlayıcı kimi mənimsədilməsi üçün 589, 590, 595 nömrəli çalışmaların tərkibindəki aşağıdakı cümlə nümunələrindən istifadə edilir.

1) Bu dağlar da, dərələr də bizimdir.
2) Bizim bağda alma da, armud da, ərik də, heyva da yetişir.
3) Əminə də, Solmaz da mənim yaxın dostlarımdır.
4) Xəbər aldım ilk bahardan,
   O da səni verdi xəbər (N.Rəfibəyli).
5) Qurban da belə getdi (A.Şaiq).
6) O məni də unutmamışdı.
7) Fəxranın da bu günlərdə on yaşı tamam oldu.

Məlumdur ki, bağlayıcı, dərslikdə verildiyi kimi, cümlə üzvləri arasında yox, cümlənin həmcins üzvləri və mürəkkəb cümlənin komponentləri arasında qrammatik əlaqə yaratmağa xidmət edən

köməkçi nitq hissəsidir. Bu baxımdan ilk üç cümlədə *da, də*-ni təkrarlanaraq həmcins üzvlərlə yanaşı işləndiyinə görə bağlayıcı hesab etməyə müəyyən əsas olsa da, dörd və beşinci cümlələrdə mübtəda ilə xəbər, altıncı cümlədə tamamlıqla xəbər, yeddinci cümlədə isə üçüncü növ təyini söz birləşməsinin tərkib hissələri arasında əlaqə yaratdığını nəzərdə tutaraq bağlayıcı adlandırmaq məntiqsiz görünür. Çünki müxtəlif cümlə üzvləri arasında əlaqə yaratmaq, ümumiyyətlə, bağlayıcıların qrammatik funksiyasına daxil deyil. Həmin problemlə bağlı fikir və mülahizələrimizi sonraya saxlayıb, bir daha dərsliklər üzərinə qayıdaq.

Da, də haqqında ərtaflı məlumat VI sinif dərsliyində (6) verilir. Bu dərslikdə o həm bağlayıcı, həm də ədat kimi işlənən omonim söz kimi xarakterizə edilərək, yalnız cümlədəki yerinə görə fərqləndirilir. Belə ki, təkrarlanaraq həmcins üzvlərlə işlənməsindən əlavə, *da, də* aşağıdakı məqamlarda da iştirak bildirən bağlayıcılara aid edilir:

Adamlar da əsəbiləşdilər.

Sona da xalça satırdı (M. Cəlal).

(Çalışma 238).

Dünya ədəbiyyatında, əsasən, poemaların müəllifi kimi məşhur olan Nizami rübailər də yazmışdır.

Başqa şairlər kimi, B.Vahabzadə də xalqımızın arzularını tərənnüm etmişdir.

Biz də işləməyi və yaşamağı ulu babalarımızdan öyrənməliyik.

Qapıdakı tək ağac da

Yarpaq töküb qurumuşdu (S.Vurğun).

(Çalışma 245).

Bizdə Banuçiçək adı da var. O “Dədə Qorqud” dastanında da işlədilib.

(Çalışma 250) və s.

Dərslikdə *da, də*-dən qüvvətləndirici ədat kimi danışdıqda müəlliflər onun hansı əlamətlərə əsasən bağlayıcılardan fərqləndiyini

göstərməsələr də, 255 və 258-ci çalışmaların məzmunundan belə aydın olur ki, *da, də* cümlənin sonunda işləndikdə ədata, qalan hallarda isə bağlayıcıya aid edilməlidir. Elə buna görə də şagirdlər "Biz də sənin kimi vətəndaşıq da" və "Bu xalq da sənin kimi insandır da" cümlələrində əvvəlinciləri bağlayıcı, sonuncuları ədat kimi müəyyənləşdirməyə məcbur olurlar.

Dərslikdə ədata verilən tərifdən ("Sözlərin və cümlələrin təsir gücünü artıran köməkçi nitq hissəsinə ədat deyilir" – 6, 120) və şərhdən belə bir nəticə hasil olur ki, ədat həm sözlərin, həm də cümlələrin mənasını qüvvətləndirməyə xidmət edir. (Çox təəssüf ki, ədata verilən tərifdə onun əsas qrammatik xüsusiyyəti öz əksini tapmamışdır. Bizcə, "təsir gücü" ifadəsi yerinə düşməmiş söz birləşməsidir və ədatın bir köməkçi nitq hissəsi kimi mahiyyətini açıqlamır. Məlumdur ki, ədatlar aid olduğu sözün və cümlənin mənasını müxtəlif çalarlıqda, məsələn, qüvvətləndirməklə, fərqləndirməklə, dəqiqləşdirməklə və s. şəkildə nəzərə çatdırmağa xidmət edir. Odur ki, tərifdə də bu qrammatik əlamət ümumiləşdirilmiş formada ifadə olunmalıdır. Bu baxımdan "sözlərin və cümlələrin mənasını müxtəlif çalarlarda nəzərə çatdıran köməkçi nitq hissəsinə ədat deyilir" tərifi daha optimal səslənir). Ədatlar aid olduğu sözün və cümlənin həm əvvəlində, həm də sonunda işlənə bilir. *Da, də* ədatına gəlincə isə, bu xüsusiyyət unudulur və belə bir nəticə alınır ki, o yalnız cümlənin sonunda işlənə bilir. Düzdür, "Yaxşı da, daha məni öldürməyəcəksən ki" (6, 121) cümləsində "da" ədata aid bir nümunə kimi verilmişdir. Onun modal sözlə yanaşı işləndiyini və həmin modal sözün də istənilən vaxt müstəqil cümlə kimi çıxış etmək imkanını nəzərə alaraq, söylənilən fikri bu məqamda əsaslandırmaq mümkündür. Lakin 253-cü çalışmanın şərtinə uyğun olaraq, "heç özüm də bilmirəm" cümləsindəki "də"-nin qüvvətləndirici ədat hesab edilməsi bu nəticəyə qarşı çıxmaq və bağlayıcı kimi izah edilən yuxarıdakı nümunələrin düzgünlüyünə

şübhə yaratmaq deməkdir. Bağlayıcı hesab edilməsi isə, onun sözə verdiyi məna çalarlarının nəzərə alınmaması deməkdir. Beləliklə, təlim prosesində özünü daha qabarıq büruzə verən ziddiyyət yaranır: *da, də*-dən hansı məqamlarda ədat, hansı məqamlarda bağlayıcı kimi danışmaq lazımdır? Hətta VII-VIII sinif dərsliyində (9) *da, də*-dən həmcins üzvləri və tabesiz mürəkkəb cümlənin komponentlərini əlaqələndirən bağlayıcı (9, 102, 185), qarşılaşdırma budaq cümləsinin komponentlərini bağlayan ədat kimi bəhs edilməsi də bu dolaşıqlığı, ziddiyyəti aradan qaldıra bilmir. Ümumiyyətlə, məktəb təcrübəsi də göstərir ki, *da, də*-nin dəqiq elmi əsaslar üzrə mənimsədilməsi ilə bağlı çoxlu problemlər vardır və dərslikdəki izahlar onun həlli yollarını tam işaqlandırmaq səviyyəsində deyildir. Azərbaycan dilinin tədrisi metodikasında bu istiqamətdə xeyli tədqiqatlar aparılmasına baxmayaraq, öz köklü həllini kifayət dərəcədə tapmamışdır. Digər tərəfdən tam əminliklə deyə bilərik ki, *da, də* morfemi ilə bağlı orta məktəb dərsliyindəki fikirlər, linqvistik ədəbiyyatdan daha çox metodik ədəbiyyata istinad edilərək verilmişdir. Faktlara müraciət edək. *Da, də* morfominin tədrisində qarşıya çıxan nəzəri və praktik xarakterli çətinliklər və onların aradan qaldırılması yolları barədə metodist alimlərimizdən prof. Ə.Əfəndizadə, prof. M.Həsənov, pedaqoji elmlər namizədi Y.Əfəndiyev, Ə.Əhmədov və başqaları maraqlı tədqiqatlar aparmışlar. İlk dəfə Y.Əfəndiyev "Ədatların tədrisi" (4, 39-154) məqaləsində formaca oxşar olan bağlayıcı və ədatların sırasında *da, də* morfemindən danışaraq onları, əsasən, aşağıdakı xüsusiyyətlərinə görə fərqləndirmişdir: *da, də* cümlə daxilində cüt-cüt işlənərək həmcins üzvlər arasında təkrar olunarsa, bağlayıcı, təkrarlanmazsa və yalnız cümlənin axırında gələrsə, ədatdır. Lakin cümlənin müxtəlif yerlərində işlənən *da, də*-nin bir nitq hissəsi kimi müəyyənləşməsində ortaya çıxan çətinliyi nəzərə alan müəllif "Sən də qəribə adamsan!" tipli nümunələrə əsasən, onun cümləyə verdiyi mənadan

asılı olaraq bağlayıcı və ya ədat hesab edilə bilməsini mümkün sayır, tədqiqatçıya görə, əgər "də" sözü "sən" sözünü fikrən başqa bir sözə bağlayırsa (məsələn, Əli qəribə adamdır, sən də qəribə adamsan, şəklində), bu halda o, bağlayıcı yerində işlənərək "özündən əvvəlki sözü vurğu altına salır və həmin sözün yüksək intonasiya ilə deyilməsinə səbəb olur" (4, 146). Əgər "də" ədat yerində işlənirsə, bu halda o heç bir sözü başqasına bağlamağa xidmət etmir və özündən əvvəlki sözün üzərinə vurğu gətirmir, əksinə, sonrakı "qəribə" sözünün bir qədər yüksək intonasiya ilə deyilməsinə şərait yaradır. Bu ümumiləşdirmələr bir neçə cəhətdən etiraz doğurur: əvvəl, məhz ədatlar müxtəlif intonasiya ilə deyilməklə cümləyə rəngarəng məna çalarları verir ki, bu xüsusiyyət bağlayıcılarda özünü göstərmir; ikincisi, aid olduğu sözün üzərinə vurğu gətirmək və onu nəzərə çatdırmaq xüsusiyyəti yenə də məhz ədatlara məxsus olduğundan müəllif bu məsələni də qarışdırır; üçüncüsü, "qəribə" sözünün yüksək intonasiya ilə deyilməsini, "də" ədatı ilə heç cürə əlaqələndirmək mümkün deyil, bu, cümlənin deyilmə məqsədindən irəli gəlir. Beləliklə, tədqiqatçının gətirdiyi arqumentlərin məsələni aydınlaşdırmaq əvəzinə, dolaşığa saldığını görürük.

Da, də-nin bir morfem kimi mənimsədilməsində qarşıya çıxan çətinlikləri dərindən araşdıran prof. Ə. Əfəndizadəyə görə, Azərbaycan dilində həm yerlik hal şəkilçisi, həm bağlayıcı, həm də ədat kimi üç qrammatik məna daşıyan omomorfemim öyrənilməsi üç mərhələdən keçir. Birinci mərhəldə şagirdlər *da, də*-ni yerlik hal şəkilçisi, ikinci mərhələdə bağlayıcı, üçüncü mərhələdə isə ədat kimi öyrənirlər. Məktəb təcrübəsini geniş təhlil edən alim şagirdləri möhkəm vərdişlərə yiyələndirməyi "ciddi bir problem" adlandıraraq yazır: "*da, də* morfemlərinin yazılışında şagirdlərin çox tez-tez yol verdikləri səhvləri aradan qaldırmaq üçün ən işgüzar və bacarıqlı müəllimlərin belə səyləri çox zaman istənilən nəticəni vermir" (5, 163). Odur ki, şagirdlərdə *da, də*-nin qrammatik mənasına uyğun

düzgün yazı vərdişləri formalaşdırmaq üçün müəllif ikinci mərhələnin həlledici rol oynadığını xüsusi qeyd edir və bunu onunla əlaqələndirir ki, "*da, də* bağlayıcıları və ədatları yazıda heç bir xarakter əlamətinə görə bir-birindən fərqlənmir" (5, 169). Yalnız cümlə sonunda işlənən *da, də*-ni ədat hesab edən görkəmli alimin bu mülahizələri uzun illərdən bəri məktəb təcrübəsində tətbiq edilməsinə baxmayaraq, həmin məsələ yenə "ciddi problem" olaraq qalmaqdadır. Yenə də şagirdlər *da, də*-nin yazılışında səhvlərə yol verir və hətta ən qabaqcıl müəllimlər belə onu islah edə bilmirlər. İstər-istəməz, belə bir sual meydana çıxır: bəlkə, məsələnin qoyuluşu səhvdir? Bəs linqvistik ədəbiyyatda bu problem öz həllini necə tapmışdır?

Ədatın ən qədim nitq hissələrindən biri olmasına baxmayaraq, dilçiliyimizdə tədqiqi tarixi prof. Ə.Abdullayevin "Köməkçi nitq hissələri" (1) əsəri ilə başlanır. Sonrakı illərdə çıxan qrammatika kitablarında və xüsusən prof. F.Zeynalovun "Müasir türk dillərində köməkçi nitq hissələri" (11) adlı monoqrafiyasında ədatın türk dillərinin, o cümlədən Azərbaycan dilinin qrammatik quruluşunda tutduğu yeri, sözə, söz birləşməsinə və cümləyə verdiyi məna çalarlıqları geniş şərh edilsə də, bir çox mübahisəli məsələlər öz həllini indi də gözləməkdədir. Belə məsələlərdən biri də dildə öz işləkliyi ilə seçilən *da, də* ədatı ilə bağlıdır. Araşdırmalar göstərir ki, bəzi dilçilər ondan yalnız bağlayıcı, bəziləri yalnız ədat, bəziləri isə həm bağlayıcı, həm də ədat kimi bəhs etmişlər. Ən maraqlısı da burasındadır ki, bu zaman *da, də*-nin qrammatik əlamətləri eynilə sadalanmış, xarakterik cəhətləri gah bağlayıcıya, gah da ədata şamil edilmişdir. Məsələn, tanınmış türkoloq N.K.Dmitriyev "Başqırd dilinin qrammatikası" (3) əsərində *da, də*-ni belə xarakterizə edir: "Bitişdirmə və ya qarşılaşdırma vəzifəsində işlənən ədatdır. Vurğusuzdur. İstənilən nitq hissəsindən sonra gəlir. Ahəng qanununa tabe edildiyinə görə bağlayıcılara aid edilə bilməz" (3, 129). Lakin

alimin bu mövqeyi sabit olmamış, digər əsərlərindən ondan, əsasən, bağlayıcı kimi bəhs etmişdir. Yaxud, N.A.Baskakov *da, də*-dən həmcins fellər və digər nitq hissələrini birləşdirən, eləcə də cümlə üzvlərini qüvvətləndirən və nəzərə çarpdıran bağlayıcı kimi danışmışdır (2, 516-517). N.A.Kononov, K.M.Musayev və başqa tanınmış türkoloqlar isə onu həm ədat, həm də bağlayıcı kimi tədqiq etmişlər. Bu da bir faktdır ki, ondan bağlayıcı kimi danışıldıqda məhz ədat əsasında formalaşdığı hər dəfə qeyd olunmuşdur. Hətta tanınmış dilçi N.Z.Hacıyeva *da, də* ədatının bağlayıcıya keçmə mexanizmini aşağıdakı şəkildə sxemləşdirmişdir:

1) aid olduğu felə və ya ismə yanaşaraq, onun mənasını qüvvətləndirir;

2) qüvvətləndirmə mənasını saxlamaqla bağlayıcı keyfiyyəti qazanır;

3) müxtəlif çalarlar içərisində bağlayıcılıq əsas keyfiyyət kimi özünü göstərir (10, 31).

Gətirilən nümunələrin dərindən təhlili göstərir ki, bu sxem sırf mexaniki xarakter daşıyır. Çünki *da, də* hansı məqamda işlənərsə-işlənsin, ədata məxsus keyfiyyətlərindən heç birini, yəni aid olduğu sözün üzərinə vurğu gətirməklə mənasını nəzərə çarpdırmasını və bu zaman ədatlar kimi ahəng qanununa tabe olmasını itirmir. Bəs hansı məqamlarda *da, də* bağlayıcılara aid edilir? M.H.Hüseynzadə bununla əlaqədər mövcud fikirləri ümumiləşdirərək yazır: "*da, də* cümlədə təkrar olunarsa və bağlayıcı ilə əvəz oluna bilərsə, bağlayıcı olur. Bunlar tək işlənərsə, özündən əvvəlki sözün üzərinə vurğu gətirərsə və başqa bağlayıcı ilə əvəz olunmazsa, ədat olur" (8, 284). Beləliklə, linqvistik ədəbiyyatın təhlili göstərir ki, orta məktəb dərsliklərindən və metodik ədəbiyyatdan fərqli olaraq, *da, də* təkcə həmcins üzvlərlə və tabesiz mürəkkəb cümlənin komponentlərinin tərkibində işləndikdə bağlayıcı hesab olunur. Yerdə qalan bütün hallarda, cümlənin hansı yerində işlənməsində və hansı sözə aid

edilməsindən asılı olmayaraq ədat adlandırılır. Lakin son tədqiqatlar (məsələn, F.Zeynalov, K.Abdullayev, P.Sibaqatovun əsərləri) və bizim araşdırmalarımız göstərir ki, hətta bu məqamlarda da o, ədatlıq keyfiyyətini itirmir. Məsələn:

1) Axı, Zərnigar da yazıq idi (İ.Şıxlı).
2) Çiçəklər də yazın əvvəlindəki kimi tərtəzədir (İ.Şıxlı).
3) Atamın acığına cah-cəlalla da toy edəcəyəm (İ.Şıxlı).
4) Atası burada da insafsızlıq etmişdi (İ.Şıxlı).
5) Babək bir nəfər idi, gəldi də, getdi də (M.S.Ordubadi).
6) Bunu qızım Qətibəyə də, sənə də tapşırıram (M.S.Ordubadi).
7) Atamın Xəlifəyə yazdığı məktubda Süsənin də, Dilşadın da adını oxumuşam (M.S.Ordubadi).
8) Bu ziyafətə istiqlaliyyətə inananlar da, inanmayanlar da dəvət olunmuşdu (M.S.Ordubadi).

Mövcud linqvistik ədəbiyyata əsaslansaq, 1-4 cümlələrdə *da, də* ədat, 5-8 cümlələrdə bağlayıcı kimi çıxış edir. Lakin müqayisəli təhlil göstərir ki, *da, də* təkrarlanaraq həmcins üzvlərlə işləndikdə belə ədata məxsus keyfiyyətlərindən heç birini itirmir. Əgər bir söz öz qrammatik xüsusiyyətlərindən heç birini, hansı məqamda işlənməsindən asılı olmayaraq, itirmirsə, onun başqa nitq hissəsinə keçdiyini necə iddia etmək olar. Prof. F.Zeynalov bunu nəzərə alaraq yazır: "*Da, də* enklitik ədatı bağlayıcı kimi çıxış edib, iki anlayışı bitişdirmək məqamında da qüvvətləndirmə ədatı kimi çıxış edir" (11, 182). Həssas dilçinin fikrinə yalnız bir düzəliş vermək istərdik: burada bağlayıcı kimi deyil, bağlayıcı vasitə kimi çıxış etməkdən söhbət gedə bilər. Yaxud başqa nümunələri nəzərdən keçirək:

1) İnişil arvadı öldü, keçən il də əlləri aşağı oldu (İ.Şıxlı).
2) Dolu da ötüşdü, külək də keçdi.
3) Gülgəzin oğlu öldü, ocağı da söndü.

Diqqət edilərsə, bu tabesiz mürəkkəb cümlənin komponentlərini sadə cümlələr şəklində verdikdə *da, də*-dən bağlayıcı kimi danışmağa

lüzum gəlmir. Düzdür, həmin məqamda o, aid olduğu sözü müəyyən sözlər qrupuna bağlayır, lakin bu zaman onun mənasını qüvvətləndirərək nəzərə çarpdırmaq xüsusiyyətini yenə də özündə saxlayır. Odur ki, tabesiz mürəkkəb cümlənin komponentlərinin tərkibindəki hər hansı bir sözlə yanaşı işləndikdə də "da, də" nəzərə çarpdırmaq xüsusiyyətini itirmədiyi üçün ədat kimi izah edilməlidir. Bütün bunları nəzərə alaraq, *da, də*-ni yalnız qüvvətləndirmə ədatı kimi öyrənməyi və sintaktik funksiyasına görə bağlayıcı vasitələrə daxil etməyi daha məqsədə uyğun hesab edirik. Tədqiqat göstərir ki, *da, də* yalnız ədat kimi mənimsədilərsə, şagirdlərin qarşılaşdıqları mövcud çətinliklər bir problem kimi aradan qaldırıla bilər.

6. Dil təlimində tarixilik, onun qoyuluşu və ifadə yolları

Təlimdə tarixilik xüsusi məsələ kimi qeyd edilsə də, onun didaktik mahiyyəti tam və hərtərəfli açıqlanmamışdır. Məhz buna görə də bu problem, əsasən, 2 variantda: 1) müvafiq elm sahəsinin məzmunja tarixi inkişafda verilməsi; 2) müəyyən elmi anlayışların daha dərindən mənimsədilməsi məqsədilə tarixi məlumatlardan istifadə formasında öz əksini tapmışdır. Məsələn, ədəbiyyatın tədrisi metodikasında tarixilik təlimin məzmunu və mənimsədilməsi formalarının müəyyənləşdirilməsində aparıjı rola malik xüsusi prinsiplərdən biri (6; 14, 5-7, 77), riyaziyyatın, fizikanın tədrisində isə şagirdlərin elmi dünyagörüşünün formalaşmasında, bilik, bajarıq və vərdişlərinin yüksəlməsində mühüm əhəmiyyət kəsb edən səmərəli vasitə kimi araşdırılmışdır (9; 10; 12; 17).

Ayrı-ayrı fənn metodikalarında tarixiliyə bu jür fərqli yanaşmalar onun pedaqoci anlayış kimi yetərinjə öyrənilməməsi ilə bağlıdır. Məlumdur ki, prinsip təlimin məzmununun, metod, priyom və vasitələrinin, eləjə də onun təşkili formalarının əsasında duran meyardır. Deməli, vasitə anlayışı ilə müqayisədə o daha mühüm, daha tutumludur. Bu baxımdan tarixilik məhz prinsip kimi açıqlanmalı, lakin mahiyyəti dəqiqləşdirilməlidir. Pedaqoci ədəbiyyatda prinsiplər daha çox ümumdidaktik və spesifik olmaq üzrə iki yerə bölünür. Ümumdidaktik prinsiplər bütün təlim fənlərinə aid olub, nəzəri ümumiləşdirmə xarakteri daşıyır və didaktikanın tədqiqat obyektinə daxildir. Spesifik prinsiplər isə konkret təlim fənninin qarşısına qoyulmuş məqsəd və vəzifələrdən, aid olduğu elm sahəsinin qanun və qanunauyğunluqlarından asılı olaraq müəyyənləşir və xüsusi metodikalar tərəfindən tədqiq edilir.

Buna baxmayaraq, həmin prinsiplər arasında möhkəm əlaqə

mövjuddur: «… ümumdidaktik prinsiplər daha çox nəzəri ümumiləşdirmələr xarakteri daşıyır, xüsusi metodikalar, hər fənnin spefifik xüsusiyyətlərini nəzərə almaqla, həmin prinsipləri öz həjminə uyğunlaşdırır, onlara konkret praktik mahiyyət gətirir, onları müəllimin istifadəsinə daha əlverişli və məqsədəuyğun şəkildə verir» (5, 4).

Təhlil göstərir ki, təlim nəzəriyyəsinə aid tədqiqatlarda tarixilik ümumdidaktik prinsiplər sırasında verilməsə də, fənn metodikalarında, xüsusən dil təlimi metodikasında müxtəlif mövqelərdən yanaşılaraq şərh edilmişdir. Bu, öz əksini rus dilinin tədrisi metodikasında daha qabarıq şəkildə tapmışdır. Belə ki, dilçi metodistlərdən F.İ.Buslayev (3), A.D.Alfyorov (1), N.K.Kulman (8) tarixiliyi bir pedaqoci anlayış kimi səjiyyələndirmədən işlətmişlərsə, N.N.Prokopoviç (16), S.D.Nikiforov (13), İ.S.Tolstıx (19) ona prinsip kimi yanaşmış, lakin ümumdidaktik, yaxud spesifik mahiyyət daşıma fərqinə varmamışlar. Q.N.Pristupanın hazırladığı dərslikdə tarixilik ana dilinin tədrisində istinad edilən elmilik, şüurluluq, müvafiqlik, sistemlilik, ardıjıllıq və s. kimi ümumdidaktik prinsiplərlə yanaşı (15, 7), tanınmış metodist alim M.T.Baranovun redaktorluğu və müəllifliyi ilə çıxan «Rus dilinin tədrisi metodikası» kitabında isə qlobal, ümumdidaktik, ümummetodik və bölmə səviyyəsində qruplaşdırılan prinsiplər sırasında ümummetodik prinsip kimi göstərilmişdir (2, 137-138).

Bizjə, tarixiliyin bu jür fərqli şəkildə dəyərləndirilməsi elmilik prinsipinin aydın izah edilməməsindən irəli gəlir. Son dövrlərə qədər pedaqogi ədəbiyyatlarda elmilik prinsipinin az tədqiq edilməsi tarixiliyin bir anlayış kimi konkret müəyyənləşdirilməməsinə şərait yaratmışdır. Əslində tarixilik elmilik prinsipinin mahiyyətindədir. Təlimdə elmilik daha çox tədris edilən fənlərin nəzəri əsaslarının elmi gerçəkliyə uyğunluğu

və tarixi inkişafda verilməsi kimi anlaşılır. Odur ki, tarixilik bəzi fənlərin tədrisində ya qabardılaraq spesifik prinsip kimi götürülür, ya da elmi anlayışların şərhində yardımçı vasitə kimi nəzərə çarpdırılır. Görkəmli rus metodisti A.A.Tekuçev bu reallığa əsaslanaraq dil təlimi üçün daha doğru olan bir nətijəyə gəlir: «Biz elmiliyi və tarixiliyi qarşı-qarşıya qoymuruq. Dil hadisələrinin tarixi işıqlandırılması qrammatikanın elmi əlamətlərindən biridir. Biz tarixiliyi ona görə fərqləndiririk ki, əlahiddə imkanlara malik olmasına baxmayaraq, bu məsələ tədris prosesi üçün qaneediji həllini tapmamışdır" (18, 38). Mövjud baxışları və ana dili təlimi qarşısında qoyulmuş məqsəd və vəzifələri uyğunlaşdıraraq biz də tarixiliyi elmilik prinsipinin mühüm tərkib hissəsi kimi qəbul edir, həm ayrı-ayrı dil hadisələrinin və faktlarının şüurlu mənimsədilməsinə, həm də dilin keçdiyi inkişaf yolu ilə əlaqədar ən vajib, lakin sadə, anlaşıqlı bilgilərin verilməsinə yol açan metodik tələb kimi dəyərləndiririk.

Bəs dil təlimində tarixiliyin özünü ifadə forması hansı şəkildə olmalıdır? Təhlil göstərir ki, hələ XIX əsrin ortalarında Avropa pedaqoqları bu istiqamətdə ardıjıl tədqiqatlar aparmışlar. Belə ki, alman alimi Rudolf Gildenbrandt və Avstriya alimi Zee Müller dil təlimində tarixiliyi ana dilinin tarixi aspektdə tədrisi kimi irəli sürmüş və hətta bunun təjrübəyə gətirilməsinə nail olmuşlar (1, 83).

Həmin dövrdə rus dilinin tədrisi metodikasında da tarixilik bir problem kimi qaldırılmış və uzun müddət müzakirə obyektinə çevrilmişdir. Bu problemin tədqiqata gətirilməsi rus dilinin tədrisi metodikası elminin banisi F.İ.Buslayevin adı ilə bağlıdır. Tarixiliyi nəzəri və praktik jəhətdən həll etməyi qarşısına qoyan alim təlim metodlarını qeyristik (evristik) və tarixi-doqmatik olmaqla 2 yerə bölərək üstünlüyü sonunjuya vermiş və aşağı

siniflərdə qismən, yuxarı siniflərdə isə tamamilə bu metodla işləməyi irəli sürmüşlər.

Onun fikrinjə, ana dilinin aşağı siniflərdə tədrisi onun tarixi ilə müqayisədə aparılmalıdırsa, yuxarı siniflərdə, ümumiyyətlə, dil tarixinin tədrisi kimi həyata keçirilməlidir (3, 33-34). Görkəmli metodistin mülahizələri F.F.Fortunatov, A.A.Şax-matov, İ.İ.Sreznevski kimi ardıjılları tərəfindən təkmilləşdirilərək təjrübəyə gətirilmişdir. Qoyulmuş problemə daha obyektiv yanaşan A.D.Alfyorov aşağı və orta siniflərdə dilin tarixi aspektdə öyrədilməsi ideyasını rədd edərək yalnız epizodik şəkildə, təsadüfdən-təsadüfə tarixi ekskurslar şəklində dil tarixinə aid məlumatların verilməsini məqsədəuyğun sayır. Bununla belə, metodist alim yuxarı siniflərdə dil tarixi üzrə elementar kursun təşkilinə tərəfdar çıxır. Müəllifə görə, həmin kurs iki hissədən ibarət olmalıdır. Birinji ümumi hissədə dillərin həyatı haqqında biliklər, ikinji hissədə isə ana dilinin tarixi ilə elementar, lakin sistemli şəkildə tanışlıq öz əksini tapmalıdır. Alim birinji hissənin özünü də 2 hissəyə ayırır ki, ilkin məsələ kimi dillərin yaranması haqqında nəzəriyyələr, ikinji məsələ kimi dünya dillərinin təsnifatı və rus dilinin bu sistemdəki mövqeyi əsas götürülür. İkinji hissədə tamamilə rus dilinin inkişaf tarixinin öyrənilməsi nəzərdə tutulur (1, 83, 91-92).

Tarixilik prinsipinin bu şəkildə qoyuluşu bəzi metodist alimlərin, o jümlədən novator ideyaları ilə seçilən D.N.Uşakovun qəti etirazına səbəb olur və o belə bir qənaətə gəlir: «Hər şeydən əvvəl mən düşünürəm ki, orta məktəbdə rus dilinin yuxarı kursunu rus dilinin tarixi kimi qoymaq lazım deyil; əlbəttə, rus dilinin tarixi öyrənilməsi onun çox mühüm hissəsi sayılır, lakin bununla kursun ümumi məzmunu tükənməməli və digər ümumtəhsil vəzifəsinin qarşısı alınmamalıdır. Mən orta məktəbin yuxarı kursunun vəzifəsini rus dilinin tarixini onun yaranması və

inkişafı prosesində öyrənilən bir bilik kimi deyil (bu, ali məktəbin vəzifəsidir), müasir rus dilinin öyrənilməsi və dərk edilməsi şəklində qoyuram» (11, 371). Bununla belə, müəllifə görə, həmin kursun məzmunu müasir rus ədəbi dilinin səs və forma tərkibini öyrənməklə yanaşı, dil haqqında əsas elmi nəzəriyyələr, rus dilinin tarixi və kilsə-slavyan dilindən müəyyən həddə bəzi faktları, dialektlər, ədəbi dil və yazının yaranması haqqında başlıja bilikləri də əhatə edə bilər.

Orta məktəbdə qrammatika kursunun məzmunu və verilmə prinsipləri ilə bağlı tədqiqat aparan dilçi-metodist Y.Ş.İstrina tarixilik prinsipinin qoyuluşunu belə açıqlayır: «Tarixilik məktəb tədrisində ayrı-ayrı qrammatik kateqoriyalara və ayrı-ayrı faktlara verilən tarixi kommentarilər vasitəsilə tətbiq edilir; qrammatik kateqoriyalar isə onların inkişafı və imkan daxilində, mənşəyinin işıqlandırılması ilə gözdən keçirilir» (11, 432).

Dil təlimində tarixiliyin hansı formada həyata keçirilməsi N.N.Prokopoviç, S.D.Nikiforov, V.A.Dobromıslov, A.M.Tekuçev, T.A.Şapovolova, İ.R.Paley, N.S.Pozdnyakov və başqa metodist alimlərin tədqiqatlarında da araşlırılmışdır ki, bunlardan N.N.Prokopoviçin tədqiqatları daha çox maraq doğurur. Tarixi bilgilərin əhəmiyyətini düzgün dəyərləndirən alim yazır: «Müasir rus dili uzun bir tarixi inkişafın nətijəsində yaranıb və burada elə faktlar və hadisələr vardır ki, onu yalnız tarixi məlumatların köməyi ilə anlamaq və şüurlu mənimsəmək mümkündür. Nəhayət, unutmaq olmaz ki, dildə təkjə sözlər, formalar ölmür və istifadədən çıxmır, həm də yeni qrammatik kateqoriyalar meydana gəlir, doğulur. Buna görə də tarixilik şagirdlərə yeni söz, forma və qrammatik kateqoriyaların dildə əmələgəlmə şərtlərinin işıqlandırılması və izahını nəzərdə tutur» (16, 79). Öz fikirlərini məntiqi ardıjıllıqla şərh edən alim tarixiliyin 3 yolla həyata keçirilməsini məqsədəuyğun bilir: 1)

ayrı-ayrı qrammatik və leksik xarakterli dil faktlarının izahına dil tarixi məlumatlarının (müvafiq forma və həjmdə) jəlb edilməsi yolu ilə; 2) şagirdlərə konkret tarixi məlumatlar vermədən dil fakt və hadisələrinin işıqlandırılması yolu ilə; 3) şagirdlərə dil tarixi, yazı və əlifbanın əmələ gəlməsi, ədəbi dilin milli səjiyyə daşıması barədə elementar və müvafiq məlumatlar verilməsi yolu ilə (16, 80-81).

Prof. S.D.Nikiforov isə dil təlimində tarixiliyi daha da konkretləşdirərək «müasir rus dilinin əsas normalarından jiddi fərqlənən və eyni zamanda kifayət qədər tez-tez rast gəlinən hadisələrə tarixi məlumatlar verilməsi şəklində» (13, 34) izah edir.

Rus dilinin tədrisi metodikasında tarixiliyin qoyuluşu ilə bağlı mülahizələr kifayət dərəjədə rəngarəngdir və bu gün də öz aktuallığını saxlamaqdadır (ətraflı bax: 7, 7-16).

Təhlil göstərir ki, Azərbayjan dilinin tədrisində tarixilik problemi məhz rus tədqiqatçılarının araşdırmalarında öz əksini tapmış ideyalardan qaynaqlanmışdır. Azərbayjan dili təlimində tarixiliyin metodik məsələlərini ilk dəfə sistemli şəkildə prof. Ə.Dəmirçizadə qaldırmış və aşağıdakı suallara javab axtarmağın vajibliyini sual kimi qoymuşdur: «Ana dili təlimində tarixiliyi nejə təşkil etməli? Hansı tədris ilində və ya illərində, nə dərəjədə, hansı sahələrdə dil tarixi ilə əlaqədar məlumat vermək olar?» (4, 24).

Bu istiqamətdə prof. Ə.Əfəndizadə, prof. B.Əhmədovun fikir və mülahizələri, pedaqoci elmlər namizədləri F.Rəhimovun, A.Məmmədovun, F.Həsənovun və eləjə də bu sətirlərin müəllifinin müəyyən tədqiqat işləri olsa da, tarixiliyin qoyuluşu sistemli şəkildə öyrənilməmişdir.

Mövjud təjrübəyə, qabaqjıl metodik düşünjəyə istinad edərək dil təlimində tarixiliyi 2 formada: 1) müasir dilin tədrisində tarixi məlumatlardan istifadə; 2) dilin keçdiyi inkişaf yolu, dünya dilləri

jərgəsində yeri haqqında ayrıja bölməni əhatə edən məlumatlar formasında açıqlamaq mümkündür. Sözsüz, bu formaların ən effektlisi birinji variantdır. Lakin bununla belə, ikinji variant da dilin tarixinə maraq baxımından nəzərdən qaçırıla bilməz. Tarixi bilgilər 3 üsulla: tarixi arayış, tarixi şərh və etimoloci təhlillər vasitəsi ilə öz ifadəsini tapır. Tarixi arayışlar daha çox dərsliklərdə dil faktlarına istinad etmədən yığjam məlumatlar şəklində verilən yol sayılır. Tarixi şərhlər fənn müəllimlərinin tə-lim prosesində hər hansı müasir dil hadisəsini, dil faktını nisbətən ətraflı və şüurlu mənimsətmək üçün istifadə etdikləri yola deyilir. Etimoloci təhlil isə sözün mənşəyinə edələn tarixi ekskursiya kimi tədrisdə ən çox istifadə edilən yol kimi tətbiq olunur.

Beləliklə, dil təlimində tarixiliyin özünəməxsus zəngin ifadə yolları olduğu üzə çıxır.

7. Azərbayjan dili dərslərində tarixi arayışlardan istifadənin imkanları

Dil dərslərində tarixilik prinsipinin gözlənilməsi iki formada - dilin tarixi aspektdə tədrisi və müasir dilin tədrisi prosesində tarixi məlumatlardan istifadə şəklində öz əksini tapsa da, təjrübədə sonunju varianta daha çox üstünlük verildiyi üzə çıxır. 1993-jü (6, 41-45) və 1999-ju (8, 43) illərin proqramları və onlar əsasında hazırlanan dərsliklərdə, təlimin yuxarı pilləsində "Azərbayjan dilinin quruluşu və tarixi haqqında" adlı bölmə verilmiş və burada bir sıra dilçilik məsələlərinin (dil nədir? dilçilik nədir? türk dilləri hansılardır? onların tipoloci, yaxud morfoloci quruluşu nejədir? və s.) tədrisindən sonra Azərbayjan türkjəsinin tarixindən, Şimal və Jənub təzahürlərindən bəhs edilməsi nəzərdə tutulur (6, 40-41). Beləliklə, müvafiq dərsliklərdə (əvvəljə IX, sonradan isə X sinif dərsliklərində) dilimizin dünya, o jümlədən türk dilləri ailəsində yeri, morfoloci quruluşuna görə iltisaqi dillər qrupuna aid olması ilə əlaqədar bilgilərlə yanaşı, keçdiyi inkişaf mərhələləri haqqında yığjam, lakin dolğun məlumatlar verilmiş və zəngin çalışmalar sistemi ilə şagirdlərə mənimsədilməsi nəzərdə tutulmuşdur (3, 28-110; 4, 3-72). Hazırda tətbiq edilən mövjud proqramda isə bu tarixi məlumatlar sıxlaşdırılaraq minimum həddə çatdırılmış, "Dil haqqında ümumi məlumat" bölməsində "Azərbayjan dilinin türk dilləri ailəsində yeri", "Dil və xalqın tarixi" mövzuları, eləjə də "Dilçilik sistemi" bölməsində "Etimologiya dilçiliyin bir bölməsi kimi" mövzusunu əhatə edən bilgilər şəklinə salınmışdır. Bu da öz növbəsində dərsliklərdə milli-mənəvi dəyər təşkil edən bir neçə sözün: məsələn, Azərbayjan, Xəzər, Arsak sözlərinin mənşəyi haqqında qısaja qeydlərin verilməsinə imkan yaratmışdır (5, 25-26).

Müxtəlif metodik baxışların təhlili göstərir ki, tarixi prosesin məhsulu olan dilin müasir vəziyyətinin öyrədilməsində tarixi arayışlara, şərhlərə və etimoloci təhlillərə geniş yer verilməsi həmişə təlim fəaliyyətini janlandıran, şagirdlərdə dilə böyük maraq oyadan və ən əsası, onların dil duyumunu inkişaf etdirən vəzifələrdən biri kimi baxılmış, həm rus, həm də Azərbayjan metodistləri tərəfindən dönə-dönə tədqiqata jəlb olunmuşdur (ətraflı bax: 1, 5-20). Çox təəssüflər olsun ki, bəzi araşdırmalarda tarixi arayışlarla tarixi kommentarilər (şərhlər) və etimoloci təhlillər arasında bəzən fərq qoyulmadan mülahizələr söylənilmiş və bu da müəyyən metodik dolaşıqlığın yaranmasına gətirib çıxarmışdır. Nəzəri ümumiləşdirmədən belə aydın olur ki, hər üç metodik priyom tarixi məlumatların şagirdlərə verilmə imkanlarını əhatə edir, lakin bunların hər birinin öz yükü, öz funksiyası və təlim prosesində öz yeri vardır. Belə ki, tarixi məlumatların qısa, yığjam və məqamında verilməsini nəzərdə tutan arayışlar, əsasən, dərsliklərdə öz əksini tapır və həm dilin keçdiyi inkişaf yolunun ən əhəmiyyətli jəhətlərini qabartmağa, həm də hər hansı dil hadisəsini və ya faktını tarixi proses işığında açıqlamağa xidmət edir. Tarixi kommentarilər (şərhlər) isə daha çox tədris zamanı müasir dil hadisələri ilə açıqlana bilməyən faktların mənimsənilməsində müəllim tərəfindən istifadə olunan metodik priyomdur. Daha geniş və müntəzəm tətbiq olunan etimoloci təhlil priyomu isə müasir dil baxımından tərkib hissələrinə ayrıla bilməyən, lakin mənası şagirdlərdə böyük maraq doğuran əsl Azərbayjan sözlərinin, eləjə də bəzi alınma mənşəli terminlərin, işləklik qazanmış bəzi neologizmlərin dərindən mənimsədilməsində tətbiq olunur.

Göründüyü kimi, dil dərslərində tarixi məlumatlardan istifadə yolları haqqında müəyyən metodik mülahizələr formalaşmış və onlardan istifadə imkanları ilə bağlı tədqiqatlar aparılmışdır,

lakin tarixi kommentarilər və etimoloci təhlil priyomları ilə müqayisədə tarixi araşdırmalara, demək olar ki, toxunulmamışdır. Odur ki, məqalədə bu barədə fikir və mülahizələrimizi bildirmik istərdik.

Araşdırma göstərir ki, tarixi arayış priyomundan ilk dəfə A.Şərifovun orta məktəbin V sinfi üçün yazdığı "Qrammatika" (I hissə, Azərnəşr, 1936) dərsliyində rast gəlinir. Burada "Qrammatik kateqoriyalar" başlığı ilə verilmiş nəzəri məlumatda oxuyuruq: "Nitq kateqoriyaları tədrijən əmələ gəlmiş və bəşəri dillərin inkişafı nətijəsində müəyyən məna və şəkillər almışdır.

Dilin inkişaf mərhələlərində nitq hissələri olmamışdır. İnsanın nitqi ümumi (polisemantik) mənalar ifadə edən və əsas etibarilə jümlə yerində işlənən sözlərdən ibarət olmuşdur. Belə jümlə halında bulunan sözlərdən tədrijən isimlər əmələ gəlmiş, isimlərdən isə hərəkət bildirən sözlər, yəni fellər əmələ gəlmişdir; yenə isimlərdən jümlələrdə ifadə etdikləri funksiyalarına görə, sifətlər ayrılmış və müəyyən isimlər zəmir yerinə işlədilməyə başlamış; sonra bağlayıjı və başqa söz növləri əmələ gəlmişdir" (7, 43).

Təbii ki, belə müjərrəd formada şərh olunmuş məlumatlar şagirdlərin yaş və bilik səviyyəsi ilə tamamilə uyuşmurdu və təlimin qarşısında qoyulmuş praktik vəzifələrlə ziddiyyət təşkil edirdi. Odur ki, akad. Marrdan götürülmüş bu tipli arayışlara sonrakı dərsliklərdə, ümumiyyətlə, rast gəlinmir.

Məlumdur ki, dilin müasir fonetik, leksik və qrammatik hadisələrini dərindən mənimsəyən şagird şifahi və yazılı nitqin bütün injəliklərinə yiyələnmiş olur, müxtəlif şəraitlərdə, nitq situasiyalarında fikirlərini aydın, normaya uyğun şəkildə ifadə etməyi bajarır və müasir fənn kurrikulumu da bunu tələb edir. Sadə, anlaşıqlı formada verilmiş tarixi arayışlar şagirdə ana dilinin tarixi haqqında lazımi məlumatlar əldə etməyə, keçdiyi

inkişaf yolunu ümumi şəkildə təsəvvür etməyə, ayrı-ayrı söz və ifadələrdə bu tarixi həmin inkişafın hansı dərəjədə iz qoyduğunu izləməyə imkan yaradır, onun linqvistik təfəkkürünü inkişaf etdirməklə yanaşı, dilə, keçmişinə, xalqın bu dildə yazıb-yaratdığı ədəbi-bədii nümunələrinə böyük sevgi və qayğı hissi aşılayır.

Təjrübə göstərir ki, dərsliklərdə dil, eləjə də onun normaya salınmış işarələr sistemi olan yazının tarixi haqqında məlumatları şagirdlər maraqla öyrənir və müvafiq çalışmaların yerinə yetirilməsində fəallıq göstərirlər. Belə tarixi arayışlar təlimdə fənlərarası əlaqəyə geniş imkanlar açmış olur, həm xalqın keçdiyi tarixi olayları, həm bu dövrdə yazılmış bədii nümunələri qarşılıqlı əlaqədə qavramağa optimal şərait yaradır: məsələn, mövjud X sinif üçün mövcud dərslikdə "Dil haqqında ümumi məlumat" başlığı altında getmiş mövzularda bu öz əksini aşağıdakı şəkildə tapmışdır:

§ 1. Dil nədir? (14-18 nömrəli çalışmalar)

§ 2. Dilin funksiyaları (17-23 nömrəli çalışmalar)

§ 3. Yazı (24-29 nömrəli çalışmalar)

§ 4. Dilçilik və onun digər elmlər içərisində yeri (31-46 nömrəli çalışmalar).

§ 7. Türk dilləri ailəsi (52-58 nömrəli çalışmalar)

§ 8. Azərbayjan dilinin morfoloci quruluşu (60-70 nömrəli çalışmalar)

§ 9. Dil və mədəniyyət; dil və xalqın tarixi (71-86 nömrəli çalışmalar).

Göründüyü kimi, bu dərslikdə öz əksini tapmış tarixi arayışlar dil haqqında ən zəruri bilikləri əks etdirməklə, ayrı-ayrı mərhələləri əhatə edən bədii əsərlərə aid çalışmalar vasitəsilə tarixi fonetika, leksika və qrammatika ilə əlaqədar qavranıla bilən faktları şagirdlərə çatdırır, dilin daimi inkişafda olduğunu,

janlı bir orqanizm kimi bütün tərkib hissələrinin təkamül keçirdiyini əyani şəkildə onlara nümayiş etdirir.

Dilin yaranma, formalaşma və təkamül prosesini faktların iştirakı ilə izləyən şagird yalnız son minillik ərzində dilin səs və qrammatik quruluşunun çox da dəyişmədiyini, əvəzində lüğət tərkibinin bununla müqayisədə sürətli dəyişikliyə məruz qaldığını anlayır və bunun səbəbini həm türk dillərinin iltisaqiliyində, həm də tarixi inkişafın, tərəqqinin, ijtimai proseslərin dilin lüğət tərkibinə qüvvətli əks olunmasında görür və dərk edir. Bu, xüsusilə aşağıdakı çalışmalar üzərində iş prosesində daha maraqlı şəkildə üzə çıxır. Çalışma 71-də "Dədə Qorqud kitabı"ndan götürülmüş mətn parçası vasitəsilə şagird daha çox arxaikləşərək dildən çıxan sözlər üzərində işləməklə həmin nəzəri müddəanı özü üçün gerçəkləşdirir. 4 hissəyə ayrılaraq verilmiş bu çalışmada xüsusən türk mənşəli sözlərin izahı dəqiq verilsə də, bəzi məqamlar şagirdlərin daha diqqətli və şüurlu işləmələrinə imkan yaradır:

Qaxdığın qəhr edən
Qəhhar Tanrı! (5, 51)

"Sözlük"də "qaxdığın" sözü "vurduğun" kimi doğru-düzgün izah olunmuşdur, lakin şagirdlərin dil duyumuna əsaslanaraq, bu qədim sözün "başa qaxınj" ifadəsində yaşayan "qaxınj" sözündə hələ də öz ilkin mənasını daşıdığını üzə çıxarmaq olur (-ınj ad düzəldən şəkilçidir. Müqayisə et: gül-gülünj). Yaxud, "altun-altun ağjasını yağmalamışız" deyimindəki "yağmalamışız" sözü "zəbt etmək" mənasında açıqlanıb. Məlumdur "altun-altun ağja" deyildikdə "qızıl pul" nəzərdə tutulur, pul isə zəbt edilməz. Bu məqamda "ələ keçirmək" ifadəsi verilməlidir.

IV mətndə "Üç yüz say jidalı yigit bunun yanına jəm oldu" jümləsindəki "say" arxaizminə şərh vermək unudulmuşdur. Görünür, "jida" (nizə) sözünün təyin edən "say" arxaizmini dərslik

müəllifləri müasir mənada anlamışlar. Anjaq təhlil göstərir ki, "say" sözü qədim silah növlərini keyfiyyətjə yaxşı hazırlanmasına görə izah edən qədim sözdür və müasir dilimizdə "saz" sifəti ilə izah edilə bilər (2, 51).

Çalışma 72-də verilmiş mətnin müasir baxımdan şüurlu mənimsədilməsi, şagirdlərin yaradıjı işləmələri üçün də maraqlı məqamlar var: məsələn, "Şami günlügi yer yüzinə dikdirmişdi" jümləsindəki "günlük" sözü "kölgəlik" kimi izah edilsə də, "dikdirmişdi" sözü müasir mənada anlaşıldığından şərh olunmamışdır. Şagird hələ ədəbiyyat dərslərindən yaxşı öyrənmişdir ki, qədim oğuzlar çadırlarda yaşayırdılar. Çadır isə torpağa – yer üzünə sanjılmaqla qurulur. Bu mənada "dik-dir(mək)" feli tarixən "sanjdırmaq" anlamını ifadə etdiyindən göstərilən məqamda həmin "dikdirmişdi" sözünü müasir mənada işləndiyi kimi yox (tik(mək) //dik (mək) felləri sonradan çoxmənalılıq hesabına müxtəlif tikinti materialları vasitəsilə inşa edilən evlərin yapılması anlamını daşımışdır), "qurdurmuşdu" kimi müasir anlamda açıqlanmalıdır. Anjaq bu tarixi faktı nəzərə almayan müəlliflər, nədənsə, indi də öz ilkin mənasını saxlayan "qurdurmuşdı" sözünə "Bir yerə ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq qurdurmuşdu" jümləsinin tərkibində "tikdirmişdi" kimi izah vermişlər. "Otaq" sözü tarixən "çadır, alaçıq" mənasında işləndiyindən "qurdurmuşdu" sözü bu məqamda əslinə uyğun şəkildə eynilə qavranılmalıdır.

Əlbəttə, bu kimi müqayisəli təhlillər tarixi dil faktlarını daha şüurlu mənimsəməyə imkan yaradır və dərslik üzərində işləyən müəllimlər şagirdlərdə məhz belə faktlara diqqət yetirməyi aşılamalıdırlar. Dil üzərində şagird müşahidəsinin formalaşması ilk növbədə onun dil duyumunu inkişaf etdirməklə, lüğət ehtiyatını zənginləşdirir.

Mətn parçalarında ərəb-fars mənşəli sözlərlə qarşılaşan şagirdlər xalqın tarixi ilə əlaqəli islam dininin və fars poeziyasının qüvvətli təsiri nətijəsində onların dilimizin lüğət tərkibindəki əsl Azərbayjan-türk mənşəli sözləri sıxışdırıb aradan çıxarması faktı ilə üzləşirlər. Son dövrlərdə yenidən vətəndaşlıq hüququ qazanaraq ümumişlək lüğət fonduna daxil olan belə türk mənşəli sözlərin şagirdlər tərəfindən dərindən mənimsənilməsi gələjəkdə bu yararlı tendensiyanın qüvvətlənməsinə təkan verə bilər və müəllimlər bu istiqamətdə iş apararaq arxaik sözlərin məna çalarlarını ərəb-fars mənşəli sözlərlə tutuşdurmaqla bu xoşməramlı işə yaşıl işıq açmış olurlar. Bu işin nə dərəjədə xeyirli olduğunu başa salmaq üçün dərslikdə F.Köçərlinin "Ana dili haqqında" məqaləsinin sonluğunu gətirməyi lazım bilirik: "Millətini sevən, onun mənəvi diriliyinə çalışan, tərəqqisi yolunda əmək sərf edən yazıçılarımızdan, ədiblərimizdən və şairlərimizdən çox-çox təvəqqe edirik ki, dillərini asanlaşdırsınlar, ana dilindən uzaq düşməsinlər… Fikirlərini açıq və sadə dildə yazsınlar, ta ki onların yazdıqlarını oxuyan anlasın, düşünsün və ayılsın. Anjaq bu yolla yazan ilə oxuyanın arasında dostluq, ittifaq və birlik əmələ gələ bilər" (5, 66).

Bu dəyərli fikirləri gətirməkdə məqsədimiz bir də onunla bağlıdır ki, sabahın fəal qurujusu - iqtisadçısı, hüquqşünası, iş adamı və başqa peşə sahibi olan bugünkü şagird dilimizin təmizliyinə, saflığına hörmətlə yanaşmağa alışsın, onu hazırkı vəziyyətdə olduğu kimi ujuz reklam xatirinə mənəviyyatsızjasına yersiz alınmalarla zibilləyib korlamasın.

Təlim prosesi qüvvətli tərbiyə vasitəsidir. Bu baxımdan dil dərslərində ona qayğı, məhəbbət hissi şüurlu şəkildə aşılanmalıdır. Jəmiyyətdə dilə qarşı hazırkı yarıtmaz vəziyyət məhz orta məktəbdə düzgün iş aparılmamasının nətijəsi kimi meydana çıxır. Odur ki, dilimizin tarixinə edilən ekskurslar

yalnız dünənimizi öyrənməyə istiqamətlənməyib, həm də doğma dilimizin tarixi qaynaqlar üzərində inkişaf etdirilməsi üçün milli kökə bağlı vətəndaş mövqeyi formalaşdırır. Çox yaxşı haldır ki, şagirdyönümlü, nətijəyönümlü Azərbayjan dili kurrikulumunda nitq mədəniyyətinin formalaşması məqsədi ilə hazırlanan standartlarda bu öz əksini daha qabarıq formada tapmışdır.

8. Etimoloji təhlil şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinin mühüm vasitəsi kimi

Məlumdur ki, etimoloji təhlil sözün keçdiyi inkişaf yolunun izlənilməsi məqsədilə aparılan linqivistik araşdırma metodudur. Tədqiqatçıdan dil tarixi ilə yanaşı, xalqın tarixi etnoqrafiyası, mifologiyası ilə bağlı hərtərəfli bilgi, dərin erudisiya və duyum tələb edən bu metoddan həm də Azərbaycan dili dərslərində onun səmərəliliyini yüksəldən bir vasitə kimi istifadə olunur.

Məktəb təcrübəsində fonetik, leksik və qrammatik təhlil nümunələri ilə müqayisədə etimoloji təhlilə az müraciət edilsə də, dərsin canlı təşkilində, şagirdlərin qaldırılan problemlərə maraq hissinin güclənməsində onun rolu əvəzsizdir. Məhz bunu nəzərə alaraq Firuz Rəhimov alınma mənşəli sözlərin, xüsusən linqivistik terminlərin mənimsənilməsində, Akif Məmmədov şagirdlərin orfoqrafik vərdişlərinin inkişafında, Fərrux Həsənov bəzi çətin sözlərin qavranılmasında etimoloji təhlilin müstəsna əhəmiyyət kəsb etdiyini metodik baxımdan əsaslandırmışlar (4; 6; 7). Müşahidələrimiz göstə-rir ki, bəzi dərslik müəllifləri də etimoloji təhlilin bu imkanlarını düzgün dəyərləndirərək bir çox sözlərin məna və tərkibcə açıqlanmasında ondan yeri düşdükcə yararlanmışlar. Xüsusən A.Axundov və B.Əhmədovun son dövrlərə qədər istifadədə olan dərsliklərində bu, sistemli səciyyə daşıyır, yalnız nəzəri materialların şərhində deyil, çalışmaların mətnində də mütəmadi şəkildə əksini tapır (bax: 2, 29-30).

Dilin məna baxımından ən tutarlı vahidi kimi sözün tarixi yanaşmada öyrənilməsinə xidmət edən etimoloji təhlil haqqında hazırkı X sinif “Azərbaycan dili” dərsliyinin etimologiya ilə bağlı yarımbaşlığında yığcam məlumat verilir və nümunələr əsasında mahiyyəti açıqlanır (3, 25-26).

Ayrı-ayrı sözlərin tarixi inkişafını son dərəcə sıxılmış variantda şagirdlərə çatdıran etimoloji təhlil nümunələri ilə bağlı metodik işləmələrin azlığı isə təlim prosesində müəyyən problemlər yaradır və ondan istifadəni minimum həddə endirir. Doğrudur, bu həm də etimoloji təhlilin özünün çətinliyi ilə əlaqədardır, lakin sinif səviyyəsinə uyğun məlumatlandırıcı şərhlərdən məqamında istifadə bu metodun elə də çətin olmadığını, əksinə, şagirdlərdə dil dərslərinə böyük maraq oyatdığını üzə çıxarır.

Bu bir gerçəklikdir ki, ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin başlıca məqsədi şagirdlərin nitq mədəniyyətini formalaşdırmaqdır. Öyrədilən dil qaydaları və çalışmaların məzmunu məhz bu məqsədə yönəlmişdir. Nitq mədəniyyəti mücərrəd anlayış olmayıb, şagirdlərdə düzgün tələffüz və yazı vərdişlərinin yaranması, onların zəngin lüğət ehtiyatına yiyələnməsi, cümlə və ən əsası, rabitəli mətn qurmaq bacarıqlarının formalaşması deməkdir. Aydındır ki, nitqin zənginliyi sözün mənasına bələdlikdən başlayır. Şagirdlərin böyük əksəriyyəti mənasını dərk etmədikləri sözü işlətməkdən çəkinir ki, bu da onların lüğət ehtiyyatını kasadlaşdırır.

Nitqin aydın və təsirli olması sözün çəkisindən asılıdır. Söz isə dilin ən çevik, tarixi inkişafa həssas reaksiya verən vahididir. Hər bir sözün özünə məxsus yaşam tarixçəsi var. Bəzi sözlər dəyişərək tanınmaz şəkil alır, bəziləri işləklikdən düşərək dilin arxaik fonduna keçir, bəziləri isə hansısa yeni sözün tərkibində daşlaşaraq gizli formada yaşamağa davam edir.

Metodikada belə bir baxış vacibdir ki, şagirdə tanış olmayan söz mənaca açıqlanmalıdır. Buna müəllimin şərhi, şagirdin müstəqil işi yolu ilə nail olmaq mümkündür. Burada daha çox müraciət edilən izahlı lüğətlərin rolu danılmazdır. Lakin sözün tərkibcə araşdırılaraq, qavranılmasını təmin edən etimoloji təhlil şagirdləri müstəqilliyə, yaradıcılığa, məntiqi düşünməyə sövq edən iş üsulu kimi daha effektivdir. Çox təəssüf ki, bu istiqamətdə müəllimə yardımçı olan

linqivistik mənbələr də yetərli deyil. Bu baxımdan prof. B.Əhmədovun dərin müşahidələrin nəticəsi kimi ərsəyə gəlmiş "Azərbaycan dilinin qısa etimoloji lüğəti" adlı əsəri dil müəllimlərimiz üçün böyük bir xəzinədir. Dilimizin lüğət ehtiyatının əsasını təşkil edən yüzlərlə sözün mənşəcə açıqlanması onlara zəngin material verməklə dərsi daha canlı, yaradıcı qurmağa istiqamətləndirir. Bu lüğətin üstün cəhətlərindən biri budur ki, müəllif daha çox türk mənşəli sözlərin mənşəyini araşdırmaqla indiyə qədər mübahisəli görünən yozumlara bir aydınlıq gətirmişdir. Bizcə, bu dəyərli lüğətin üzərində müəyyən uyğunlaşdırma əməliyyatı aparıb "Məktəblinin etimoloji lüğəti" adı altında şagirdlərin ixtiyarına vermək olar və bundan ilk növbədə cəmiyyətin özü qazanar, çünki etimoloji təhlil həm də şagirdlərdə dilə sevgi və qayğı aşılayan tərbiyə vasitəsidir. Dilimizin təmizliyini yalnız o zaman qorumaq mümkündür ki, şagirdlərdə buna inam yaradılsın, onlarda məsuliyyət hissi formalaşsın. Şagird anlamalıdır ki, mənsub olduğu bir xalqın nümayəndəsi kimi o, yüz illiklərin sınağından çıxıb özünə məxsus keyfiyyətləri ilə günümüzə qədər gəlib çatmış ana dilimizin daşıyıcısı və qoruyucusudur. Nitqdə yersiz alınmalardan, yad dillərə məxsus qondarma sözlərdən istifadə dilimizi zibilləyir. Odur ki, bir vətəndaş kimi hər bir şagird nitqinin təmizliyinə fikir verməli, hətta başqalarında rast gəldiyi bu tipli kobud nöqsanlara qarşı mübarizə aparmalıdır. Buna görə də sözlərin mənşəyi ilə bağlı onun məlumatı olmalı, milli sözlərimizi alınma sözlərdən fərqləndirməyi bacarmalıdır. "Leksika" bəhsinin tədrisində bu məsələyə bir neçə saat ayrılmasına baxmayaraq, verilən bilgilərlə kifayətlənmək olmaz. Müəllim hər bir mövzunun tədrisi zamanı lüğət üzrə işə xüsusi yer ayırmalı, lazım gəldikdə, sözlərin tarixinə ekskursiya kimi ümumiləşdirilən etimoloji təhlil nümunələrindən bəhrələnməlidir. Buna xüsusilə müasir dil baxımından sadə olub, formaca düzəltmə söz modeli təsiri bağışlayan sözlərin

mənimsədilməsində ehtiyac duyulur. Fikrimizi faktlar əsasında açıqlayaq.

Tələbə Qəbulu Komissiyasının hazırladığı test tapşırıqlarına istinad edən fənn müəllimləri eyni formada olan "boğanaq" və "tozanaq" sözlərini düzəltmə söz kimi mənimsədir və bu zaman diqqəti daha çox -anaq qeyri-məhsuldar şəkilçi üzərinə yönəldirlər. Sözü tərkibinə görə təhlil edən şagird belə bir qənaətə gəlir ki, -anaq həm "boğ(maq)" felindən, həm də "toz" ismindən söz düzəltmək funksiyasına malikdir. Etimoloji araşdırma bunu formal yanaşmanın bariz nümunəsi kimi dəyərləndirir. Doğrudur, hər iki halda söz kökləri ilə yeni yaranmış sözlər arasında bir məna yaxınlığı duyulur və "tozanaq" sözünün də müasir dil baxımından düzəltmə hesab edilməsi bununla bağlıdır. Əslində isə "tozanaq" sözü "toz" ismindən deyil, "boğanaq", eləcə də "dəyənək", "döyənək" sözləri kimi fel kökündən, M.Kaşğari lüğətində "toz qoparmaq, toz etmək" mənasında müstəqil söz kimi qeydə alınmış "toz(maq)" felindən (5, 563) yaranmışdır. Bu etimolji şərh şagirdin çaşqınlığını aradan qaldırmış olur, yəni eyni şəkilçinin (mənşə baxımından müxtəlif olub, omonimlik təşkil edən şəkilçilər istisnadır) həm fel, həm də isimdən isim düzəltmək funksiyasının mümkünsüzlüyünü təsdiq edir.

Fikrin daha tutarlı çatdırılması üçün belə bir əlavə şərhdən faydalanmaq olar.

Dilimizin ilkin formalaşma mərhələsində eyni sözün həm fel, həm də ad kimi çıxış etməsi bir qanunauyğunluq kimi özünü göstərir. Müasir dilimizdə bəzi sözlərin omonim kimi həm hərəkət, həm də adı bildirməsi bu qədim dil hadisəsinin qalığıdır. Məsələn: saç - saç(maq), yay - yay(maq), köç - köç(mək), say - say(maq) və s. Bu aspektdən yanaşdıqda "toz" və "toz(maq)" sözləri də, görünür, vaxtilə fel-ad korrelyativliyi təşkil etmiş, lakin dilimizin sonrakı inkişaf mərhələsində işləklikdən düşərək daşlaşmış şəkildə "tozanaq" sözünün tərkibində yaşamaqdadır. Buna görə də "tozanaq" sözünün

müasir dil baxımından düzəltmə söz kimi öyrədilməsi yalnışdır və dildaxili qanunauyğunluq ziddir.

Şagirdlərdə maraq doğuran sözlərdən biri də *gözətçi* sözüdür. Bəzi şagirdlər bu sözün formasına uyaraq düzəltmə lüğəvi vahid kimi təhlil edirlər. -çi şəkilçisinin ayrıca morfem kimi çıxış etməsinə baxmayaraq, "gözətçi" sözünü tərkib hissələrinə ayırmaq yolverilməzdir. Bu məqamda da etimoloji təhlil problemin həlli yoluna işıq salır. Tarixi baxımdan "gözətçi" sözü "arabaçı", "dənizşi", "ləpirçi" tipli sözlər kimi morfoloji yolla yaranmış sözlərimizdəndir. Sadəcə, bu sözün kökü öz müstəqilliyini digərləri ilə müqayisədə qoruyub saxlaya bilməmişdir. Lakin digər türk dillərində "qaravul" anlamında işlənən "gözət" sözünün mövcudluğu onun da eyni üsulla yarandığını göstərir. Bu açım şagirdə sözün keçdiyi formalaşma yolunu anlamağa kömək etməklə bərabər, onu müasir baxımdan sadə söz qrupuna aid etməyə əsas verir.

Mübahisəli faktların bu şəkildə şərhi tarixən kökdaş olan bəzi sadə sözlərin assosiativ tərzdə qavranılmasına gətirib çıxarır. Məsələn, dilə həssaslıqla yanaşan əksər şagirdlər "gizli" və "gizlə(mək)" sözlərinin eyni məna əsasında yarandığını güman edirlər. Onlar hətta -li və -lə şəkilçilərinin funksiyasına əsasən bu arxaik kökün isim olduğunu irəli sürürlər. Belə məqamlarda müəllimin istinad etdiyi adi bir fakt şagirdlərin düzgün mülahizə yürütdüklərini qüvvətləndirir.

Ulu dilçi M.Kaşğari sözlüyündə "kiz" fonetik variantında qeydə alınmış həmin arxaik kök *qutu, mücrü, qab, heybə* və s. kimi nə isə saxlamaq üçün istifadə olunan əşyaları adlandırır (5, 307). "Gizli" və "gizlə(mək)" sözləri də bu kökdən qaynaqlanaraq düzəlmişdir. Etimoloji təhlil müəllimdən dərin biliklə yanaşı, metodik ustalıq da tələb edir. Müəllim ziddiyyət doğuran etimoloji açımlardan qaçmalı, yalnız inandığı və inandırmağı bacardığı mülahizələrə söykənməlidir.

Əsas təhsil pilləsində şagirdlərə verilən bu tipli etimoloji təhlil nümunələri X sinifdə nisbətən genişlənir və tez-tez müraciət olunan vasitələrdən biri kimi diqqəti çəkir. Bunu dərsliyin məzmunundan da duymaq mümkündür. Məsələn, "Az getdi, uz getdi, dərə, təpə düz getdi" söyləməsində işlənmiş "uz" arxaizminin "uzun" və "uzaq" sözləri ilə əlaqələnməsi buna əyani misaldır (3, 55). Odur ki, dərslik müəlliflərinin bu düşüncələri təlim prosesində müəllimlər tərəfindən davam etdirilməlidir. Bunun üçün çalışmaların mətnində getmiş türk mənşəli sözlərin açımı onlara zəngin material verir. Məsələn, böyük söz ustadımız Nəsiminin:

"Doğruyan eşqimdə ox tək, kipriyin tanıq durur,
Qəddimi neyçün kəman etmək dilərsən, etməgil"

beytindəki "tanıq" arxaizminin açımı onun mənaca daha aydın qavranılmasına səbəb olur. Şagird kitabdakı şərhə əsasən onun dilimizin sonrakı inkişaf mərhələsində ərəb mənşəli "şahid" sözü ilə əvəzləndiyini müəyyənləşdirir. Müəllim izah etdikdə ki, "tanıq" ismi "məsləhət etmək, tövsiyə etmək; işarə etmək" mənasını daşımış arxaik "tanı(maq)" felindən (5, 505) -q ad düzəldən şəkilçisinin köməyi ilə yaranıb, onda şagird bu arxaizmin mənasını həm tanıyır, həm də yaddaşına həkk edir.

Həmin dərslikdə Ş.İ.Xətaiyə məxsus:

"Üstümüzdə yol uğratdın,
Gövhər aldın, gövhər satdın.
Ərliyini isbat etdin,
Dədəm, xoş gəldin, xoş gəldin"

Şeir bəndindəki "ərlik" arxaizminin etimoloji açımı da dərsə isti nəfəs verir, şagirdləri fəallaşdırır, düşünməyə məcbur edir. Bəzi

şagirdlər özləri müəyyənləşdirirlər ki, *ər* və -*li*k morfemlərinə ayrılan bu söz *igidlik* anlamındadır və onun kökü *igid* mənasında işlənən *ər* sözüdür.

Təbii ki, bu nümunələrin sayını artırmaq mümkündür. Müşahidələrimiz göstərir ki, etimoloji təhlil nümunələri klassik ədəbiyyatımızın tədrisi ilə əlaqələndikdə daha inandırıcı səslənir və bu da öz növbəsində şagirdlərin lüğət ehtiyatının zənginləşməsinə imkan yaradır.

9. “Kitabi-Dədə Qorqud”un tədrisi ilə bağlı bəzi qeydlər

“Kitabi-Dədə Qorqud”un 1300 illiyi ilə əlaqədar keçirilən möhtəşəm yubiley tədbirləri bir daha sübut etdi ki, ulu əcdadlarımızın qəhrəmanlıq tarixini bədii sözün ecazkar qüdrətilə əbədiləşdirən bu əvəzsiz sənət əsəri bütün nəsillər üçün örnək götürüləsi həyat, həmişəyaşar fikirlər mənbəyidir. Odur ki, torpaqlarımızın işğalçıların ayaqları altında inlədiyi hazırkı mərhələdə yetişməkdə olan gəncliyin mili-mənəvi dəyərlərə uyğun tərbiyə olunmasında böyük rol oynayan bu abidənin ümumtəhsil məktəblərində tədrisi diqqət mərkəzindədir.

Metodik ədəbiyyatın və məktəb təcrübəsinin təhlili göstərir ki, abidənin tədrisi vəziyyəti arzuolunan səviyyədə deyil. Doğrudur, “Kitab”ı təşkil edən ayrı-ayrı boyların məzmunu işləmələr şəklində müxtəlif siniflərdə şagirdlərə çatdırılır, IX sinifdə isə şifahi xalq ədəbiyyatımızın monumental bir əsəri kimi formalaşma, yazıya alınma, üzə çıxarılma və tədqiqata cəlb olunma məsələləri ilə yanaşı, “Qazan xanın evinin yağmalanması boyu” nümunəsində məzmun, ideya və bədii sənətkarlıq xüsusiyyətlərini özündə birləşdirən ayrıca bir mövzu kimi tədris olunur. Lakin eposun tədrisi keyfiyyət baxımından təkmilləşdirilməyə möhtacdır. Bu, ilk növbədə, abidənin mətni üzərində iş prosesinə aiddir.

Məlumdur ki, “Kitabi-Dədə Qorqud” müqəddimə və 12 boydan ibarətdir. Ulu Qorqudun şəxsiyyəti ilə bağlı qısa məlumatı və ona məxsus deyimləri əks etdirən “Müqəddimə” ilə tanış olmadan abidənin milli təfəkkürümüzün formalaşmasındakı tarixi qaynaq rolunu şagirdlərə yetərincə aşılamaq çətindir. Oğuz elinin bilicisi Dədə Qorqudun müdrikliyi, böyüklüyü bu kəlamlarda daha parlaq duyulur:

Allah-Allah deməyincə işlər onmaz.
Qadir Tanrı verməyincə ər bayımaz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
Əcəl vədə irməyincə kimsə ölməz.
Ölən adam dirilməz, çıxan can gerü gəlməz.
Ulaşıban sular daşsa, dəniz domaz
Təkəbbürlük eyləyəni Tanrı sevməz.
Könlün yuca tutan ərdə dövlət olmaz.
Yad oğlunu saqlamaqla oğul olmaz,
Böyüyəndə salur gedər, gördüm diməz (4, 36).

Bu deyimlərin siqləti, kəsb etdiyi məna Qorqud düşüncəsinin ruhumuza, mənəvi dünyamıza nə qədər dərindən işlədiyini bir daha üzə çıxardır. Əfsuslar olsun ki, şagirdlərimiz uzun illər bu hikmət mənbəyindən məhrum edilmiş, dərsliklərdən bir-iki nümunə oxumaqla kifayətlənməli olmuşlar.

Qeyd edildiyi kimi, "Qazan xanın evinin yağmalanması boyu" məktəbdə ətraflı öyrədilir. Vaxtilə H.Araslı günümüz üçün də optimal görünən yol tutmuş, boyun əsl mətni ilə yanaşı, müasirləşdirilmiş variantını da verməklə abidənin milli koloritini, tarixi dil və özünəməxsus bədii xüsusiyyətlərini şagirdlərə çatdırmağa çalışmışdır. İllər boyu təcrübədə özünü doğrultmuş bu üsuldan imtina etmək deyil, onu qorqudşünaslığın qazandığı nailiyyətlər əsasında təkmilləşdirmək, zənginləşdirmək lazımdır. Müasirləşdirilmiş mətn nə qədər effektli görünsə də, bəzən əsl mahiyyəti tam ifadə etmir. Əsas mətnlə tanışlıq çox zaman şagirdləri müstəqilliyə, axtarıcılığa sövq edir. Bu iki variantın müqayisə edilməsi dilimizin keçdiyi inkişaf yolu, leksik-semantik layı və qrammatik quruluşunda baş verən dəyişikliklər haqqında şagirdlərin Azərbaycan dili dərslərində əldə etdikləri biliklərinin dərinləşməsinə

praktik zəmin yaradır, müəllimlərin təlim metodlarından istifadə potensialını genişləndirir.

Təhlil göstərir ki, dərslikdə yalnız müasirləşdirilmiş mətnin verilməsi boydakı bəzi hadisələrin, onun baş qəhrəmanlarının xarakterik cizgilərinin təhrif olunmuş şəkildə şagirdlərə çatdırılmasına şərait yaradır. Bu, ilk növbədə, çevirmənin bəzən reallığı əks etdirməməsi faktoru ilə bağlıdır. Bu qədim abidənin həm elmi, həm də kütləvi şəkildə yayımlanmasında akademik H.Araslının xidmətləri ölçüyəgəlməzdir. Bununla belə, onun oxunuş və yozum variantları bəzi məqamlarda qorqudşünaslığın müasir inkişaf səviyyəsi baxımından nöqsanlıdır və göstərilən iradlar da buradan irəli gəlir. Məsələn, əsl mətndə oxuyuruq:

"Məgər, xanım ol gecə Qalın Oğuzun dövləti, Bayındır xanın güyəgisi, Ulaş oğlu Salur Qazan qara qayğılı vaqiə gördi. Sərmərdi uru durdı, aydır: "Bilirmisin, qarındaşım Qaragünə, düşümdə nə görindi? Qara qayğulu vaqiə gördüm, yumruğunda tapınan şahin bənim quşum alur gördüm, gögdən ildırım ağ-ban evim üzərinə şaqır gördüm, düm qara pusarıq ordumun üzərində tökülür gördüm, quduz qurtlar evimi dələr gördüm, qara dəvə ənsəmdən qavar gördüm, qarğu kimi qara saçı uzanır gördüm, uzanıban gözümi örtər gördüm, biləgindən on barmağımı qanda gördüm. Necə kim bu düşi gördüm, şundan bərü ağlım ussun dərə bilmən. Xanım qardaş, mənim bu düşümi yorgil manna!" – dedi. Qaragünə aydır: "Qara bulut dedigin sənin dövlətindir. Qar ilə yağmur dedigin ləşkərindir. Saç qayğudur. Qan qaradır. Qalanların yora bilmən, Allah yorsun" – dedi" (4, 47).

Bu mətn parçası çevirmədə belə verilmişdir: "O gecə Qalın Oğuzun dövləti, Bayındır xanın kürəkəni, Ulaş oğlu Salur Qazan qara-qura yuxu gördü. Diksindi, yuxudan ayıldı.

Dedi:

– Bilirsənmi, qardaşım Qaragünə, yuxumda nə gördüm? Qara-qara yuxu gördüm. Gördüm ki, Sar quşu caynağında şahinimi aparır.

Göydən ildırım axıb evimin üstünə şığıyır. Qapqara covğun yurdumun üstünə tökülür. Quduz qurtlar (dərslikdə səhvən "evlər" getmişdir – A.Hacıyev) evimi deşir. Qara dəvə alnımı dəlir. Qara saçım qarğı kimi uzanır. Gördüm ki, on barmağım biləyimdən qandadır. Elə ki, bu yuxunu gördüm, o zamandan bəri ağlımı, huşumu bir yerə yığa bilmirəm. xanım qardaş! Mənim bu yuxumu yoz.

Qaragünə dedi:

– Qara bulud sənin dövlətindir. Qar ilə yağış ləşkərindir. Saç qayğıdır. Qan qaradır. Qalanını yoza bilmirəm, allah yozsun" (2, 39).

Sadə müqayisədə müasir dilimizdə işlək, anlaşıqlı olan "ənsə" sözünün "alın", "dələr" sözünün "deşər" kimi verilməsi etiraz doğurur. Həmin parça F.Zeynalov-S.Əlizadə nəşrində aşağıdakı kimi çevrilmişdir: "Sən demə, xanım, o gecə Qalın Oğuzun dayağı, Bayındır xanın kürəkəni, Ulaş oğlu Salur Qazan yuxuda qarma-qarışıq əhvalat gördü, hövlnak ayağa durdu. Dedi: "Qardaşım Qaragünə, bilirsənmi yuxumda nə göründü? Qara-qayğılı əhvalatlar gördüm. Gördüm ki, yumruğumda bir şahin çırpınıb quşumu əlimdən alır. Hündür evimin üzərinə göydən ildırım çaxdığını gördüm. Quduz qurdların evimi dəldiyini gördüm. Qara dəvənin ənsəmdən qapdığını gördüm. Gördüm ki, qara saçım qarğı kimi uzanır, uzandıqca gözümü örtür. Əllərimdə on barmağımı qan içində gördüm. Bu uxunu görəndən bəri ağlımı-huşumu yığa bilmirəm. xan qardaşım, mənim bu yuxumu yoz mənimçin!"

Qaragünə dedi: "Qara bulud dediyin sənin taleyindir. Qan ilə yağmur dediyin sənin qoşunundur. Saç qayğıdır, dərd-sərdir. Qan qanqaralıqdır. Qalanını yoza bilmirəm, allah yozsun" (3, 142).

Sözsüz, bu çevirmənin daha uğurlu alınması göz önündədir. Bununla belə, abidənin dilində işlənmiş "dövlət" sözünün hər iki variantda dəqiq çevrilmədiyi müşahidə olunur. Əgər H.Araslı həmin sözü hər iki məqamda "Qalın Oğuz dövləti", "Qara bulud dediyin

sənin dövlətindir” kimi müasir dilimizdə kəsb etdiyi mənada çevirmişdirsə, F.Zeynalov-S.Əlizadə nəşrində birinci məqamda “dayaq”, ikinci məqamda isə “tale” kimi müxtəlif mənalarda çevrilmişdir. Araşdırmalarsa göstərir ki, bu arxaik söz abidənin dilində yalnız bir dəfə “var-dövlət” mənasında (“Toğlıcıqlar, dövlətim saqar qoç, gəl keç! – dedi. 4, 92), digər hallarda isə “düşüncə, ağıl” mənalarında işlənmişdir. Məsələn:

Könlün uca tutan ərdə dövlət olmaz.
Oğul atanın yetiridir, iki gözünün biridir,
Dövlətli oğul qopsa, ocağın közidir
Oğul daxi neyləsün baba ölüb mal qalmasa.
Baba malından nə faidə, başda dövlət olmasa.
Dövlətsiz şərrindən Allah saqlasın xanım, sizi!
Ata adın yurində dövlətlü oğul yeg (4, 36).
Dövlətiniz payəndə olsun, xanım hey! (4, 37)
Qutlu olsun dövlətiniz! (4, 63)
Qazan aydır: “Dəli ozan, dövlətin dəpdi!” (4, 63) və s.

Gətirilən nümunələrdə ərəb mənşəli “dövlət” sözünün məhz “düşüncə” mənalarında işləndiyi şübhəsizdir. Dilimizin sonrakı inkişaf mərhələsində bu arxaik mənasını itirən “dövlət” sözü abidənin dilinə həmin mənanı ifadə edən daha qədim türk mənşəli “sağınc” sözünü (“Sağlıq ilə sağıncın, dövlətin haq artınsun” – 4, 45) əvəzləməsi yolu ilə düşmüşdür. Qazan xanı xarakterizə etmək üçün “Qalın Oğuzun dövləti” ifadəsində də bu məna əks olunmalıdır. Belə ki, yalnız tutduğu vəzifəyə görə deyil, həm də düşüncə tərzinə görə digər oğuz qəhrəmanlarından seçilən Qazan xan Qalın (qüdrətli) Oğuzun düşünən beyni kimi təqdim olunur. Növbəti cümlədə isə qardaşının yuxusunu yozan Qaragünə onun düşüncəsinin qarışıq

olduğuna işarə olaraq “Qara bulud dediyin sənin düşüncəndir” fikrini söyləmək istəyir.

Gətirilən mətn parçasında “Yumruğumda talbınan şahin bənim quşumu alır gördüm” cümləsi üzərində də bir qədər ətraflı dayanaq. Boyların məzmunu göstərir ki, oğuz igidləri ov ovlamağı çox xoşlayırlar. Buna gör də alıcı quşları – şahinləri əhliləşdirərək qollarına geyindikləri xüsusi qolçaqlar üzərində saxlayırlar. Mətndən aydın olur ki, bu quşlar həm də onların hakimiyyətlərinin rəmzidir. Elə buna görə də Qazan xan yumruğunda çapalayan digər şahinin onun quşuna hücum etməsindən narahatdır. Bu narahatlığın əsası var. Çünki qolçağına qondurarak saxladığı bu quş adi quş deyil, onun tayfasının tapındığı onqondur. Digər bir şahinin Qazanın quşuna hücum etməsi onun hakimiyyəti, eli, dövləti üzərinə çökən təhlükədən xəbər verir. Bu səbəbdən də gördüyü yuxudan təşvişə düşən Qazan ovunu yarımçıq qoyaraq yurdu üzərinə çaparaq qayıdır (Bu, yurdu dağılmış vətən oğulları üçün görk olası səhnədir. Buradan həm də qədim oğuzların yuxuya böyük önəm verdikləri, ona sidqi-ürəklə inandıqları üzə çıxır. Bu mənada uşaqlarımızı qədim inanclarla tanış etməyə dəyər).

H.Araslı çevirməsində “ordu” sözünün də mətn kontekstində ifadə etdiyi qədim məna çalarında deyil, müasir mənaya uyğun verilməsi aydınlaşır. Bu, boyun sonluğunda Qazan xanın düşmənə qalib gələrək yurduna-yuvasına dönməsi səhnəsində üzə çıxır. “Qazan bəy ordusunu, oğlunu, uşağını, xəzinəsini aldı, geri döndü” (2, 47). Belə məlum olur ki, Qazan xanın ordusu da düşmənə əsir düşmüşdür. Həqiqətdə isə “ordu” özü daha arxaik mənada işlənərək, oğuzların çadırdan qurulmuş yurdlarını toplum şəklində ifadə edir. Boyun başlanğıc hissəsində bu arxaizmin göstərilən mənada işlənməsi əlavə şərh verilmədən də duyulur. “Yedi bin qaftanının ardı yırtıxlu, yarımından qara saçlu, sası dinlü, din düşməni, alaca atlu kafir bindi yılğadı, dün bucuğında Qazan bəgin ordusuna gəldi”

(4, 46). Maraqlıdır ki, H.Araslı artıq bu məqamda "ordu" sözünü mətnin məzmunu ilə uzlaşan "ev" sözü ilə açıqlamışdır (2, 37). Dil faktlarına belə sistemsiz yanaşma son nəticədə çevirmənin xeyli qüsurlu olmasına şərait yaratmışdır.

Qeyri-dəqiq çevirmə bəzən həqiqətin tamam əksini ortaya qoyur. "Qazan xanın evinin yağmalanması boyu"nda igid, qorxmaz, mətanətli, əzmkar bir obraz kimi təsvir olunan Qaraca çobanın Qazan xana söylədiyi aşağıdakı parçada az qala uşaq qatili olması ilə fəxr edir:

Qonur atını ver mənə!
Altmış tutam toppuzunu ver mənə!
Apalaca qalxanını ver mənə!
Qara palıd qılıncını ver mənə!
Ağ tozlu bərk yayını ver mənə!
Düşmənə mən hücum edim.
Yeni doğanlarını mən öldürüm (2, 42-43).

Sonuncu misraya fikir verin. Demə, Qaraca çoban yenicə doğulan düşmən uşaqlarını da öldürməyə hazırdır. Şagirdlərimizin sevə-sevə igidliyini təqlid etdikləri, hünərindən bəhrələndikləri bir obraz üçün çox ağır və bağışlanılmaz xüsusiyyətdir. Bu çevirmədə ümumən xalqımız üçün mənfi imic qazanmırıqmı? Əslində basdığını kəsməyən, günahsızları bağışlamağa həmişə hazır olan oğuz igidləri, o cümlədən Qaraca çobana bununla şər atırıq. Əsl nüsxədə "Yeňidən toğanın mən oldürəyin" (4, 49) kimi getmiş cümlənin bu variantda çevrilməsi tarixi dil faktlarına sərbəst münasibətdən irəli gəlir. "Yen" arxaik söz olub döyüş zamanı biləklərə bağlanan qolçaqları adlandırır, "toğan" isə "şahin" deməkdir. Qaraca çoban bu cümlə ilə uşaqları öldürməsindən deyil, düşmənin hakimiyyət simvolu olub qolçağına qondurduğu şahinini öldürməsindən söz açır. F.Zeynalov-

S.Əlizadə nəşrində bu, beləcə də verilmişdir: “Gedim kafirin qolundakı şahinini öldürüm” (3, 144). Göründüyü kimi, dərslikdəki mexaniki çevirmə variantını saxlamaq təkcə obrazın alçaldılmasına deyil, həm də vətən sevgisi ilə yoğrulmuş bu ölməz qəhrəmanlıq dastanının ziyanına işləyir.

Qaraca çoban düşmənə nifrətlə söylədiyi “Mərə, dini yoq, ağılsız kafir! Ussu yoq, dərnəksiz kafir!” (4, 51) misrasından ikincisinin “Ağlı yox, biliksiz kafir!” kimi çevrilməsi də (2, 45) səhvdir. Boyun məzmunundan məlum olur ki, oğuzlar özləri müsəlman, düşmənləri isə ya büdpərəst, ya da xaçpərəstdirlər. Qaraca çoban bu deyimdə düşmənlərini dinsizlikdə qınayır. Dinsizlərin isə nə ağılı, nə toplantısı, nə də dini rəhbəri olar. Əgər “dərnək” arxaizmi “yığıncaq, toplantı, məclis” anlamlarında işlənmişsə, “us” sözü “ruhani ağa”, “dini başçı” mənalarında açıqlanmalıdır. Doğrudur, “us” arxaizmi tarixən “ağıl” mənasını əks etdirmişdir, lakin bu cümlədə “is” arxaizminin fonetik variantı kimi getmişdir. Boyların birində Dədə Qorqud “vilayət issi” (4, 56) kimi, yəni “vilayətin ruhani ağası” kimi təqdim olunur. Qaraca çoban da dinsiz kafirə bu fikri aşılamaq istəmişdir.

Üzərində dayandığımız digər faktlar da göstərir ki, qorqudşünaslığın müasir durumundan yanaşdıqda H.Araslı çevirməsi xeyli nöqsanlıdır və dərs vəsaitinin növbəti nəşrlərində daha optimal variant seçilməlidir. Təbii ki, müasirləşdirmə prosesində yenə də nöqsanlar ortaya çıxa bilər. Deməli, əsl mətnin verilməsi ən düzgün seçimdir və bu üsul yenidən bərpa edilməlidir.

Təhlil göstərir ki, abidənin dilində işlənmiş bəzi ifadələrin şagirdlərə mənimsədilməsində əlavə şərhlərə ehtiyac duyulur. Tarixi gerçəkliyi əks etdirən belə ifadələri müəllim və şagirdlərimizə çatdırmaq olduqca faydalıdır. Yekunda açıqlanması maraq doğuran bir ifadəni – “tulu quşun yavrusu” deyimini şərh etmək istərdik.

“Kitab”da “Ulaş oğlu”, “bezə miskin umudı”, “Amıt soyunun aslanı”, “Qaracuğın qaplanı”, “qonur atın iyəsi”, “Xan Urusun ağası”, “Bayındır xanın göygüsı”, “Qalın Oğuzun dövləti”, “Türküstanın dirəgi”, “qalmış yigit arxası” kimi bədii təyinlərlə təqdim edilən Qazana aid ifadələrdən biri də belə getmişdir. Əsərin baş qəhrəmanı Qazan xanın soykökünü, əsil-nəcabətini, yerini, yurdunu, cəmiyyətdə tutduğu mövqeyini xarakterizə edən həmin ifadələr içərisində bu birləşmənin mifik görüşlərə bağlandığı duyulmaqdadır. Görünür, elə buna görə də “tulu quş” adının açımı ilə əlaqədar qəti fikrə gəlinməmişdir.

“Tulu” adını “tülü” şəklində oxuyan Ergin onu “yırtıcı bir quşa” verilən “atmaca” kimi şərh etməklə kifayətlənmişdir. Sözün oxunuşunda M.Ergin variantına üstünlük verən S.Əlizadə seçimini “Azərbaycan dilində “tülək” (alıcı quşun adı tülək tərlan) ilə səsləşdiyi üçün inandırıcı görünür” deməklə əsaslandırmağa çalışmışdır (3, 231). “Tülək” sifətinin “tülü” oxunuş variantının irəli sürülməsində mühüm rol oynasa da, konkret hansı quşu adlandırması və nə üçün Qazan xana aid edilməsi burada da açıq saxlanılmışdır.

“Kitabi-Dədə Qordud Ensiklopediyası”nda “tülü” oxunuşunda verilmiş bu sözün “tüklü” kimi izahı da (4, 203) məsələyə aydınlıq gətirmir. Digər qorqudşünasların, o cümlədən H.Araslının “tulu” variantında oxuduğu bu sözü türk mifik təfəkkürünün işığında şərh edən M.Seyidov onu ulu dağa inancın zoomorfik ifadəsi kimi qəbul edərək yaranmasını və mənasını belə verir: “Tulu” – “tu” və “ulu” sözlərindən yaranmış mürəkkəb sözdür. “Tu” bir çox türk dillərində “dağ” deməkdir. “Ulu” isə, bəllidir ki, “böyük”, “uca” mənasındadır. “Tu” (dağ) ilə “ulu” (böyük, uca) birləşərək “u” səslərindən biri düşmüş və söz “tulu” fonetik biçimindədir. “Tulu” – “uca, böyük dağ” deməkdir (6, 111).

Bu etimoloji şərhin və məna yozumunun aşağıdakı dil faktları ilə özünü doğrultmadığı aydınlaşır. Birincisi**,** türk dillərinin morfoloji

quruluşu mürəkkəb isimlərin yaranmasında belə bir modeli, yəni sifətin təyinlənən sözdən sonra heç bir qrammatik şəkilçisiz işlənməsini qəbul etmir (müq. et: qaraquş, sarıköynək, alabaxta və s.). Elə buna görə də müəllif sıralanmada "dağ" və "böyük, uca" kimi açıqladığı sözləri "dağ böyüyü, ucası" kimi deyil, "uca, böyük dağ" kimi verməyə məcbur olmuşdur.

İkincisi**,** quşa "uca, böyük dağ" deyilməsi, hətta mifik görüşlərə əsaslanılsa belə, türk dillərində quşlara verilən ad sisteminə yaddır. Bütün bunlara baxmayaraq, görkəmli mifoloqun "tulu" sözünü "salur" sözü ilə müvazi araşdırması və onlar arasında müəyyən əlaqənin olduğunu duyması diqqətəlayiq müşahidədir. İrəlidə görəcəyimiz kimi "tulu" sözünün açımında məhz "salur" sözü açar rolunu oynayır.

M.Seyidov "tulu" sözünə verdiyi etimoloji araşdırmaya istinad edən B.Abdulla onu "dünyanın ən böyük, yüksək dağında yaşayan", "mifoloji məkanı "Qaf" dağı" sayılan Simurq quşu ilə eyniləşdirmişdir (1, 61).

Araşdırmalar göstərir ki, "tulu quşun yavrusu" ifadəsi Qazan xanın mənsub olduğu tayfanın onqonunu – quşunu bildirməyə xidmət edir. Mənbələrdə oğuzların 24 tayfa birliyi əsasında formalaşdığı və hər tayfanın gücünü rəmzi şəkildə əks etdirən öz quşu – onqonu olduğu göstərilir. "Salur Qazan" mürəkkəb adında "Salur" sözünün, M.Seyidovun zənn etdiyi şəkildə sifət deyil, oğuz tayfalarından hansına aid olmasını bildirir. Salurların isə alıcı quşlardan sayılan berkuta onqon kimi tapınmaları Əbülqazının "Şəcəreyi-türkmən" əsərində aydınca göstərilmişdir (5, 54). "Tulu quş" adı berkut quşunun arxaikləşərək dildən çıxmış qədim forması olmalıdır. Bu quş adının XIX əsrin əvvəllərinə qədər qırğız və qazaxlar arasında yayıldığı rus tədqiqatçısı A.İ.Levşin tərəfindən qeydə alınmışdır. Odur ki, tulu quşun əfsanəvi bir quş deyil, real bir quş – berkut olması daha inandırıcı görünür. Sözün etimoloji araşdırması da onun alıcı quşlar qrupuna aid olmasını sübuta yetirməyə əsas verir. Belə

ki, “tulu” sözü “toğan”, “toğrul” alıcı quş adları ilə eyni mənbədən törəmişdir. To – toğ – toğan, toğ – toğrul formalaşma yolu keçmiş adlarla müqayisədə “tulu” sözünün də “tu” (“to”nun fonetik variantıdır) – tul – tulu istiqamətində “didmək, parçalamaq, tutmaq, əhatə etmək” mənalı fel kökündən yarandığını söyləmək olar. Bu da həmin quşların funksiyasına uyğundur.

Müşahidələrimiz göstərir ki, mətn üzərində işi düzgün qurmadan hər hansı bir əsərin məzmununu, ideyasını dərindən qavramaq mümkün deyil. Mətnin mənimsənilməsi isə sözlərin, ifadələrin əslinə uyğun dərkindən başlayır. İnanırıq ki, “Kitabi-Dədə Qorqud” kimi əvəzsiz bir əsərin tədrisinə bundan sonra daha geniş yer veriləcək və əsərin əsl mətni həmişə diqqət mərkəzində saxlanılacaqdır.

10. Klassik ədəbiyyatın tədrisində dil tarixi elementlərindən istifadə

Azərbaycan dili və ədəbiyyat dərslərinin qarşılıqlı əlaqədə qurulması hər iki fənnin tədrisini keyfiyyətcə yüksəldən mühüm metodiki amillərdəndir. İstər Azərbaycan dili dərslərində bədii ədəbiyyat nümunələrindən, istərsə də ədəbiyyat dərslərində dillə bağlı materiallardan yerli-yerində, məqsədyönlü istifadə fənnə qarşı şagird marağını səfərbər edir, onlarda bədii və linqvistik duyum formalaşdırır. Metodik ədəbiyyatda bu əlaqə imkanlarının kifayət dərəcədə açıqlanmasına baxmayaraq, müasir məktəb təcrübəsində bəzən elə məqamlara rast gəlinir ki, yeni baxış, yeni yanaşma tələb olunur. Bu, köklü məzmun dəyişikliyinə məruz qalmış ədəbiyyatın, xüsusilə klassik ədəbiyyatın tədrisində daha önəmli əhəmiyyət kəsb edir.

Bədii ədəbiyyat, hər şeydən öncə, söz sənəti abidəsidir. Bu baxımdan sözün tarixi inkişaf prosesində keçdiyi bütün dəyişiklikləri məhz klassik söz ustalarının bədii yaradıcılığını izləməklə müəyyənləşdirmək olar. Eyni zamanda, sənətkarın ifadə etdiyi fikri tutmaq, onun bədii qayəsini anlamaq üçün işlətdiyi hər bir sözün konkret zaman çərçivəsində daşıdığı leksik-semantik məna dəqiqləşdirilməlidir. Elə buna görə də klassik ədəbiyyatımızın tədrisində dil tarixi elementlərindən istifadə qaçılmazdır. Müşahidələrimiz göstərir ki, ədəbiyyat dərslərində lüğətçələr formasında öz əksini tapan bu üsul təlim prosesində mətn üzərində iş və əsərin bədii xüsusiyyətlərinin açıqlanmasında mütəmadi surətdə tətbiq olunmaqla müəllim və şagird şərhinin aparıcı ünsürünü təşkil edir. Lakin əfsuslar olsun ki, bu şərhlər əsasən ərəb-fars mənşəli sözləri əhatə edir. Əsl Azərbaycan mənşəli arxaik sözlər üzərindən ya sükutla keçilir, ya da dil faktları ilə əsaslandırılmamış yozumlar irəli

sürülür. Odur ki, burada mövcud dərsliklərdə öz əksini tapmış belə tipik faktlara münasibət bildirmək istərdik.

Ana dili klassik ədəbiyyatımızın görkəmli şairlərindən sayılan Q.Bürhanəddinin yaradıcılığında XIV əsr Azərbaycan türkcəsinin əzəməti, gözəllliyi, təmizliyi daha zəngin boyalarla əks olunmuşdur. Ərliyi, ərənliyi, sadə ülvi məhəbbəti özünəməxsus poetik coşqunluqla tərənnüm edən bu qüdrətli söz ustadının qəzəl, tuyuq və rübailərində indi işləklikdən düşmüş arxaik söz və ifadələrə tez-tez rast gəlinir. Əvvəlki tədris illərində həm VII, həm də IX siniflərdə öyrədilən bu sənətkarın yaradıcılığını şagirdlərə daha anlaşıqlı formada çatdırmaq üçün müvafiq dərsliklərdə belə arxaizmlərin şərhinə geniş yer verilməsi xüsusi nəzərə çarpır. Lakin bu arxaizmlərin izahı dəqiqi ifadə olunmadığından təcrübədə müəyyən çətinliklər, fikir dolaşıqlığı yaratdığı da müşahidə edilir. Məsələn, VII sinif dərsliyində (2) şairin:

Hər zaman suya varıb gəlməz sənək.
Qayda keçər ər yerinə bir zənək.
Tanrıdan bolsa inayət bir qula,
Laçını dəxi çapar yer kükənək.

tuyuğuna belə bir şərh verilmişdir: “Bu misralarda da “Hər sənək sudan salamat çıxmaz”, “Mərdin yerini namərd tuta bilməz”, “Tanrı kömək edərsə, kəpənək də laçını tutar” kimi xalq məsəlləri öz bədii əksini tapmışdır” (2, 63). Bizcə, daha çox “Su sənəyi suda sınar”, “Kişinin kişi, qadının qadın yeri” atalar sözlərindən bəhrələnərək söylənilmiş ilk iki misranın yozumu o qədər etiraz doğurmasa da, “Tanrı kömək edərsə, kəpənək də laçını tutar” yozumu qeyri-ciddi görünməkdən əlavə, şagirdlərdə Q.Bürhanəddin məntiqinə şübhə yaradır. Hamını düşünməyə vadar edən hikmətli bir deyim, ən yaxşı halda, kinayə obyektinə çevrilir. Doğrudan da, hətta Yaradanın

ecazkar köməyi olsa belə, kəpənəyin laçını tutub yeyə bilməsi fikrini şagirdlərə inandırmaq, müəllimdən Yaradanın özü qədər möcüzə tələb edir. Təhlil göstərir ki, dərslik müəllifinin belə bir yozum irəli sürməsi arxaik "kükənək" sözünü "kəpənək" mənasında açıqlaması faktı ilə bağlıdır. Azərbaycan (türk) mənşəli qədim sözlərimizdən olan "kükənək" sözünün tarixən hansı mənanı ifadə etməsi müəllifə aydın olmadığı üçün forma (kükənək-kəpənək) oxşarlığı onu çaşdırmış və nəticədə göstərilən yanlış yozum meydana çıxmışdır. Maraqlıdır ki, hətta şairin "Divan"ında da (6) "kükənək" sözünün açımı səhv olaraq "bayquş" kimi verilmişdir (səh. 645).

Qədim türk yazılı abidələrində alıcı quşlar cinsindən olub qüvvəcə müqayisədə laçından nisbətən zəif "kükənək" ("göyənək" fonetik variantında) quşunun adı çəkilir (1, 63). Qaynaqlarda "ağ sunqur" kimi qeydə alınan laçın quşu alıcı quşların ən yırtıcısıdır. O, yeri düşdükcə öz fəsiləsindən olan digər quşlara, o cümlədən, görünür ki, kükənək quşuna da hücum edərmiş. Q.Bürhanəddinin göstərilən tuyuğunda belə bir fikir oxucuya çatdırılır ki, əgər Tanrının köməyi olsa, kükənək quşu özündən güclü olan laçın quşunu da yeyə bilər. Bu, həm Tanrının qüdrətinə, həm də şairin heyrətedici məntiqinə şagirdlərdə böyük rəğbət hissi oyadır. Burada belə bir tarixi gerçəklik də xatırladıla bilər ki, sərdar şairimiz 17 illik hakimiyyəti dövründə zəmanəsinin bir neçə qüdrətli sərkərdəsi ilə vuruşmalı olmuşdur. Həmin döyüşlərdə, ulu Tanrıya ümid yeri kimi baxan şair-sərkərdə düşmənin gücünü qiymətləndirərək onu laçına, özünü isə kükənəyə bənzətmişdir. Təbii ki, "kükənək" sözünün nə "kəpənək", nə də "bayquş" açımı burada özünü doğrultmur.

Həmin dərslikdə Q.Bürhanəddinin:

Ər yigit qayda ürkər ürkülərdən,
Yaxşı at bəlinməz ilkülərdən.
Düşmənlər bizdə bolsa ditrəşsünlər,
Qağan aslan qaypınmaz dülgilərdən.

tuyuğunda işlənmiş “qağan aslan” ifadəsinin “nər şir, erkək şir” kimi izahı da qeyri-dəqiqdir. Əvvəlki yozumla müqayisədə bu, bir o qədər ciddi anlaşılmazlıq yaratmasa da, tarixi dil faktına sərbəst münasibət qəbuledilməzdir. İstər “Kitabi-Dədə Qorqud” boylarında, istərsə də orta əsr yazılı abidələrimizin dilində cinsinə fərq qoyulmadan “aslan” sözünün qarşısında əlamət bildirən “qağan” təyini dönə-dönə işlədilmişdir (Belə bir məqamda “Aslanın erkəyi, dişisi olmaz” qədim atalar sözümüz yada düşür). “Qızmış, kükrəmiş, qəzəbli” mənasını ifadə edən bu arxaizm (etimoloji baxımdan “qaq(maq) – qəzəblən(mək)” fel kökünə *-an* ad düzəldən şəkilçisinin əlavəsi ilə düzəlib) göstərilən tuyuqda da həmin mənasını daşıyır və bu məna əsasında da şagirdlərə şərh olunmalıdır.

Qeyd edildiyi kimi, Q.Bürhanəddin yaradıcılığı həm də IX sinifdə (bu ildən başlayaraq yalnız həmin sinifdə) tədris olunur. Tanınmış ədəbiyyatşünas Ə.Səfərli və X.Yusiflinin hazırladıqları müvafiq dərslikdə də bədii əsərlərin dili ilə bağlı şərhlərə geniş yer verilmiş və bu, Q.Bürhanəddin yaradıcılığına aid hissədə də öz əksini tapmışdır. Lakin həmin şərhlərin bəzisi reallığa əsaslanmır. Faktlara müraciət edək. Şairin:

Eşqin ayağını içən ayıla görmədim.
Yüzün görəli ürkəri ayıla görmədim (6, 144).

beytində işlənmiş “ürkəri” söz forması dərslikdə “tez, cəld” kimi mənalandırılmışdır. Məlumdur ki, klassik ədəbiyyatımızın dilində işlənmiş bəzi sözlər tarixi inkişaf prosesində sonralar forma və mənaca tamamilə arxaikləşərək, ümumiyyətlə, dildən çıxmışsa, bəziləri forma sabitliyini saxlayaraq yalnız məna dəyişikliyinə uğramışdır. Ona görə də şərhlərin verilməsi zamanı bu mühüm elmi nəticə mütləq nəzərə alınmalıdır. Bu baxımdan “ürkəri” söz forması məna daralmasına uğrasa da (indi yalnız heyvanlara aid edilir:

məsələn, at ürkdü), öz işləkliyini hələ də itirməmiş qədim "ürk(mək)" felinin (geniş mənada "qorxmaq, diksinmək") arxaik *-əri* feli bağlama şəkilçisi ilə düzəlmiş formasıdır ki, müqayisə yolu ilə həmin mənanı şagirdlərə asanlıqla anlatmaq mümkündür. Bu tutuşdurma şagirdlərin həm dil duyumunun inkişafına, həm dilimizin qrammatik quruluşu ilə bağlı biliklərin dərinləşməsinə, həm də beytin şüurlu qavranılmasına imkan yaradır. Bu zaman birinci misradakı kökdaş (eyniköklü) "ayaq" (şərab qabı) və "ayıl(maq)" (məst olmaq) arxaizmlərinin şərhi unudulmamalıdır.

Yenə də həmin dərlsikdə şairin:

Bən səni sevərəm, sevisərəm,
Bu sözü türkcə qoyux deyəlim.
Vəsfinə gah qəsidə, gah qəzəl,
Gah rübaivü, gah tuyuq deyəlim.

dördlüyünün ikinci misrasında getmiş arxaik "qoyux" sözünün müasir qarşılığının verilməməsi fənn müəllimlərini müəyyən qədər çətinliyə salır. Tarixən söz sonunda *x* samitini itirməsi yolu ilə fonetik tərkibcə dəyişmiş bu söz "bərk, möhkəm, qatı" mənasını indi də saxlamaqdadır (məsələn, qoyu palçıq). Buna görə də ilk iki misra aşağıdakı kimi açıqlanmalıdır: "Mən səni sevirəm, sevəcəyəm (-isrə tarixən gələcək zaman mənası ifadə edən arxaik şəkilçidir), bu sözü türkcə möhkəm (yəni bərkdən, ucadan) deyək". Göründüyü kimi, sevgisini heç kəsdən gizləməyib təmiz türkcə onu uca bir səslə hamıya çatdırmağı özünə borc bilən şair bu hisslərinin vəsfinə qəzəl, qəsidə, rübai və tuyuq qoşmağı yaradıcılığının əsas qayəsi hesab etmişdir.

Dərslik müəllifləri:

Nay ki, əsli saz ola, sazı nayə bənzədim,
Kirpigi ilə qaşını ox ilə yaya bənzədim.

beytini bədii sənətkarlıq baxımından təhlilə cəlb edərək, nədənsə, fikirlərini yalnız ikinci misra üzərində qurmuşlar . Əslində dil və poetik ifadə baxımından birinci misra heç də ikinci misradan geri qalmır. Əksinə, onun izahı şagirdlərdə şairin dilimizin zəngin söz ehtiyatından bacarıqla istifadə qüdrətinə heyrət oyadır. Məlumdur ki, ney (şeirdə "nay" fonetik varinatında) musiqi aləti, adətən, qamışdan düzəldilir. Qədim türkcədə isə qamışa "saz" deyilib ki, həmin misrada bu fikir qabardılaraq verilib.

Dil tarixi elementlərindən istifadənin Nəsimi, Füzuli, Vaqif, Nəbati, S.Ə.Şirvani, Sabir və başqa klassik söz ustalarımızın yaradıcılığının mənimsənilməsində müsbət rol oynadığı şübhəsizdir və buna görə də mövcud nəzəri və müntəxəbat dərsliklərində ona geniş yer verilməlidir. Lakin təhlil göstərir ki, bu iş bəzən sistemli aparılmamış, bəzi arxaik sözlər şərhsiz buraxıldığı kimi, bəzilərinin də şərhində yanlışlığa yol verilmişdir. Məsələn, VII sinif dərsliyinin əvvəlki nəşrlərində Nəsiminin məşhur "Ağrımaz" rədifli qəzəlinin:

Cəhli-namərdin qaçan meydan günündə yeri var,
Ər bilir meydan qədrin kim, qədərlər ağrımaz.

beytində işləmiş "qədərlər" sözünə "qədir-qiymət verənlər" izahı verildiyi halda (2, 77), yenidən işlənmiş və təkmilləşdirilmiş son nəşrində: "qədim Azərbaycan sözüdür, "soymaq, sancmaq" mənasını bildirir" kimi tarixi mənbələrlə sübuta yetirilməyən qeyri-dəqiq şərhi verilmişdir. Müəllifin daha düzgün olan fikrini dəyişdirməyə nə vadar etdiyi bizə aydın deyil. "Qədər" sözü ərəb mənşəlidir və bu fonetik variantda, xüsusən dilarxası *q* və dilönü *ə* saitinin yanaşı işlənməsindən ibarət Azərbaycan mənşəli sözümüz yoxdur. Ona görə də göstərilən məna yozumu "göydəndüşmə" təsiri bağışlayır.

Sadə və aydın leksikonu ilə klassik ədəbiyyatımıza yeni ruh gətirən böyük şairimiz M.P.Vaqifin yaradıcılığının öyrədilməsində

bu tipli tarixi kommentarilərin faydası əvəzsizdir. Lakin dərslikdə bəzi arxaizmlərim şərhi verilmədiyi üçün müəllim elmi ədəbiyyata istinad etməli olur ki, o, burada müxtəlif mövqelərlə, yozumlarla qarşılanır. Məsələn, məşhur "Pəri" qoşmasının "Nə gözəl doğubsan anadan, Pəri" və "Şəkər gülüşündən canlar təzəli" misralarının şərhi ilə bağlı prof. A.Qurbanov yazır: "Burada sözlər qrammatik ixtisarlara məruz qalmışdır. Məsələn: "Şəkər gülüşündən canlar təzəli" misrasındakı "təzəli" sözü "təzələnir" feli yerində işlənmişdir. Yaxud, "nə gözəl doğubsan anadan, Pəri" misrasındakı "doğubsan" feli "doğulubsan" şəklində işlənməli idi (8, 133). Bədii mətnin linqvistik təhlilində tarixiliyi başlıca prinsip kimi götürən müəllif incə bir fikir təhrifinə yol vermişdir. "Doğmaq" feli tarixən elə "doğulmaq" mənasını ifadə etdiyi üçün şeirdəki "doğubsan" sözünü çox-çox sonralar dilimizdə formalaşmış "doğulubsan" şəklinin qrammatik ixtisarı saymaq düzgün deyil. "Gün doğdu", "Ay doğdu" deyimlərində indi də yaşamaqda davam edən bu məna Vaqif dövrü üçün xarakterikdir. Alimin "təzəli" feli forması ilə bağlı fikri düzgündür, lakin əlavə açıqlamaya ehtiyacı var.

Dil tariximizin tanınmış tədqiqatçısı prof. T.Hacıyevin həmin misranın qrammatik forması ilə bağlı qənaəti tamamilə fərqlidir: "Bütöv-bütöv misralardan ibarət təyinlər həm təyindir, həm də misraları cümlələşdirən predikatdır. Onların funksiyaları ikilidir, ancaq sintaksisin aydınlığı və ədəbiliyi kölgələnmir: "İxtilatın şirin, sözün məzəli, Şəkər gülüşündən canlar təzəli. Ellər yaraşığı, dünya gözəli, Nə gözəl doğubsan, anadan Pəri" – qəribədir, şair "canlar təzəli" ifadəsi işlədir. İndi belə sifət-təyin yoxdur. Bu söz ancaq təzəli-köhnəli qəlibində yaşayır. Görünür, Vaqifin vaxtında söz həmin morfologiyası ilə qədim müstəqil sifət-təyin funksiyasının sonunu yaşayırmış" (5, 115). Nəticə nə qədər cəlbedici olsa da, morfoloji inkişaf nöqteyi-nəzərindən özünü doğrultmur. Çünki "təzəli" sözü bu məqamda indiki zamanda işlənmiş feldir. O heç də

“təzə” sifətinə -*li* sifət düzəldən şəkilçisinin əlavəsi ilə deyil, “təzə” sifətinə -l fel düzəldən şəkilçisinin artırılması yolu ilə düzəlib (müqayisə et: köhnə-köhnəl(mək), qoca-qocal(maq), incə-incəl(mək) və s.), -*i* şəkilçisi isə canlı xalq dili üçün xarakterik olub, orta əsr yazılı abidələrimizin dilində də işlənmiş indiki zaman şəkilçisidir. Həmin fel forması Vidadinin VII sinifdə öyrədilən “Dəli könül, gəl əylənmə qürbətdə” misrası ilə başlanan qoşmasında eynilə işlənmişdir:

Oxuduqca qəmli şeri-qəzəli,
Köhnə yaralarım bir-bir təzəli...

Bu fel formasına Qurbani qoşmalarından birində də rast gəlirik:

Qayıtmaq istəməz gözüm gözəldən
Qayğımı artırar, dərdim təzəldən... (7, 104)

Dilimizin sonrakı inkişaf mərhələsində “təzəl(mək)” feli öz işləkliyini saxlaya bilməmiş, “təzələnmək” variantında normalaşmışdır. Deməli, “təzəl(mək)” forması daha qədimdir və onun “təzələnmək” fel formasının ixtisarı kimi şərhi də tarixi inkişafı təhrif etmək deməkdir.

Məktəb təcrübəsinin təhlili göstərir ki, dil baxımından şərhə ehtiyac duyulan beytlərdən biri də XIX əsrin qüdrətli şairlərindən sayılan Ə.Nəbatinin “Eşq camından içən kimsənə huşyar olmaz” misrası ilə başlayan məşhur qəzəlin ikinci:

Qorxu bilməz, eləməz şahü gədadan pərva,
Məst-məstanə gəzər, kağazü tumar olmaz.

beytidir. Klassik şərq şeirinin “ləffü nəşr” poetik ifadə vasitəsindən sənətkarlıqla istifadə edən şair “şah” və “gəda” sözlərini birinci

